RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN





№ 138 (9305) 6 İYUL 2023-cü il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# İLHAM ƏLİYEV irqçiliyə, ədalətsizliyə, separatçılığa qarşı qlobal mübarizə platforması yaradır

**BMT Təhlükəsizlik Şurasında islahatların aparılmasını zəruri sayan və müstəmləkə siyasəti həyata keçirən ölkələri ifşa edən Azərbaycan Prezidenti Qoşulmama Hərəkatına üzv dövlətlərin qanuni maraqlarını daim qoruyacağını bildirdi**




**İLHAM ƏLİYEV:**

- Azərbaycan Qoşulmama Hərəkatına sədrliyi dövründə "Bandunq prinsipləri" əsasında ədaləti, beynəlxalq hüququ və üzv ölkələrin qanuni maraqlarını qətiyyətlə qorudu.
- Hərəkatın institusional inkişafı, xüsusən də müvafiq olaraq 2021-ci və 2022-ci illərdə Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin və Qoşulmama Hərəkatı Gənclər Təşkilatının yaradılması Azərbaycanın sədrliyinin növbəti nailiyyətidir. Biz hazırda Qoşulmama Hərəkatının qadınlar platformasının yaradılması üzərində işləyirik. İnstitusional davamlılığa doğru atılan bu addımlarla biz növbəti sədrlərə mütləq uğurlu bir miras qoyacağıq.
- BMT-də ciddi islahatların aparılması qaçılmazdır. BMT Təhlükəsizlik Şurası keçmişin qalığıdır və hazırkı reallıqları əks etdirmir. Biz Təhlükəsizlik Şurasında daha çox ölkənin təmsil olunması və coğrafi baxımdan daha ədalətli olması üçün onun tərkibinin genişləndirilməsinin tərəfdarıyıq.
- Fransanın Avropadan kənarda idarə etdiyi ərazilər fransız müstəmləkə imperiyasının iyrənc qalıqlarıdır. Fransa Qəmər adalarının Mayot adası üzərində suverenliyinə, həmçinin Yeni Kaledoniya xalqının, o cümlədən özünün digər dənizaşırı icma və ərazilərində yaşayan xalqların hüquqlarına hörmət etməlidir. Fransanın soyqırımlarla dolu hakimiyyəti dövründə 1,5 milyona yaxın əlcəzairli qətlə yetirilib. Hələ də Paris muzeyində əlcəzairli azadlıq döyüşçülərinin kəllə sümükləri müharibə qənimətləri kimi saxlanılır. Bu, utancverici və iyrənc hərəkətdir. Biz Fransa Prezidenti Emmanuel Makrondan həmin qəhrəmanların qalıqlarını Əlcəzairə təhvil verməsini tələb edirik.
- Özünü yalandan insan haqlarının və beynəlxalq hüququn müdafiəçisi kimi qələmə verən Fransa hələ də digər ölkələrin daxili işlərinə qarışır. Fransa qoşunlarının bu yaxınlarda Mali və Burkina-Fasodan çıxarılması onun Afrikadakı amansız neokolonializm siyasətinin uğursuzluğa məhkum olduğunu bir daha göstərdi. Təəssüf ki, Fransa Azərbaycanın Qarabağ bölgəsində erməni separatizmini dəstəkləyərək geosiyasi rəqabət, xarici hərbi mövcudluq və "Orientalizm" müstəmləkəçilik siyasəti ilə Cənubi Qafqaz regionunda da eyni mənfur təcrübəni tətbiq etməyə çalışır.
- Fransa öz müstəmləkə keçmişinə, qanlı müstəmləkə cinayətlərinə və soyqırımı aktlarına görə Qoşulmama Hərəkatına üzv olan Afrika, Cənub-Şərqi Asiya ölkələrindən və digər ölkələrdən üzr istəməlidir.
- Biz geniş vüsət alan islamofobiya və ksenofobiya hallarından, həmçinin islamın zorakılıq və terrorla eyniləşdirilməsi cəhdlərindən narahatıq. Danimarkada, Niderlandda, İsveçdə müqəddəs Quranın yandırılması, təhqir olunması və buna ifadə azadlığı adı altında bəraət qazandırılması tamamilə məsuliyyətsizlikdir, qəbulolunmazdır və bu, pislənilməlidir.
- 2020-ci ildə Azərbaycan Ermənistanı döyüş meydanında məğlub edərək Ermənistanın 30 illik işğalına son qoydu. İşğalçı ölkə kimi Ermənistan kapitulyasiya aktını imzalamağa məcbur oldu. Bununla da Azərbaycan öz ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etdi, BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi dörd qətnaməsinin icrasını özü təmin etdi. Azərbaycanın bu qələbəsi beynəlxalq hüququn və ədalətin zəfəridir.
- Ərazilərimiz işğaldan azad edildikdən sonra Azərbaycan indi bir sıra nəhəng çağırışlarla üz-üzədir. Keçmişdə işğal altında olmuş ərazilərdəki dağıntıların miqyasından dəhşətə gəldik. Azərbaycanın şəhər və kəndləri Ermənistan tərəfindən qəsdən dağıdılmış, talan olunmuş, bütün mədəni və dini abidələr, məscidlər təhqir olunmuş, qarət edilmişdir. Ermənistan işğal etdiyi ərazilərdə urbisid, kultursid və ekosid törətmişdir.
- Ermənistanın işğalının digər mənfi fəsadı minalardır. Azərbaycan hazırda dünyada minalarla ən çox çirkləndirilmiş on ölkə sırasındadır. 2020-ci ilin noyabrında Vətən müharibəsi başa çatdıqdan sonra mina partlayışı nəticəsində təxminən 300 azərbaycanlı həlak olub və ya ağır yaralanıb. İşğaldan azad edilmiş ərazilərdə baş verən hər bir mina partlayışı Ermənistanın törətdiyi hərbi cinayətlərin uzun siyahısının davamıdır.
- Azərbaycan işğaldan azad edilmiş 10 min kvadratkilometrlik ərazidə özünün maliyyə imkanları hesabına sıfırdan irimiqyaslı yenidənqurma işlərini uğurla həyata keçirir.
- Ermənistanın Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanımağa məcbur olmasına baxmayaraq, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində hələ də Ermənistan silahlı qüvvələrinin qalıqları mövcuddur. Əgər Ermənistan həqiqətən də regionda çoxdan gözlənilən sülhdə maraqlıdırsa, onda onun silahlı qüvvələri Azərbaycanın Qarabağ bölgəsindən tamamilə çıxmalıdır. Bölgədəki erməni hərbi və yarımhərbi elementləri tərk-silah edilməlidir.

## Prezident İlham Əliyevin çıxışı

**İyulun 5-də Bakı Konqres Mərkəzində Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun "Qoşulmama Hərəkatı: meydana çıxan çağırışlarla mübarizədə birgə və qətiyyətli" mövzusunda nazirlər görüşü keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının xarici işlər naziri **Ceyhun Bayramov** Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşünün iştirakçılarını salamlayaraq tədbiri açıq elan etdi.

Əvvəlcə Qoşulmama Hərəkatına üzv ölkələrin 2019-cu ildən bu günədək həyatını itirən rəhbərlərinin xatirəsi birdəqiqəlik sükutla yad edildi.

Nazir Ceyhun Bayramov dedi ki, Kampala Sammitinə hazırlıq çərçivəsində nazirlərin bu görüşü 2019-cu ildə Bakıda Qoşulmama Hərəkatının Zirvə toplantısından sonra əldə edilən nailiyyətləri nəzərdən keçirməyə imkan yaradacaq. Həmçinin müxtəlif çağırışlara birgə yanaşmamızı və baxışımızı ifadə etmək imkanımız olacaq.

Sonra nazir Ceyhun Bayramov çıxış üçün sözü Azərbaycan Respublikasının Prezidenti, Qoşulmama Hərəkatının sədri İlham Əliyevə verdi.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

- Hörmətli nazirlər.

Xanımlar və cənablar.

Əziz qonaqlar.

Mən sizin hamınızı Bakıda Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşündə salamlayıram.

Qoşulmama Hərəkatı ölkələrinin yekdil qərarı ilə Azərbaycan 2019-2022-ci illər üçün sədrliyi öz üzərinə götürdü və yenidən yekdil qərarla sədrliyimiz daha bir il uzadıldı.

Azərbaycan Qoşulmama Hərəkatına sədrliyi dövründə "Bandunq prinsipləri" əsasında ədaləti, beynəlxalq hüququ və üzv ölkələrin qanuni maraqlarını qətiyyətlə qorudu.

Beynəlxalq ictimaiyyət COVID-19 pandemiyası ilə necə mübarizə aparacağı barədə çaşqın vəziyyətdə olarkən, misli görünməmiş bu çağırışla mübarizədə qlobal səyləri birləşdirən Qoşulmama Hərəkatı oldu.

2020-ci ilin mayında Azərbaycanın təşəbbüsü ilə təşkil edilmiş Qoşulmama Hərəkatının liderlər səviyyəsində onlayn sammiti 2020-ci ilin dekabrında BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi ilə nəticələndi. Bundan əlavə, Qoşulmama Hərəkatının bəzi zəngin ölkələr tərəfindən yürüdülən "peyvənd millətçiliyi"nə güclü etirazı və bunun ardınca bütün ölkələr üçün peyvəndlərə ədalətli və universal çıxışla bağlı BMT qətnamələrinin qəbul edilməsi Qoşulmama Hərəkatının koronavirusla mübarizədə liderliyinə dəlalət edir.

Hərəkatın institusional inkişafı, xüsusən də müvafiq olaraq 2021-ci və 2022-ci illərdə Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin və Qoşulmama Hərəkatı Gənclər Təşkilatının yaradılması Azərbaycanın sədrliyinin növbəti nailiyyətidir. Biz hazırda Qoşulmama Hərəkatının qadınlar platformasının yaradılması üzərində işləyirik. İnstitusional davamlılığa doğru atılan bu addımlarla biz növbəti sədrlərə mütləq uğurlu bir miras qoyacağıq.

→ 2-3



## Azərbaycan Qoşulmama Hərəkatına sədrliyi ilə mükəmməl nümunə formalaşdırıb

**Qoşulmama Hərəkatı Azərbaycanın fəal iştirak etdiyi beynəlxalq təşkilatlardan biridir. Digər təşkilatlardan fərqli olaraq Azərbaycan QH-yə bir qədər gec daxil olsa da, respublikamız burada olduqca böyük uğurlara nail olub. Üzv olduqdan cəmi 8 il sonra quruma sədrlik edən Azərbaycan təşkilatın potensialını üzv dövlətlərin maraqları naminə səmərəli realizə edir.**

### Qlobal etimad

QH BMT-dən sonra dünyanın ikinci böyük təşkilatıdır. 120 ölkəni birləşdirən qurum dünyadakı mövcud təşkilatlar arasında istər tarixi, istər üzvlərinin sayı baxımından kifayət qədər sanballı qurumdur. Azərbaycanın üzv olduğu digər təşkilatlarla müqayisədə bu hərəkatda iştirakı nisbətən yenidir. Belə ki, respublikamız QH-yə cəmi 12 il əvvəl - 2011-ci ildə tam hüquqlu üzv olmaq barədə qərar verib.

Qoşulmama Hərəkatının XVIII Zirvə görüşünün 2019-cu ildə Prezident İlham Əliyevin sədrliyi ilə Bakıda keçirilməsi və 2019-2022-ci illər üzrə sədrliyin Azərbaycana həvalə edilməsi ölkəmizin böyük diplomatik uğuru oldu. Bu Zirvə görüşünə evsahibliyi üçün Azərbaycanın paytaxtının seçilməsi Prezident İlham Əliyevin müdrik və uzaqgörən siyasətinin məntiqi nəticəsi idi.

→ 7

## İlham Əliyev sülhün şərtini söylədi

### Əgər Ermənistan sülh istəyirsə, ordusunun qalıqlarını Qarabağdan çıxarmalıdır

"Ermənistanın Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanımağa məcbur olmasına baxmayaraq, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində hələ də Ermənistan silahlı qüvvələrinin qalıqları mövcuddur".

İyulun 5-də Bakıda keçirilən Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşündə çıxışı zamanı İlham Əliyevin diqqətə çatdırdığı kimi, Ermənistan hələ də 2020-ci il noyabrın 10-da imzaladığı üçtərəfli Bəyanatın şərtlərinə əməl etməkdən yayınır və bununla da birbaşa iki ölkə arasında normallaşmaya, sülhə nail olunmasına əngəl törətməyə çalışır.

Ötən iki il yarım müddətdə "hay taktikası"na uyğun olaraq, dildə bir söz deyib, əməldə ayrı iş tutan, sülhlə bağlı baş tutan üçtərəfli görüşlərdə rəsmən Qarabağı Azərbaycan ərazisi kimi tanıdığını bəyan edən, lakin hələ də Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Qarabağ bölgəsindən silahlı tör-töküntülərini çıxarmayaraq ölkəmizə qarşı ərazi iddiasından əl çəkmədiyini göstərən Hayastanın məramının heç də sülhə xidmət etmədiyini görürük.

→ 7

## ABŞ səfiri Hayastanı silkələdi

ABŞ-nin Hayastandakı səfiri Kristina Quinnin açıqlaması bu ölkənin siyasi dairələrində böyük rezonans doğurub, əsasən də keçmiş hərbi xunta təmsilçilərinin etirazlarına səbəb olub.

Səfir qeyd edib ki, ABŞ Qarabağ ermənilərinin Azərbaycanın tərkibində təhlükəsiz yaşaya biləcəklərinə inanır və ümid edir. "ABŞ istənilən növ danışıqların müsbət tendensiya olduğuna inanır. ABŞ Cənubi Qafqazda sülhün tərəfdarıdır. Biz diqqəti nəqliyyat əlaqələrinə yönəltməyi təklif edirik. İnkişaf etmiş nəqliyyat şəbəkəsi Ermənistanın xeyrinə olacaq və onun 2-3 bazardan asılılığını azaldacaq" - deyə səfir əlavə edib.

Açıqlaması ilə Hayastanı silkələyən səfir qeyd edib ki, ABŞ Ermənistan və Azərbaycan arasında aparılan danışıqların yekun nəticəsinin tərəflərin maraqlarına uyğun möhkəm sülh olmasını istəyir.

Kristina Quinnə bu açıqlamasından sonra az qala "Hayastanın düşməni" elan ediləcək səviyyədə böyük təzyiqlər var. Bundan sonra Hayastanda bir qrup vətəndaş Qarabağın Azərbaycanın bir hissəsi kimi tanınmasını kriminallaşdıran təklif üçün imza toplanmasına başlayıb. "Ayakve" adlı bu qrupa ictimai fiqurlar, mədəniyyət xadimləri, keçmiş məmur və deputatlar daxildir. Təşəbbüs müəllifləri ölkənin Cinayət Məcəlləsinə Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıyan vəzifəli şəxslər üçün məsuliyyət nəzərdə tutan düzəlişin edilməsini təklif edirlər.

→ 16

# İLHAM ƏLİYEV irqçiliyə, ədalətsizliyə,

## BMT Təhlükəsizlik Şurasında islahatların aparılmasını zəruri sayan və müstəmləkə siyasəti həyata keçirən ölkələri ifşa edən




## Prezident İlham Əliyevin çıxışı

*Əvvəli 1-ci səh.*

Beynəlxalq ictimaiyyətin məsuliyyətli və fəal üzvü olaraq biz həmçinin postpandemiya dövrü haqqında düşünməli olduq. Beləliklə, Azərbaycan bu ilin mart ayında Bakıda Qoşulmama Hərəkatının pandemiyadan sonrakı bərpaya həsr olunmuş növbəti sammitini uğurla təşkil etdi. Biz burada qlobal əhəmiyyətə malik məsələləri müzakirə etdik və pandemiyadan sonrakı dövrdə daha yaxşı bərpa üzrə fikirlərimizi bölüşdük.

Ehtiyacı olan ölkələrə yardım göstərmək Azərbaycanın sədrliyinin digər prioriteti idi. Azərbaycan əksəriyyəti Qoşulmama Hərəkatına üzv olan 80-dən çox ölkəyə ya ikitərəfli qaydada, ya da Ümumdünya Səhiyyə Təşkilatı vasitəsilə COVID-19 ilə bağlı maliyyə və humanitar dəstək göstərib. Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları məbləğində könüllü töhfə verib. Biz həmçinin beş ölkəni peyvəndlə təmin etmişik.

Yuxarıda qeyd etdiyim mart sammitində mən həmçinin Afrika və inkişaf etməkdə olan kiçik ada dövlətlərinə postpandemiya dövründə bərpanı dəstəkləmək üçün iki qlobal çağırış elan etdim. Azərbaycan ilk donor kimi hər iki çağırış üçün bir milyon ABŞ dolları ayırdı.

Xanımlar və cənablar, multilateralizmin əsl müdafiəçisi və BMT-dən sonra ikinci böyük təsisat kimi Qoşulmama Hərəkatı yenidən formalaşan dünya nizamında öz yerini tapmalıdır. Biz "Bandunq prinsipləri" ətrafında qətiyyətlə dayanmalı, suverenliyin və ərazi bütövlüyünün pozulması, ölkələrin daxili işlərinə müdaxilə hallarına qarşı öz səsimizi ucaltmalıyıq. Hərəkatımızın dünya məsələlərində daha ön mövqedə olması mühüm əhəmiyyət kəsb edir.

Multilateralizm bizim güclü vasitəmizdir. Hazırda beynəlxalq təşkilatlar, xüsusilə BMT bəşəriyyətin gözləntilərinə cavab vermir. BMT-də ciddi islahatların aparılması qaçılmazdır. BMT Təhlükəsizlik Şurası keçmişin qalığıdır və hazırkı reallıqları əks etdirmir. Biz Təhlükəsizlik Şurasında daha çox ölkənin təmsil olunması və coğrafi baxımdan daha ədalətli olması üçün onun tərkibinin genişləndirilməsinin tərəfdarıyıq. Şadam ki, bu gün bu ideya ilə bağlı dünyada artan konsensus vardır.

Əvvəllər qeyd etdiyim kimi, BMT Təhlükəsizlik Şurasında Qoşulmama Hərəkatına bir daimi yer verilməlidir. Zənnimizcə, Qoşulmama Hərəkatına, İslam Əməkdaşlıq Təşkilatına və Afrika İttifaqına sədrlik edən ölkələr BMT Təhlükəsizlik Şurasında veto hüququ ilə rotasiya əsasında yer almalıdırlar.

Azərbaycan neokolonializm meyillərinin artmasından olduqca narahatdır. Dekolonizasiya prosesi nəticəsində yaranmış Qoşulmama Hərəkatı keçmişin bu utancverici mirasına qarşı qətiyyətlə mübarizə aparmalı və onun tamamilə aradan qaldırılmasına öz töhfəsini verməlidir.

Neokolonializmi hələ də davam etdirən ölkələrdən biri Fransadır. Fransanın Avropadan kənarda idarə etdiyi ərazilər fransız müstəmləkə imperiyasının iyrənc qalıqlarıdır. Fransa Qəmər adalarının Mayot adası üzərində suverenliyinə, həmçinin Yeni Kaledoniya xalqının, o cümlədən özünün digər dənizaşırı icma və ərazilərində yaşayan xalqların hüquqlarına hörmət etməlidir. Mən öz haqq işlərini və azadlıq arzularını beynəlxalq ictimaiyyətə çatdırmaq üçün Bakı nazirlər görüşü çərçivəsində tədbir keçirəcək Fransanın dənizaşırı icma və ərazilərindən olan hörmətli nümayəndələri salamlayıram.

Fransanın soyqırımlarla dolu hakimiyyəti dövründə 1,5 milyona yaxın əlcəzairli qətlə yetirilib. Hələ də Paris muzeyində əlcəzairli azadlıq döyüşçülərinin kəllə sümükləri müharibə qənimətləri kimi saxlanılır. Bu, utancverici və iyrənc hərəkətdir. Biz Fransa Prezidenti Emmanuel Makrondan həmin qəhrəmanların qalıqlarını Əlcəzairə təhvil verməsini tələb edirik.

Özünü yalandan insan haqlarının və beynəlxalq hüququn müdafiəçisi kimi qələmə verən Fransa hələ də digər ölkələrin daxili işlərinə qarışır. Fransa qoşunlarının bu yaxınlarda Mali və Burkina-Fasodan çıxarılması onun Afrikadakı amansız neokolonializm siyasətinin uğursuzluğa məhkum olduğunu bir daha göstərdi. Təəssüf ki, Fransa Azərbaycanın Qarabağ bölgəsində erməni separatizmini dəstəkləyərək geosiyasi rəqabət, xarici hərbi mövcudluq və "Orientalizm" müstəmləkəçilik siyasəti ilə Cənubi Qafqaz regionunda da eyni mənfur təcrübəni tətbiq etməyə çalışır.

Fransa XX əsrin ikinci yarısı boyunca Əlcəzairdə və özünün dənizaşırı ərazilərində - Sakit okeanda, Fransa Polineziyasında bir neçə nüvə silahı sınağı keçirmiş və bununla da qlobal səviyyədə ətraf mühitin deqradasiyasına, yerli icmalarda ciddi sağlamlıq problemlərinə səbəb olmuşdur.

Fransa öz müstəmləkə keçmişinə, qanlı müstəmləkə cinayətlərinə və soyqırımı aktlarına görə Qoşulmama Hərəkatına üzv olan Afrika, Cənub-Şərqi Asiya ölkələrindən və digər ölkələrdən üzr istəməlidir.

Bir neçə gün əvvəl Niderland kralı ölkəsinin müstəmləkə keçmişinə və qul ticarəti ilə məşğul olduğuna görə rəsmən üzr istəyib. Biz onun fransız həmkarını da həmin hərəkəti etməyə çağırırıq. Heç vaxt olmamaqdansa gec olması yaxşıdır.



# separatçılığa qarşı qlobal mübarizə platforması yaradır

## Azərbaycan Prezidenti Qoşulmama Hərəkatına üzv dövlətlərin qanuni maraqlarını daim qoruyacağını bildirdi




Əcdadları müstəmləkə siyasətinə məruz qalmış, qul kimi istifadə olunmuş, öldürülmüş, işgəncələr verilmiş və alçaldılmış insanlardan milyonlarla insanın qarşısında üzr istənilməsi yalnız Fransanın tarixi günahının etirafı olmayacaq, həm də Fransanın əlcəzairli yeniyetmənin vəhşicəsinə öldürülməsindən sonra qarşılaşdığı dərin siyasi, sosial və humanitar böhranın nəticələrinin aradan qaldırılmasına kömək edəcək.

Fransada, xüsusilə də mediada və internetdə müəyyən etnik azlıqlara qarşı davamlı və geniş şəkildə yayılmış irqçi, ayrı-seçkilik salan fikirlər, rəsmi şəxslər və parlamentin iki palatasının üzvləri tərəfindən irqi nifrət xarakterli çıxışlar getdikcə artmaqdadır. Bu yaxınlarda Əlcəzairəsilli 17 yaşlı yeniyetmənin Fransa polisi tərəfindən qətlə yetirilməsi bu ölkədə irqçiliyin və islamofobiyanın daha bir əlamətidir. Bu baxımdan biz BMT-nin polisin atəş açmasını pisləyən və Fransanı "hüquq-mühafizə orqanlarında irqçilik və ayrı-seçkiliyin dərin problemlərini ciddi şəkildə həll etməyə" çağıran bəyanatını dəstəkləyirik.

Fransa hətta Korsika dilinə qadağa qoyur və etnik azlıqlar konsepsiyasını qəbul etmir, lakin eyni zamanda özünü Azərbaycandakı erməni milli azlığının müdafiəçisi kimi göstərməyə çalışır. Bu, riyakarlıq və ikili standartlardan başqa bir şey deyil.

Fransa hakimiyyəti başqalarına mühazirə oxumağa cəhd etmək əvəzinə, öz ölkəsində bu cür narahatedici meyillərlə mübarizə aparmalıdır.

Əziz dostlar, iqlim dəyişikliyi, su qıtlığı, ərzaq təhlükəsizliyi, məcburi miqrasiya kimi məsələlər bizim daimi diqqətimizi tələb edir. İnkişaf etməkdə olan kiçik ada dövlətləri iqlim dəyişikliyinin təsirlərinə daha həssasdır və ekzistensial təhlükə ilə üzləşirlər. Miqrant qayıqlarının Aralıq dənizində qəzaya uğramasının dəhşətli fotoları xüsusilə narahatedicidir.

Fikrimizcə, mədəniyyətlərarası və dinlərarası dialoqun təşviqi bizim gündəliyimizdə öndə duran məsələlər olmalıdır. Biz geniş vüsət alan islamofobiya və ksenofobiya hallarından, həmçinin islamın zorakılıq və terrorla eyniləşdirilməsi cəhdlərindən narahatıq. Danimarkada, Niderlandda, İsveçdə müqəddəs Quranın yandırılması, təhqir olunması və buna ifadə azadlığı adı altında bəraət qazandırılması tamamilə məsuliyyətsizlikdir, qəbulolunmazdır və bu, pislənilməlidir.

Xanımlar və cənablar, sədrliyimiz dövründə Azərbaycan xalqı üçün ən önəmli və yaddaqalan məqam Vətən müharibəsində bizim tarixi qələbəmiz oldu. 2020-ci ildə Azərbaycan Ermənistanı döyüş meydanında məğlub edərək Ermənistanın 30 illik işğalına son qoydu. İşğalçı ölkə kimi Ermənistan kapitulyasiya aktını imzalamağa məcbur oldu. Bununla da Azərbaycan öz ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etdi, BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi dörd qətnaməsinin icrasını özü təmin etdi. Azərbaycanın bu qələbəsi beynəlxalq hüququn və ədalətin zəfəridir.

Otuz il əvvəl Ermənistan Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazilərinin təxminən 20 faizini işğal etdi, həm Ermənistanda, həm də Azərbaycanın işğal olunmuş ərazilərində etnik təmizləmə həyata keçirdi. Bunun nəticəsində bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkünə çevrildi. Ermənistan 1992-ci ildə Xocalı şəhərində 613 azərbaycanlını, o cümlədən 106 qadını və 63 uşağı yalnız etnik mənsubiyyətinə görə vəhşicəsinə qətlə yetirdi.

Ərazilərimiz işğaldan azad edildikdən sonra Azərbaycan indi bir sıra nəhəng çağırışlarla üz-üzədir. Keçmişdə işğal altında olmuş ərazilərdəki dağıntıların miqyasından dəhşətə gəldik. Azərbaycanın şəhər və kəndləri Ermənistan tərəfindən qəsdən dağıdılmış, talan olunmuş, bütün mədəni və dini abidələr, məscidlər təhqir olunmuş, qarət edilmişdir. Ermənistan işğal etdiyi ərazilərdə urbisid, kultursid və ekosid törətmişdir.

İşğal altında olmuş ərazilərdəki 67 məsciddən 65-i dağıdılıb, qalanlarından isə donuz və inəklər üçün tövlə kimi istifadə edilib ki, bu da bütün dünya müsəlmanlarına qarşı təhqirdir.

Altmış min hektar meşəlik məhv edilmiş, kəsilmiş və daşınmışdır, torpaqlarımız və çaylarımız çirkləndirilmiş və zəhərləndirilmişdir.

Ermənistan indi isə Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə sərhədində transsərhəd ekoloji fəlakət törətməkdə davam edir. Bununla Ermənistan 1991-ci il Transsərhəd kontekstdə Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi Konvensiyasından (Espoo Konvensiyası) irəli gələn öhdəliklərini pozmuş olur. Bu Konvensiyada ölkələrin mənfi transsərhəd təsirlərdən qaçmaq üçün bir-biri ilə məsləhətləşmələr aparmasının vacibliyi açıq şəkildə qeyd edilir.

Ermənistanın işğalının digər mənfi fəsadı minalardır. Azərbaycan hazırda dünyada minalarla ən çox çirkləndirilmiş on ölkə sırasındadır. 2020-ci ilin noyabrında Vətən müharibəsi başa çatdıqdan sonra mina partlayışı nəticəsində təxminən 300 azərbaycanlı həlak olub və ya ağır yaralanıb. İşğaldan azad edilmiş ərazilərdə baş verən hər bir mina partlayışı Ermənistanın törətdiyi hərbi cinayətlərin uzun siyahısının davamıdır. Mina problemi Ermənistan tərəfindən Azərbaycan xalqının fundamental insan hüquqlarının pozulmasıdır. 2020-ci ildə kapitulyasiyadan sonra da Ermənistan külli miqdarda mina istehsalını davam etdirirdi və onları Laçın sərhəd-gömrük buraxılış məntəqəsi yaradılana qədər Azərbaycanın Qarabağ bölgəsinə daşıyırdı.

Minalar yenidənqurma prosesini və keçmiş məcburi köçkünlərin azad edilmiş ərazilərə qayıdışını ləngidir. Bunu nəzərə alaraq, Azərbaycan humanitar minatəmizləmə üzrə xüsusi milli Dayanıqlı İnkişaf Məqsədi müəyyənləşdirib. Bundan başqa, Azərbaycan qlobal miqyasda humanitar minatəmizləmə səylərini dəstəkləyir və minatəmizləmənin 18-ci Dayanıqlı İnkişaf Məqsədi olması təklifini irəli sürmüşdür.

Əminəm ki, Qoşulmama Hərəkatının üzv dövlətləri səsimizi qlobal miqyasda eşitdirmək üçün Minaların Təsirinə Məruz Qalmış Ölkələrin Həmfikirlər Qrupunun yaradılması təklifimi dəstəkləyəcəklər.

Ermənistan həmçinin Birinci Qarabağ müharibəsi nəticəsində işgəncələrə məruz qalan, öldürülən və kütləvi məzarlıqlarda basdırılan 4 minə yaxın itkin düşmüş azərbaycanlının taleyinin müəyyənləşdirilməsində tam şəffaflığı təmin etməli və əməkdaşlıq etməlidir.

Bütün bu çətinliklərə baxmayaraq, Azərbaycan işğaldan azad edilmiş 10 min kvadratkilometrlik ərazidə özünün maliyyə imkanları hesabına sıfırdan irimiqyaslı yenidənqurma işlərini uğurla həyata keçirir.

Münaqişə başa çatdıqdan az sonra Azərbaycan Ermənistanla bir-birinin suverenliyinin və ərazi bütövlüyünün qarşılıqlı tanınması əsasında sülh sazişi imzalamaq üçün beş əsas prinsipini təqdim edib.

Ermənistanın Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanımağa məcbur olmasına baxmayaraq, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində hələ də Ermənistan silahlı qüvvələrinin qalıqları mövcuddur. Əgər Ermənistan həqiqətən də regionda çoxdan gözlənilən sülhdə maraqlıdırsa, onda onun silahlı qüvvələri Azərbaycanın Qarabağ bölgəsindən tamamilə çıxmalıdır. Bölgədəki erməni hərbi və yarımhərbi elementləri tərk-silah edilməlidir.

Ermənistan həmçinin təxminən 3 il əvvəl imzaladığı kapitulyasiya aktında yer almış digər öhdəliyi olan və Azərbaycanın əsas hissəsini onun Naxçıvan Muxtar Respublikası ilə bağlayacaq Zəngəzur dəhlizinin açılmasına mane olur.

Xanımlar və cənablar, fürsətdən istifadə edərək işğal zamanı və işğaldan sonra Azərbaycanın ədalətli mövqeyini dəstəkləməkdə göstərdikləri prinsipial mövqeyə görə Qoşulmama Hərəkatı ölkələrinə dərin minnətdarlığımı bildirmək istəyirəm. Mən xüsusilə 2020-ci və 2022-ci illərdə Qoşulmama Hərəkatı ölkələrinin BMT Təhlükəsizlik Şurasında Azərbaycan əleyhinə olan birtərəfli və qərəzli bəyanatların qəbul edilməsinin qarşısını aldıqları iki hala istinad edirəm.

Mən həmçinin Qoşulmama Hərəkatının bütün üzv dövlətlərinə həmrəyliklərinə və Azərbaycana sədrliyini uğurla həyata keçirmək üçün göstərdikləri dəstəyə görə təşəkkür etmək istərdim.

Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun Bakı nazirlər görüşünə uğurlar arzu edirəm. Əminəm ki, bu görüş səmərəli və nəticəyönümlü müzakirələrlə yadda qalacaqdır.

Təşəkkür edirəm.



# *Fuad HÜSSEYN:* "İraq Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyini daim dəstəkləyib"



**İyulun 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İraq Respublikasının Baş nazirinin müavini, xarici işlər naziri Fuad Hüsseyni qəbul edib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı bu ilin martında Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşü zamanı İraq Prezidenti Əbdüllətif Camal Rəşid ilə görüşünü məmnunluqla xatırladı, həmin görüş zamanı Azərbaycan-İraq əlaqələrinə dair geniş fikir mübadiləsinin aparıldığını qeyd etdi.

Fuad Hüsseyn İraqın Prezidenti Əbdüllətif Camal Rəşidin və Baş naziri Şiya əs-Sudaninin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İraqın Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.

İraqın Baş nazirinin müavini, xarici işlər naziri ölkələrimiz və xalqlarımız arasında tarixi əlaqələrin olduğunu vurğuladı.

Söhbət zamanı ölkələrimizin beynəlxalq təşkilatlarda, o cümlədən Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, OPEC+ formatı çərçivəsində uğurla əməkdaşlıq etdikləri bildirildi.

Fuad Hüsseyn İraqın Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyini daim dəstəklədiyini bildirdi, ölkəmizin Hərəkata uğurlu sədrliyi münasibətilə təbriklərini çatdırdı.

Görüşdə münasibətlərimizin müxtəlif istiqamətlərdə inkişaf perspektivləri, o cümlədən enerji və turizm sahələrində əməkdaşlıq, iqtisadi-ticari əlaqələrin genişləndirilməsi məsələləri ilə bağlı fikir mübadiləsi aparıldı. Xüsusilə turizm sahəsində əlaqələrin COVID-19-dan əvvəlki dövrdəki uğurlu dinamikaya uyğun olaraq genişləndirilməsi, İraqın və Azərbaycanın müxtəlif şəhərləri arasında birbaşa hava reyslərinin açılması, sərmayələr, kənd təsərrüfatı sahələrində əməkdaşlıq məsələləri müzakirə olundu. Həmçinin rəsmi və biznes nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin önəmi qeyd edildi.

# Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətləri strateji müttəfiqlik zəminində uğurla inkişaf edir



**İyulun 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının xarici işlər naziri Hakan Fidanı qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Hakan Fidanı Türkiyənin xarici işlər naziri təyin edilməsi münasibətilə təbrik edən Prezident İlham Əliyev ona fəaliyyətində uğurlar arzuladı. Dövlətimizin başçısı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın seçkilərdən sonra Azərbaycana dövlət səfərini ölkələrimiz arasında qardaşlıq və müttəfiqlik münasibətlərinin nümunəsi kimi qiymətləndirdi.

Təbrikə görə minnətdarlığını bildirən Hakan Fidan həm çalışdığı əvvəlki vəzifələrdə, həm də hazırda xarici işlər naziri kimi Azərbaycan ilə Türkiyə arasındakı qardaşlıq və dostluq münasibətlərinin inkişafını daim rəhbər tutduğunu qeyd etdi, Türkiyənin Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşünə dəvət olunmasına görə təşəkkürünü bildirdi.

Türkiyənin xarici işlər naziri Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyi münasibətilə dövlətimizin başçısını təbrik etdi və bununla da ölkəmizin çox önəmli prosesə rəhbərlik etdiyini vurğuladı.

Dövlətimizin başçısı Azərbaycanın sədrliyi dövründə Qoşulmama Hərəkatının təsisatlanması prosesində ölkəmizin gördüyü işlər, həmçinin sədrlik prosesi barədə məlumat verdi.

Söhbət zamanı regional məsələlərə dair fikir mübadiləsi aparıldı.

Prezident İlham Əliyev Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması, Cənubi Qafqazda davamlı sülhün və təhlükəsizliyin təmin olunması istiqamətində gedən proseslər barədə danışdı.

Görüşdə Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətlərinin strateji müttəfiqlik zəminində, "bir millət, iki dövlət" prinsipi əsasında bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, ölkələrimizin daim bir-birinin yanında olduqları qeyd edildi.

# Azərbaycanın İrandakı səfirliyinə qarşı törədilən terrorda müqəssir olan şəxslər layiqli şəkildə cəzalandırılmalıdırlar



**İyulun 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İran İslam Respublikasının xarici işlər naziri Hüseyn Əmir Abdullahiyanı qəbul edib.**

AZƏRTAC xəbər verir ki, İranın xarici işlər naziri onu qəbul etdiyinə görə dövlətimizin başçısına təşəkkürünü bildirdi.

Hüseyn Əmir Abdullahiyan İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisinin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İran Prezidentinə çatdırmağı xahiş etdi.

Qoşulmama Hərəkatına uğurlu sədrliyi münasibətilə Azərbaycanı təbrik edən İranın xarici işlər naziri ölkəmizin sədrliyi dövründə Hərəkatın davamlı və dinamik surətdə inkişaf etdiyini vurğuladı.

Hüseyn Əmir Abdullahiyan Prezident İlham Əliyevin Qoşulmama Hərəkatının nazirlər görüşünün açılış mərasimindəki çıxışında çox vacib məqamlara toxunduğunu deyərək bu tədbirin əhəmiyyətini qeyd etdi, onun gündəliyindəki çox vacib məsələlərin müzakirə olunduğunu vurğuladı.

İranlı nazir ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin inkişafında müsbət dinamikanın olduğunu dedi, Şimal-Cənub nəqliyyat dəhlizinin inkişaf etdirilməsində Azərbaycanla İranın mühüm rol oynadığını diqqətə çatdırdı.

Azərbaycan səfirliyinə qarşı törədilmiş terror aktının İranın məhkəmə və hüquq-mühafizə orqanları tərəfindən çox ciddi şəkildə araşdırıldığını bildirən nazir Azərbaycanın Tehrandakı səfirliyinin fəaliyyətinin tezliklə bərpa olunacağına ümidvarlığını ifadə etdi.

Prezident İlham Əliyev öz növbəsində Azərbaycanın İrandakı səfirliyinə qarşı törədilən terror aktında müqəssir olan şəxslərin layiqli cəzasını alacaqlarına ümidvar olduğunu bildirdi.

Dövlətimizin başçısı Azərbaycanın Qoşulmama Hərəkatında rolundan və onun təsisatlanması istiqamətində həyata keçirdiyi işlərdən danışdı.

Söhbət zamanı iqtisadi-ticari əlaqələrin son dövrlərdə artan dinamikası məmnunluqla qeyd edildi, Şimal-Cənub nəqliyyat dəhlizinin, həmçinin bu marşrutla bərabər, Şərqi Zəngəzur iqtisadi rayonu ilə Azərbaycanın Naxçıvan Muxtar Respublikası arasında kommunikasiya bağlantılarının icrasının inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

Hər iki ölkənin aidiyyəti nümayəndə heyətlərinin yaxın vaxtlarda görüşünün keçiriləcəyi müsbət hal kimi qeyd olundu.

# İşğaldan azad olunmuş ərazilərdə Özbəkistan tərəfindən məktəb tikintisi layihəsi xüsusi önəm daşıyır



**İyulun 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Özbəkistan Respublikasının xarici işlər naziri Baxtiyor Saidovu qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Baxtiyor Saidov Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin əziz dostu və qardaşı Prezident İlham Əliyevə salamlarını çatdırıb.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Özbəkistan Prezidentinə çatdırmağı xahiş etdi.

Baxtiyor Saidov Azərbaycanın Qoşulmama Hərəkatına müvəffəqiyyətlə sədrliyi və nazirlər görüşünün uğurla keçirilməsi münasibətilə təbriklərini ifadə etdi. O, Azərbaycan Prezidentinin Özbəkistana dövlət səfəri çərçivəsində iki ölkə başçısının müəyyənləşdirdiyi tapşırıqlara uyğun olaraq fəaliyyətin davam etdirildiyini və qarşıya qoyulmuş bütün məqsədlərin diqqətdə saxlanıldığını vurğuladı.

Prezident İlham Əliyev öz növbəsində Özbəkistana dövlət səfərini məmnunluqla xatırlatdı. Dövlətimizin başçısı işğaldan azad olunmuş ərazilərdə Özbəkistan tərəfindən məktəb tikintisi layihəsinin xüsusi önəm daşıdığını bildirdi, Prezident Şavkat Mirziyoyevin tezliklə Azərbaycana səfərinin gözlənildiyini qeyd etdi.

Söhbət zamanı Azərbaycanın və Özbəkistanın Qoşulmama Hərəkatı, Türk Dövlətləri Təşkilatı və digər beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlıq etdikləri diqqətə çatdırıldı, ikitərəfli gündəlikdə duran məsələlərə dair fikir mübadiləsi aparıldı.

# *Dritan ABAZOVİÇ:* "Monteneqro Azərbaycan ilə enerji, turizm, investisiyalar və digər sahələrdə əməkdaşlığın inkişafında maraqlıdır"



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 5-də Monteneqronun Baş naziri və xarici işlər naziri vəzifəsini icra edən Dritan Abazoviçi qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Dritan Abazoviç Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşünə dəvətə görə təşəkkürünü bildirdi və Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyi münasibətilə təbriklərini çatdırdı.

Söhbət zamanı Prezident İlham Əliyevin və Baş nazir Dritan Abazoviçin bu il Davosda keçirilmiş görüşü məmnunluqla xatırlandı.

Görüşdə Monteneqronun Azərbaycan ilə enerji, turizm, investisiyalar və digər sahələrdə əməkdaşlığın inkişafında maraqlı olduğu qeyd edildi, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində ölkələrimizin bir-birinə dəstəyi vurğulandı.

# Fələstində diplomatik nümayəndəliyin açılması müsbət addımdır



**İyulun 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Fələstin Dövlətinin xarici işlər naziri Riad Əl-Malikini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Riad Əl-Maliki Azərbaycanın Fələstində diplomatik nümayəndəliyinin açılması ilə bağlı təşəkkürünü bildirdi. O, Azərbaycanın xarici işlər nazirinin Fələstinə səfərinin önəmini vurğuladı, bu addımların Azərbaycanla Fələstin arasında ikitərəfli əlaqələrin inkişafına ciddi təkan verəcəyinə əminliyini ifadə etdi.

Fələstinin xarici işlər naziri Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyi münasibətilə təbriklərini çatdırdı. O, Azərbaycanın Fələstinə göstərdiyi daimi humanitar yardımın və dəstəyin Fələstin xalqı tərəfindən yüksək qiymətləndirildiyini vurğuladı. Riad Əl-Maliki Azərbaycanı öz torpaqlarını işğaldan azad etməsi münasibətilə təbrik etdi.

Azərbaycan Prezidenti Fələstin Dövlətinin Baş naziri Mohammed Ştayyeh ilə görüşünü məmnunluqla xatırladı. Dövlətimizin başçısı bu görüş əsnasında Fələstində Azərbaycan tərəfindən məktəbin tikilməsi layihəsi barədə müraciətin olduğunu qeyd edərək buna müsbət münasibətin bildirildiyini və tezliklə bu layihənin icra olunacağını dedi. Dövlətimizin başçısı Azərbaycanın Fələstində diplomatik nümayəndəliyinin açılmasını müsbət addım kimi dəyərləndirdi.

Söhbət zamanı beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# Azərbaycanın Baş naziri monteneqrolu həmkarı ilə görüşüb

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iyulun 5-də ölkəmizdə səfərdə olan Monteneqronun Baş naziri Dritan Abazoviç ilə görüşüb.**



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüşdə Bakıda keçirilən Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşünün əhəmiyyəti vurğulanıb, Dritan Abazoviçin tədbirdə iştirakı yüksək qiymətləndirilib.

Ölkəmizin Qoşulmama Hərəkatına sədrliyi çərçivəsində səmərəli fəaliyyəti, o cümlədən irəli sürdüyü mühüm təşəbbüslər barədə bəhs edilib. Azərbaycan-Monteneqro münasibətlərinin bir çox sahələrdə uğurlu inkişafından məmnunluq ifadə olunub.

Eyni zamanda ticarət-iqtisadi, investisiyaların təşviqi, energetika, turizm və digər istiqamətlərdə ikitərəfli əlaqələrin perspektivləri müzakirə edilib.

# Azərbaycan və Özbəkistan arasında əməkdaşlığın genişləndirilməsi imkanları müzakirə olunub

İyulun 5-də Azərbaycan Respublikası xarici işlər naziri Ceyhun Bayramov Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşü çərçivəsində ölkəmizdə səfərdə olan Özbəkistan Respublikasının xarici işlər naziri Baxtiyor Saidov ilə görüşüb.



Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, görüşdə iki xalq arasında tarixən mövcud ənənəvi dostluq və qardaşlıq əlaqələrinin, qarşılıqlı siyasi etimadın və iki ölkə arasında münasibətlərin yüksələn xətlə inkişafından məmnunluq ifadə edilib, hərtərəfli strateji tərəfdaşlıq münasibətlərinin daha da genişləndirilməsinin vacibliyi vurğulanıb. Bu xüsusda hər iki ölkənin rəhbərləri səviyyəsində qardaşlıq və dostluğa əsaslanan təmaslarının müstəsna rolundan bəhs edilib.

Habelə iki ölkə arasında münasibətlərin hazırkı vəziyyəti, müntəzəm əsasda həyata keçirilən yüksəksəviyyəli təmaslardan irəli gələn məsələlər, siyasi, sosial-iqtisadi, humanitar və qarşılıqlı maraq kəsb edən digər sahələrdə əməkdaşlığın genişləndirilməsi imkanları müzakirə olunub. Bu xüsusda, iki ölkə arasında institusional dialoq mexanizmi kimi davamlı yol xəritəsinin müəyyənləşdirilməsinin vacibliyi qeyd olunub.

Görüşdə həmçinin ikitərəfli müstəvi ilə yanaşı, beynəlxalq platformalarda da əməkdaşlıq və qarşılıqlı dəstək məsələləri məmnunluqla vurğulanıb.

Bu gün ölkəmizdə keçirilən bu mötəbər tədbirə dəvətə görə təşəkkür edən nazir Baxtiyor Saidov Azərbaycanı tədbirin yüksək səviyyədə təşkilinə görə təbrik edib, ölkəmizin Qoşulmama Hərəkatına uğurlu sədrliyi çərçivəsində reallaşdırılan təşəbbüslərini yüksək qiymətləndirib. Məhz Azərbaycanın sədrliyi dövründə Hərəkatın davamlı və dinamik surətdə inkişaf etdiyini vurğulayıb.

Görüş zamanı eyni zamanda digər qarşılıqlı maraq doğuran ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Nazir Ceyhun Bayramov malayziyalı həmkarı ilə görüşüb

İyulun 5-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Qoşulmama Hərəkatı Əlaqələndirici Bürosunun nazirlər görüşü çərçivəsində Malayziyanın xarici işlər naziri Zambri Abd Kadir ilə görüşüb.



Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, görüşdə nazir Ceyhun Bayramov Azərbaycanın 2019-2023-cü illərdə Qoşulmama Hərəkatına sədrliyi barədə qarşı tərəfə məlumat verib və hər iki ölkənin təşkilat çərçivəsində uğurla əməkdaşlıq etdiyini bildirib.

Görüş zamanı tərəflər ikitərəfli əməkdaşlığın daha da genişləndirilməsi üçün geniş potensialın olduğunu bildirib, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın səviyyəsindən məmnunluq ifadə ediblər.

Nazirlər Azərbaycan ilə Malayziya arasında Cənub-Şərqi Asiya Ölkələri Assosiasiyası (ASEAN) çərçivəsində də sıx əməkdaşlığın vacibliyini vurğulayıblar. Görüş zamanı iki ölkə arasında qarşılıqlı təmasların genişləndirilməsinin vacibliyi vurğulanıb.

Tərəflər həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# *Denq Dau Denq Malek:* "Cənubi Sudan Azərbaycan ilə münasibətlərin inkişaf etdirilməsində maraqlıdır"

İyulun 5-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Qoşulmama Hərəkatı Əlaqələndirici Bürosunun nazirlər görüşündə iştirak etmək üçün ölkəmizdə səfərdə olan Cənubi Sudanın xarici işlər və regional əməkdaşlıq naziri səlahiyyətlərini icra edən Denq Dau Denq Malek ilə görüşüb.



Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı iki ölkə arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq məsələsi müzakirə edilib. İkitərəfli əlaqələrin müxtəlif istiqamətlərdə, xüsusilə iqtisadi, enerji, ticarət və səhiyyə sahələrində inkişafı üçün potensial imkanların olduğu vurğulanıb.

Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyinin başa çatmaq ərəfəsində olduğunu qeyd edən nazir Ceyhun Bayramov sədrlik dövründə ölkəmizin Hərəkatın inkişafı naminə səyləri, onun təsisatlanması ilə bağlı bir sıra təşəbbüslərini diqqətə çatdırıb.

Nazir Cənubi Sudanın Qoşulmama Hərəkatına üzvlüyü istiqamətində prosedurların tamamlandığını vurğulayıb və yeni üzvlük münasibətilə qarşı tərəfi təbrik edib. Cənubi Sudanın xarici işlər və regional əməkdaşlıq naziri səlahiyyətlərini icra edən Denq Dau Denq Malek QH-yə uğurlu sədrlik etməsi münasibətilə Azərbaycana minnətdarlığını ifadə edib. O, Azərbaycan ilə münasibətlərin inkişaf etdirilməsində ölkəsinin maraqlı olduğunu diqqətə çatdırıb.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş tədbir keçirilib

İyulun 5-də Qoşulmama Hərəkatının (QH) Əlaqələndirmə Bürosunun nazirlər görüşü çərçivəsində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş tədbir keçirilib.









AZƏRTAC xəbər verir ki, QH Əlaqələndirmə Bürosunun nazirlər görüşünə qatılan nümayəndə heyətlərinin rəhbərlərinin iştirakı ilə keçirilən tədbirdə xarici işlər naziri Ceyhun Bayramov, Türkiyə Respublikasının xarici işlər naziri Hakan Fidan və keçmiş Yuqoslaviya Sosialist Federativ Respublikasının son xarici işlər naziri, Qoşulmama Hərəkatının əsasının qoyulduğu Bandunq Konfransında şəxsən iştirak etmiş Budimir Lonçar çıxış ediblər.

Nazir Ceyhun Bayramov çıxışında müasir və müstəqil Azərbaycanın qurucusu, Ulu Öndər Heydər Əliyevin dövlətçiliyimizin əsasının qoyulması və qorunması istiqamətində çoxşaxəli və fədakar fəaliyyətindən geniş bəhs edib. Ölkəmizin müstəqilliyinin bərpa olunmasından sonra Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində yaranmış çətin vəziyyət, qaçqın və məcburi köçkün problemi, iqtisadi və sosial böhrana baxmayaraq, Ümummilli Liderin, özünün də dediyi kimi, Azərbaycanın müstəqilliyini əbədi, daimi və dönməz etməyə nail olduğunu bildirib.

Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş xarici siyasət kursunun Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirildiyi qeyd olunub. Xarici siyasətimizin qarşılıqlı faydalı əməkdaşlığın təşviqi, beynəlxalq sülh və təhlükəsizliyin qorunmasına töhfə verilməsinə yönəldiyi diqqətə çatdırılıb. Bu xüsusda Azərbaycan xalqının milli maraqları, ölkəmizin suverenliyi və ərazi bütövlüyümüzün qorunmasının hər zaman xarici siyasətimizin prioriteti olduğu bildirilib.

Tədbirdə çıxış edən Türkiyənin xarici işlər naziri Hakan Fidan beynəlxalq mühitdə artan gərginliyin və beynəlxalq hüququn fundamental norma və prinsiplərinin pozulduğu bir dövrdə Türkiyə Respublikasının Hərəkatın əsas prinsiplərinə sadiq olduğunu qeyd edib.

Türkiyə və Azərbaycan qardaşlığını "Bir millət, iki dövlət" kəlamı ilə təsvir edən dahi şəxsiyyət Ümummilli Lider Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin qorunması və möhkəmləndirilməsində müstəsna xidmətləri xatırlanıb.

Tədbirdə çıxış edən keçmiş Yuqoslaviya Sosialist Federativ Respublikasının son xarici işlər naziri, Qoşulmama Hərəkatının əsasının qoyulduğu Bandunq Konfransında şəxsən iştirak etmiş Budimir Lonçar xüsusi qonaq qismində Əlaqələndirmə Bürosunun nazirlər görüşünə dəvətə görə minnətdarlıq bildirib. Ümummilli Lider Heydər Əliyevin Azərbaycanın iqtisadi və sosial inkişafı, onun region və dünya ölkələri ilə münasibətlərinin möhkəmləndirilməsi, habelə Azərbaycan Respublikasının beynəlxalq arenada nüfuzunun artırılmasında müstəsna rolu qeyd edilib.

Daha sonra isə tədbir iştirakçıları Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş videoçarxı izləyiblər.

# Qoşulmama Hərəkatına üzv ölkələrin xarici işlər nazirləri İsveçdə Quranın yandırılmasını qətiyyətlə pisləyiblər

İyulun 5-də Bakı Konqres Mərkəzində Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşü keçirilib.



AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən Sudanın xarici işlər naziri Əli Əl-Sadiq Əli, Suriyanın xarici işlər naziri Feysəl Mekdad, İranın xarici işlər naziri Hüseyn Əmir Abdullahiyan, Qətərin xarici işlər üzrə dövlət naziri Sultan bin Saad Al-Mureyxi, Pakistanın xarici işlər naziri Məhdum Şah Mahmud Qureşi və digərləri Qoşulmama Hərəkatının əsasında "Bandunq prinsipləri"nin dayandığını diqqətə çatdırıblar. Bu prinsiplərin ölkələrin ərazi bütövlüyünü, sülhü, münaqişələrin sülh yolu ilə həllini, bərabərliyi təşviq etdiyini vurğulayıblar.

Nazirlər Qurban bayramının ilk günündə İsveçdə Qurani-Kərimin yandırılmasını qətiyyətlə pisləyiblər. Qeyd olunub ki, bu cür kriminal hərəkətlərə icazə verilməməli və kəskin şəkildə qınanmalıdır. Bu kimi islamofobiya hallarının təzahürlərinə qarşı daha fəal mübarizə aparmağın vacibliyi vurğulanıb.

Tədbirdə həmçinin Qoşulmama Hərəkatının əhəmiyyəti və təşkilatın malik olduğu imkanlar qeyd edilib. Eyni zamanda Qoşulmama Hərəkatının bir çox problemlərin həllində mühüm rol oynadığı bildirilib.

Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşü işini sabah davam etdirəcək.

# Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşü işini davam etdirir



İyulun 5-də Bakı Konqres Mərkəzində keçirilən Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun "Qoşulmama Hərəkatı: meydana çıxan çağırışlarla mübarizədə birgə və qətiyyətli" mövzusunda nazirlər görüşü davam edir.

AZƏRTAC xəbər verir ki, tədbirdə Birləşmiş Millətlər Təşkilatının Cenevrə ofisinin baş direktoru Tatyana Valovaya BMT-nin Baş katibi Antonio Quterreşin tədbir iştirakçılarına müraciətini oxuyub.

Müraciətdə qeyd edilib ki, Azərbaycan Qoşulmama Hərəkatına sədrliyi dövründə dünyanın üzləşdiyi çağırışların müzakirəsinə və həllinə töhfələr verib.

Monteneqronun Baş naziri Dritan Abazoviç çıxışında bildirib ki, Qoşulmama Hərəkatı böhranların həll yollarının tapılması, müzakirələr üçün platforma təklif edir. O, Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyini və bu təşkilatın qlobal səsinin daha da gücləndirilməsi üçün təşəbbüslərini dəstəklədiyini diqqətə çatdırıb.

Türkiyənin xarici işlər naziri Hakan Fidan Azərbaycanın Qoşulmama Hərəkatının sədri vəzifəsinin öhdəsindən uğurla gəldiyini vurğulayıb. "Azərbaycan Qoşulmama Hərəkatına sədrliyi çox çətin bir zamanda, müharibələr və münaqişələr dövründə qəbul edib. Bu, çox çətin bir iş idi", - deyə XİN başçısı diqqətə çatdırıb.

# Baxtiyor SAİDOV: "Qoşulmama Hərəkatının güclənməsində Azərbaycanın mühüm rolu var"

İyulun 5-də Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşü işini panel iclaslarla davam etdirir.

AZƏRTAC xəbər verir ki, iclasda çıxış edən Özbəkistan xarici işlər naziri Baxtiyor Saidov Azərbaycanın paytaxtı Bakı şəhərinin dünya əhəmiyyətli tədbirlərin keçirildiyi ünvana çevrildiyini bildirib. O, Qoşulmama Hərəkatının güclənməsində və beynəlxalq nüfuzunun artmasında Azərbaycanın mühüm rolunun olduğunu vurğulayıb və bunu yüksək qiymətləndirib. "Hazırda qlobal ictimaiyyət böhranlarla üz-üzədir, ərzaq və enerji təhlükəsizliyinə təhdidlər regionlara mənfi təsir göstərir. Qoşulmama Hərəkatına üzv ölkələr də iqlim böhranı ilə qarşılaşıb və bəziləri artıq bundan əziyyət çəkir", - deyən nazir əlavə edib ki, Qoşulmama Hərəkatı regional və beynəlxalq siyasətdə aparıcı qüvvəyə çevrilir.

Sonra çıxış edən İraq Baş nazirinin müavini, xarici işlər naziri Fuad Hüseyn Qoşulmama Hərəkatının çoxtərəfliliyi, qlobal sülhü, həmrəyliyi təşviq etdiyini vurğulayıb. O deyib ki, İraq bundan sonra da böhranların həlli üçün həll yolları təklif edəcək.

Beynəlxalq aləmdə terrorla mübarizənin vacibliyinə də toxunan Fuad Hüsseyn deyib ki, İraq torpaqları da bu problemdən əziyyət çəkib, amma müharibədən qalib çıxıb.




Son dövrlər islamofobiyanın, ksenofobiyanın gücləndiyini vurğulayan nazir bunun insan haqları bəyannaməsinə, beynəlxalq dəyərlərə zidd olduğunu diqqətə çatdırıb. O, həmçinin qeyd edib ki, dini inanclara və rəmzlərə hörmətsizlik qəbuledilməzdir, bu, qınanmalıdır. Xüsusilə demokratik ölkələrdə belə addımlar ifadə azadlığı kimi təqdim olunur, amma bu, nifrət aktıdır.

Küveyt xarici işlər naziri Şeyx Salem Abdullah Al-Caber Al-Sabah çıxışında Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə təsisatda müsbət irəliləyişlərin olduğunu vurğulayıb. Küveyt XİN-in rəhbəri İsveçdə Quranın yandırılmasını kəskin şəkildə pisləyib, bu addımın cəzasız qalmalı olmadığını vurğulayıb.

Belarusun xarici işlər naziri Sergey Aleynik isə bildirib ki, Qərb Qoşulmama Hərəkatı ölkələrinə qarşı birtərəfli məhdudlaşdırıcı addımlar atır, təzyiq göstərir, bu da dayanıqlı inkişafa imkan vermir. "Biz birtərəfli məhdudiyyətlərə qarşı həmrəy olmalıyıq. Biz eyni prinsipləri - sülhü, çoxtərəfliliyi, dayanıqlı inkişafı bölüşürük. Qoşulmama Hərəkatının oynayacağı vacib rol var. Dünyada qlobal geosiyasi toqquşmaların baş alıb getdiyi bir vaxtda səmimi dialoq yeganə çıxış yoludur".

Digər çıxış edənlər - Venesuelanın, Malayziyanın və Uqandanın XİN başçıları Qoşulmama Hərəkatının önəmindən danışıb, dünyada baş verən regional və beynəlxalq problemlərin həlli yolları ilə bağlı fikirlərini bölüşüblər.

# İran XİN-in başçısı: "Cənubi Qafqazdakı bütün problemlər sülh və danışıqlar yolu ilə həll oluna bilər"

"İnanırıq ki, Cənubi Qafqazdakı bütün problemlər sülh və danışıqlar yolu ilə həll oluna bilər".




AZƏRTAC xəbər verir ki, bu sözləri İranın xarici işlər naziri Hüseyn Əmir Abdullahiyan jurnalistlərə müsahibəsində deyib. "İran və Azərbaycan xalqları regionda, demək olar, ən çox ortaq məxrəcə malik xalqlardır. Biz anlaşılmazlıqları aradan qaldıraraq ölkələrimiz və xalqlarımız arasındakı müştərək əlaqələri yenidən bərpa edə bilərik. İranla Azərbaycan arasındakı yüksəksəviyyəli əlaqələri bərpa edəcəyimizə inanırıq", - deyə nazir qeyd edib.

Azərbaycan Prezidenti İlham Əliyevlə görüşünə toxunan Hüseyn Əmir Abdullahiyan görüşdə regiondakı vəziyyətlə bağlı çox geniş müzakirələrin aparıldığını vurğulayıb.

❖ ❖ ❖

Hüseyn Əmir Abdullahiyan daha sonra deyib ki, İran tərəfi Azərbaycanın Tehrandakı səfirliyinə hücumdan hiddətlənib və təəssüflənib.

Nazir bildirib: "Azərbaycanla razılaşdırdıq ki, biz bu insidentlə bağlı prosesi tezliklə yekunlaşdıraq. Bu cinayəti törədən şəxs məsuliyyətə cəlb olunacaq və ağır şəkildə cəzalanacaq. Biz Azərbaycanın təhlükəsizliyini həm öz təhlükəsizliyimiz, həm də regionun təhlükəsizliyi hesab edirik". İranın XİN başçısı deyib ki, diplomatik korpusun təhlükəsizliyi ilə bağlı hər hansı bir qurumun və ya şəxsin qüsuru varsa və bu, isbat olunacaqsa, onlar da öz cəzalarını alacaqlar.

# Jan-Viktor KASTOR: "Fransa hazırda vaxtilə yürütdüyü müstəmləkə siyasətinin cəzasını çəkir"



"Azərbaycana ilk dəfədir səfər edirəm. Burada ilk günlərim olmasına baxmayaraq, əminliklə deyə bilərəm ki, Bakı şəhəri Parislə müqayisədə çox təmiz, modern və gözəl şəhərdir. Qoşulmama Hərəkatının nazirlər görüşü Azərbaycanda çox gözəl təşkil olunub. Azərbaycan Prezidenti İlham Əliyev çıxışında Fransanın müstəmləkə siyasəti ilə bağlı danışdı, bu ölkənin müstəmləkələri ilə bağlı fikirlər söylədi. Bütün bunlar həqiqəti əks etdirir və biz də bunu təsdiqləyirik. Bizim ölkəmiz də Azərbaycan, Braziliya, Venesuela kimi neft və qaz ehtiyatına malikdir. Bütün bunlara baxmayaraq, Fransada olan qanunlara görə ölkəmiz təbii sərvətlərindən istifadə edə bilmir, əksinə, fransızlar onlardan yararlanır".

Bu sözləri AZƏRTAC-a müsahibəsində Fransa Milli Assambleyasının Fransız Qvianasından olan deputatı Jan-Viktor Kastor söyləyib.

O qeyd edib ki, ölkəsi hər bir sahədə Fransa tərəfindən idarə olunur. "Torpaq bizimdir, lakin ölkəmizlə bağlı qərarlar Parisdə qəbul olunur. Fransanın Qvianada rəsmi nümayəndəsi var və bütün qərarlar onun tərəfindən verilir. Biz ölkəmizdə kollec, məktəb, bağça tikməyimiz üçün də Parisdən rəsmi olaraq icazə almalıyıq. Onların icazəsi olmadan təəssüf ki, heç nə edə bilmirik".

Jan-Viktor Kastor diqqətə çatdırıb ki, hər hansı bir qərara etiraz bildirilərkən Fransa Qvianının qarşısını müxtəlif yollarla kəsir. "Onlar bizi əsasən iqtisadi cəhətdən çökdürürlər. 2017-2022-ci illərdə Fransanın bu amansız siyasətinə görə fransız Qvianasında yoxsul təbəqə 30 faizdən 54 faizədək artıb. İllər keçdikcə Fransa bizi hər bir sahədə daha da zəiflədir. Fransada son seçkilərdə Emmanuel Makronun prezident seçilməsindən sonra hər kəs bilirdi ki, bu ölkə tənəzzülə doğru gedir. Makronun islahatları müsbət effekt vermədi. Bu gün Fransaya getsəniz görərsiniz ki, tələbələr, kasıb ailələr aşağı büdcəli yemək almaq üçün növbələr yaradır, uzun sıralar əmələ gətirirlər. Səhiyyə, təhsil və digər sahələrdə hər şey mənfiyə doğru gedir. Hazırda insanlar Parisdə üsyan edirlər. Fransa hazırda vaxtilə yürütdüyü müstəmləkə siyasətinin cəzasını çəkir. Bu gün orada baş verən hadisələr Fransa üçün "əkdiyini biçmə zamanı" olduğunu göstərir", - deyə o qeyd edib.

# Tayib BAKUŞ: "Prezident İlham Əliyevin Qoşulmama Hərəkatının nazirlər görüşündəki çıxışı çox konstruktiv idi"

"Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşü dünyanın çox həssas bir dövründə keçirilir. Bu cür tədbirlər ölkələr arasındakı əməkdaşlığı, inteqrasiyanı daha da artıracaq, onları dünyanın üzləşdiyi çağırışlara cavab verməyə hazırlayacaq".



AZƏRTAC xəbər verir ki, bu fikirləri Ərəb Məğribi İttifaqının Baş katibi Tayib Bakuş jurnalistlərə açıqlamasında söyləyib.

O qeyd edib ki, Prezident İlham Əliyevin nazirlər görüşündəki çıxışı çox konstruktiv idi. "Azərbaycan Prezidenti ölkələrin müstəmləkə siyasətindən və onun acı nəticələrindən bəhs etdi. O, həmin ölkələri etdikləri səhv hərəkətləri etiraf etməyə çağırdı. Bu, olduqca təqdirəlayiqdir".

# Mişel SOMA: "Qoşulmama Hərəkatı Azərbaycanın sədrliyi dövründə böyük işlərə imza atıb"

"Qoşulmama Hərəkatı Azərbaycanın sədrliyə başladığı dövrdən bəri böyük işlərə imza atıb. Bizim Azərbaycan haqqında fikirlərimiz müsbətdir".



Bu fikirləri AZƏRTAC-a açıqlamasında Qoşulmama Hərəkatının Bakıda keçirilən nazirlər görüşündə iştirak edən Burkina-Faso nümayəndə heyətinin üzvü Mişel Soma deyib. O bildirib ki, Azərbaycanın çətin dövrdə Qoşulmama Hərəkatına sədrlik etməsinə baxmayaraq, vəzifəsinin öhdəsindən layiqincə gəlib. "COVID-19-un qlobal böhran doğurduğu bir vaxtda belə bir önəmli quruma uğurla rəhbərlik etmək, sadəcə, alqışlanmalıdır. Azərbaycan Prezidenti İlham Əliyev bugünkü tədbirdə çıxışında bir çox məsələlərə toxundu, o cümlədən "Bandunq prinsipləri"ndən, kolonializmin yaratdığı mənfi fəsadlardan danışdı, BMT-də islahatların vacibliyini diqqətə çatdırdı. Ümumilikdə isə Azərbaycan tərəfindən hər şey yüksək səviyyədə təşkil olunub", - deyə Mişel Soma vurğulayıb.

# BMT nümayəndəsi: "Prezident İlham Əliyev haqlıdır, Fransa çox qəddar müstəmləkəçidir"

**"Yeni Kaledoniya xalqı adından Azərbaycan Prezidenti İlham Əliyevə dünən səhərki bəyanatına görə təşəkkür etmək istərdim. Bu, çox güclü və çox doğru bəyanat idi".**



"Qafqazinfo" APA-ya istinadən xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında Bakıda Qoşulmama Hərəkatının nazirlər toplantısına qatılan Yeni Kaledoniyanın Sosialist və milli KANAK azadlığı cəbhəsinin BMT-dəki nümayəndəsi Maqalie Tinqal deyib.

O, Fransanın Yeni Kaledoniyanın azadlığı ilə bağlı referendumu pandemiya dövründə keçirməsinin ikiüzlülük olduğunu deyib:

"Fransa çox ikiüzlüdür. Azərbaycan Prezidentinə bizim vəziyyətimizlə bağlı bəyanatına görə təşəkkür edirəm. Biz bu gün Yeni Kaledoniyada çox böyük problemlərlə üzləşirik. Yeni Kaledoniyanın müstəqilliyi ilə bağlı 2021-ci ilin 12 dekabrında keçirilmiş referendum pandemiya dövrünə təsadüf etdi. Ona görə də biz bunun təxirə salınmasını istədik. Lakin Fransa referendumu saxladı, nəticədə Yeni Kaledoniya əhalisinin 57 faizi referendumda iştirak edə bilmədi. Fransanın bu referendumu saxlaması ikiüzlülükdür. Biz öz hüquqlarımız uğrunda mübarizə aparacağıq. Ona görə də bu məsələni Beynəlxalq Ədalət Məhkəməsində qaldıracağıq".

Maqalie Tinqal qeyd edib ki, Fransa maliyyə təzyiqləri göstərməklə neokolonial siyasət yürüdür.

# Ella TOKORAGİ: "Prezident İlham Əliyevdə olan səmimiyyət Emmanuel Makronda yoxdur"

"Azərbaycan Prezidenti İlham Əliyevin iclasda çıxışı, səsləndirdiyi fikirlər səmimi idi. Fransa Prezidenti Emmanuel Makronda bu səmimiyyət yoxdur".




Bu barədə Trend-ə özəl açıqlamasında Tahiti nümayəndəsi Ella Tokoragi deyib. "Hər şeydən öncə Azərbaycana dəvəti üçün təşəkkür edirəm. Buraya ilk gəlişimdir və çox gözəl qarşılandıq. Prezident İlham Əliyevin çıxışı zamanı Fransanın müstəmləkə siyasəti və bunun acı reallıqlarını mən bu gün öz ölkəmdə yaşayıram. 2 iyul 1966-ci ildə ilk dəfə Fransa Tahitidə ilk nüvə silahını sınaqdan keçirib. Bu günə qədər 193 sınaq həyata keçirilib. Təsəvvür edin, bu sınaqlar ölkəmdə hansı problemlərə yol açıb. Bu gün xəstə doğulan uşaqların hesabını itirmişik. Xalqımız xərçəng xəstələyinin müxtəlif növləri ilə üz-üzədir. Fransanın müstəmləkəçilik siyasəti bu fəlakətlərə gətirib çıxarır", - deyə o əlavə edib.

# DTX-nin Akademiyasının müdavimlərinin növbəti buraxılış tədbiri keçirilib

**Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Heydər Əliyev adına Akademiyasında (Akademiya) növbəti məzun buraxılışı ilə əlaqədar təntənəli tədbir keçirilib.**



Tədbirdə DTX-nin rəisi general-polkovnik Əli Nağıyev, Xidmətin rəhbər əməkdaşları, təhlükəsizlik orqanlarının veteranları, Akademiyanın professor-müəllim heyəti və məzunların valideynləri iştirak ediblər.

Əvvəlcə Azərbaycan təhlükəsizlik orqanlarının fəxri rəhbəri, Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsinə dərin ehtiram əlaməti olaraq Ulu Öndərin Akademiyada ucaldılmış abidəsi ziyarət edilib və önünə gül dəstələri qoyulub.

DTX-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, mərasimdə Azərbaycan Respublikasının ərazi bütövlüyü və müstəqilliyi yolunda həlak olmuş şəhidlərimizin müqəddəs xatirəsi birdəqiqəlik sükutla yad edilib və Dövlət himni səsləndirildikdən sonra məzunlara diplomlar təqdim olunub.

Tədbirdə çıxış edən DTX-nin rəisi general-polkovnik Əli Nağıyev Akademiyanın şəxsi heyətini, məzunları və onların valideynlərini salamlayaraq təhlükəsizlik orqanlarında çalışacaq gənc zabitləri təhsillərini müvəffəqiyyətlə başa vurmaları münasibətilə təbrik edib, əsası 1998-ci ildə Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan və dahi rəhbərin adını daşıyan bu tədris ocağında qazandıqları bilik və praktiki vərdişləri gələcək xidməti fəaliyyətlərində uğurla tətbiq edəcəklərinə, Heydər Əliyevin bu orqanlarda yaratdığı peşəkarlıq irsini layiqincə davam etdirəcəklərinə, təhlükəsizliyin etibarlı təminatına öz töhfələrini verəcəklərinə ümidvar olduğunu bildirib. Akademiyanın yaranmasının 25 illiyinin Ümummilli Liderin 100 illik yubileyinin qeyd olunduğu ilə təsadüf etdiyini diqqətə çatdıran Xidmət rəisi ötən illər ərzində bu ali təhsil müəssisəsində xüsusi xidmət orqanları üçün yüksəkixtisaslı kadrların hazırlanması, maddi-texniki bazanın davamlı təkmilləşdirilməsi və təhsilin keyfiyyətinin yüksəldilməsi istiqamətində ardıcıl tədbirlər görülməsindən söhbət açıb.

General-polkovnik Əli Nağıyev hazırda Akademiyaya qəbul və namizədlərin seçiminə ciddi tələblərin qoyulduğunu və imtahanlarda yüksək keçid balları toplayaraq Akademiyaya daxil olan və fərqlənmə diplomu ilə bitirən kursantların sayının ildən-ilə artdığını qeyd edib, onların respublikada keçirilən müxtəlif bilik yarışlarında birincilik əldə etmələrinin məmnunluq doğurduğunu vurğulayıb.

Həmçinin Azərbaycan Prezidenti İlham Əliyevin Akademiyaya xüsusi diqqət və qayğısının növbəti təzahürü kimi dövlət başçısının müvafiq sərəncamı ilə Akademiyanın təhsil sisteminin müasir dövrün tələblərinə uyğunlaşdırılması və imkanlarının daha da genişləndirilməsi üçün nizamnaməsində dəyişiklik edilərək yeni bakalavr və magistr ixtisaslarının təsis edildiyi barədə məlumat verilib.

Çıxışının sonunda Xidmət rəisi Əli Nağıyev gənc zabitlərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, dövlətimizin təhlükəsizliyinin qorunması kimi çətin və şərəfli vəzifənin öhdəsindən layiqincə gələcəklərinə inamını ifadə edib.

Sonra tədbirdə söz alan digər çıxışçılar da Akademiyada kursantların hərtərəfli savada və geniş dünyagörüşünə yiyələnmələri üçün yaradılan şəraitə görə Azərbaycan Prezidenti İlham Əliyevə və DTX-nin rəhbərliyinə minnətdarlıqlarını çatdırıblar.

# Milli Məclisin deputatları Tbilisidəki "Alyans Gənclər Mərkəzi"ndə gənclərlə görüşüblər

**"Azərbaycan dövləti Gürcüstanda yaşayan soydaşlarımıza daim diqqət və qayğı göstərib. Son bir neçə il ərzində Azərbaycan dövləti tərəfindən Gürcüstanda çoxlu sayda məktəb, uşaq bağçası, idman kompleksi, mədəniyyət ocaqları tikilərək və ya əsaslı təmir olunaraq istifadəyə verilib. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Gürcüstandakı məktəblər Azərbaycan dili və ədəbiyyatı dərslikləri və digər metodiki vəsaitlərlə təmin olunur".**

AZƏRTAC xəbər verir ki, bu fikirlər Gürcüstanda səfərdə olan Azərbaycan Milli Məclisinin deputatları Arzu Nağıyev və Rauf Əliyevin, eləcə də Azərbaycan Uşaq və Gənclər Federasiyasının prezidenti Asif Əliyevin Tbilisidəki "Alyans" Gənclər Mərkəzində keçirdiyi görüşdə səsləndirilib.

Deputatlar əvvəlcə Gənclər Mərkəzinin tələbə gənclərinin əl işlərindən və rəsm əsərlərindən ibarət sərgiyə baxıblar.

"Alyans Gənclər Mərkəzi"nin icraçı direktoru Rəna Hüseynova və sədri Leyla Əmrahova mərkəzin fəaliyyəti, burada gənclər üçün nəzərdə tutulmuş təlim, tədris proqramları barədə ətraflı məlumat veriblər.

Deputatlar A.Nağıyev və R.Əliyev gənclər qarşısında çıxış edərək Azərbaycan dövlətinin soydaşlarımıza və dünya azərbaycanlılarına diqqət və qayğısından danışıb, gəncləri daha çox biliyə yiyələnməyə dəvət ediblər.

Görüşün sonunda Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü ilə əlaqədar keçirilmiş rəsm müsabiqəsinin qaliblərinə mükafatlar, iştirakçılara sertifikatlar təqdim olunub.

Azərbaycanın Gürcüstandakı səfirliyinin məsul əməkdaşı Ramel Lətifov görüşdə iştirak edib.

Sonda deputatlar və səfirlik əməkdaşı gəncləri maraqlandıran sualları cavablandırıb.




# İlham Əliyev sülhün şərtini söylədi

## Əgər Ermənistan sülh istəyirsə, ordusunun qalıqlarını Qarabağdan çıxarmalıdır

*Əvvəli 1-ci səh.*

QH Əlaqələndirmə Bürosunun nazirlər görüşündəki çıxışında dövlət başçısı İlham Əliyev də qətiyyətlə bəyan etdi ki, əgər Ermənistan həqiqətən də regionda çoxdan gözlənilən sülhdə maraqlıdırsa, onda onun silahlı qüvvələri Azərbaycanın Qarabağ bölgəsindən tamamilə çıxmalıdır. Bölgədəki erməni hərbi və yarımhərbi elementləri tərk-silah edilməlidir.

### Prinsipial və qətiyyətli mövqe

44 günlük Vətən müharibəsində torpaqlarının işğalına son qoyan və işğalçı Ermənistanı kapitulyasiya aktına imza atmağa məcbur edən Azərbaycan müharibədən dərhal sonra böyük humanizm göstərərək məğlub Hayastana sülh təklif edib.

Ötən müddət ərzində Bakı regionda təhlükəsizliyin, əməkdaşlığın, rifahın təmin edilməsi üçün mühüm təşəbbüslərlə çıxış edib. Eyni zamanda ölkəmiz bu istiqamətdə xeyli əməli addımlar da atıb, əzm və iradə ortaya qoyub. İstər yeni Laçın yolunun vaxtından əvvəl istifadəyə verilməsi, istər Qarabağda yaşayan erməni sakinlərlə bu ilin martında baş tutan görüş və digər bu istiqamətdə atılan addımlar da Azərbaycanın sülhün təmin edilməsində qərarlı olduğunu bariz şəkildə ortaya qoyur.

Bakının sülh müqaviləsinin bağlanması üçün irəli sürdüyü 5 təməl prinsipin özü belə Hayastanın hazırda çabaladığı siyasi, iqtisadi, sosial, ümumiyyətlə, bütün sahələrdə bataqlıqdan çıxması üçün böyük şansdır. Elə təkcə Zəngəzur dəhlizinin açılması səfalət içərisində olan Hayastanı dalan ölkə olmaqdan qurtaracaq.

Lakin dövlət başçısının iyulun 5-də mötəbər tədbirdə qeyd etdiyi kimi, Hayastan bu dəhlizin açılmasına mane törədir: "Ermənistan, həmçinin təxminən 3 il əvvəl imzaladığı kapitulyasiya aktında yer almış digər öhdəliyi olan və Azərbaycanın əsas hissəsini onun Naxçıvan Muxtar Respublikası ilə bağlayacaq Zəngəzur dəhlizinin açılmasına mane olur".

### Separatizmə dəstək verən Fransa

Görünən odur ki, Hayastan hələ də xarici havadarlarının çaldığı hava ilə oynamaqdan, onların şirnikləndirici vədlərinə uyaraq ölkəmizə qarşı revanşizm hisslərinə qapılmaqdan, torpaqlarımıza qarşı ərazi iddiası güdməkdən əl çəkmək istəmir. Buna görədir ki, Hayastan üçtərəfli Bəyanatla üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmir, vaxtaşırı ölkəmizə qarşı təxribatlar törətməyə çalışır, Azərbaycanın beynəlxalq hüquqa dayanaraq Laçın yolunda nəzarət-keçid məntəqəsi qurmasını "blokada" kimi dünyaya sırımaq istəyir, Qarabağda yaşayan erməni sakinlərin cəmiyyətimizə reinteqrasiya olunmasına maneçilik törədir, separatçılara açıq dəstək göstərir, onları silahlandırır və sair və ilaxır kimi təxribat əməlləri törədir.

Müstəmləkəçi Fransa isə Ermənistana bu murdar əməllərində ən böyük "dəstəkçi" və qızışdırıcı "hami"lik edir. Bir sözlə, əli milyonlarla əlcəzairlinin qanına batan Fransa faşizm xislətli Ermənistanın vaxtilə azərbaycanlılara qarşı törətdiyi soyqırımlarına, qətliamlara göz yumduğu kimi, indi də kiçik bacısının ölkəmizə qarşı təxribat törətməsinə dəstək nümayiş etdirir.

QH-nin Əlaqələndirmə Bürosunun nazirlər görüşündəki sözügedən çıxışında Prezident İlham Əliyev söylədi ki, Fransa hətta Korsika dilinə qadağa qoyur və etnik azlıqlar konsepsiyasını qəbul etmir, lakin, eyni zamanda, özünü Azərbaycandakı erməni milli azlığının müdafiəçisi kimi göstərməyə çalışır. Bu, riyakarlıq və ikili standartlardan başqa bir şey deyil. "Özünü yalandan insan haqlarının və beynəlxalq hüququn müdafiəçisi kimi qələmə verən Fransa hələ də digər ölkələrin daxili işlərinə qarışır", - deyən dövlət başçısı Fransa qoşunlarının bu yaxınlarda Mali və Burkina-Fasodan çıxarılmasının onun Afrikadakı amansız neokolonializm siyasətinin uğursuzluğa məhkum olduğunu bir daha göstərdiyini vurğuladı. Eyni zamanda qeyd etdi ki, təəssüf ki, Fransa Azərbaycanın Qarabağ bölgəsində erməni separatizmini dəstəkləyərək, geosiyasi rəqabət, xarici hərbi mövcudluq və "Orientalizm" müstəmləkəçilik siyasəti ilə Cənubi Qafqaz regionunda da eyni mənfur təcrübəni tətbiq etməyə çalışır.

### Ermənistan transsərhəd ekoloji fəlakət törətməkdə davam edir

Torpaqlarımızın 30 illik işğalına son qoyulması Qarabağ və Şərqi Zəngəzurda tarixi, mədəni, dini irsimizi də erməni vandallarından xilas edib. Onilliklər ərzində ərazilərimizi talayan, bu yerlərdə daşı-daş üstündə qoymayan işğalçılar barbarlığa əl ataraq maddi-mədəni, dini abidələrimizi vəhşicəsinə dağıdıblar.

Prezident İlham Əliyev iyulun 5-də görüş iştirakçılarının nəzərinə onu da yetirdi ki, Ermənistan işğal etdiyi ərazilərdə urbisid, kultursid və ekosid törədib. İşğal altındakı torpaqlarımızda olan 67 məsciddən 65-i tamamilə dağıdılıb, qalanları isə donuz və inəklər üçün tövlə kimi istifadə edilib ki, bu da bütün dünya müsəlmanlarının təhqir edilməsi deməkdir.

İşğal dövründə Ermənistan Qarabağ və Şərqi Zəngəzurun ekosistemini də məhv edib, çaylarımızı, bulaqlarımızı çirkləndirib, zəhərləyib, 60 min hektar meşəliyi məhv edib, bir sözlə, burada "ölü torpaq" siyasəti həyata keçirib.

Hazırda da Hayastan ölkəmizə qarşı bu murdar əməlini davam etdirir. Elə yuxarıda adıçəkilən çıxışında ölkə Prezidenti bununla əlaqədar diqqətə çatdırdı ki, Ermənistan, indi isə Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə sərhədində transsərhəd ekoloji fəlakət törətməkdə davam edir.

Bununla Ermənistanın 1991-ci il Transsərhəd kontekstdə Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi Konvensiyasından (Espoo Konvensiyası) irəli gələn öhdəliklərini pozmuş olduğunu vurğulayan dövlət başçısı bildirdi ki, bu Konvensiyada ölkələrin mənfi transsərhəd təsirlərdən qaçmaq üçün bir-biri ilə məsləhətləşmələr aparmasının vacibliyi açıq şəkildə qeyd edilir.

### Azərbaycan minalarla ən çox çirkləndirilmiş on ölkə sırasındadır

Hayastanın Azərbaycana qarşı törətdiyi digər müharibə cinayəti isə işğal dövründə torpaqlarımızı mina tarlasına çevirməsidir. Mənfur düşmən demək olar ki, Qarabağ və Şərqi Zəngəzurda hər daşın, qayanın altına tank və piyada əleyhinə mina döşəyib. Eyni zamanda 44 günlük müharibədən sonra bu insanlıq əleyhinə cinayətlərini davam etdirib ki, buna ərazilərimizdə aşkarlanan 2021-ci il Ermənistan istehsallı minalar bariz nümunələrdir.

Ermənistanın mina terroru Böyük qayıdışa əngəl olan başlıca maneələrdəndir və hələ də Ermənistanın düzgün mina xəritələrini ölkəmizə təqdim etməməsi bu ərazilərdə insanlarımızın həyatlarını itirməsinə səbəb olur.

Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşündə dövlət başçısı məlumat verdi ki, Azərbaycan hazırda dünyada minalarla ən çox çirkləndirilmiş on ölkə sırasındadır. 2020-ci ilin noyabrında Vətən müharibəsi başa çatdıqdan sonra mina partlayışı nəticəsində təxminən 300 azərbaycanlı həlak olub və ya ağır yaralanıb: "İşğaldan azad edilmiş ərazilərdə baş verən hər bir mina partlayışı Ermənistanın törətdiyi hərbi cinayətlərin uzun siyahısının davamıdır. Mina problemi Ermənistan tərəfindən Azərbaycan xalqının fundamental insan hüquqlarının pozulmasıdır".

### Sonrakı peşmanlıq haylara fayda verməyəcək

Azərbaycanın suveren ərazilərini 30 il müddətində işğal altında saxlayaraq bu müddət ərzində xarici havadarlarının köməyi ilə sülhdən boyun qaçıran Hayastan Vətən müharibəsindən sonrakı dövr ərzində də qeyri-konstruktivlik nümayiş etdirərək, Fransa kimi xarici havadarlarına güvənərək sülhdən yayınmaq üçün ağılsız cəhdlər edir.

Amma bihudə, hayların Şuşa zəfərinin diktə etdiyi reallıqları qəbul etməkdən başqa çarələri yoxdur. Özləri də yaxşı bilirlər ki, onlar istənilən, istər siyasi, diplomatik, istərsə də hərbi platformada Azərbaycanın qarşısında diz çökməyə məhkumdurlar.

Buna görə də, necə ki gec deyil, Hayastan bölgədə yeganə söz sahibi olan Azərbaycanın humanist sülh şərtlərini qeyd-şərtsiz yerinə yetirməlidir. Əks-təqdirdə hər şey üçün çox gec olacaq. Sonrakı peşmanlıq isə fayda vermir.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Haqqı, ədaləti dananlar siyasi səhnədən getməlidirlər

**BMT-dən sonra dünyanın ən böyük beynəlxalq təşkilatı sayılan Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşünün yenidən Bakıda keçirilməsi Azərbaycanın beynəlxalq aləmdə qazandığı nüfuz və etimadın nəticəsi kimi qiymətləndirilməlidir.**



Azərbaycan Respublikasının Prezidenti, Qoşulmama Hərəkatının sədri İlham Əliyevin görüşdəki çıxışı dünyada geniş əks-səda doğurmuşdur. Dövlətimizin başçısı təşkilatın son illər artan fəaliyyətinə və yüksələn nüfuzuna diqqəti cəlb etməklə bərabər, hərəkatın beynəlxalq hüququn norma və prinsiplərinə sadiq qaldığını, dünyada sülhün və təhlükəsizliyin, insan hüquq və azadlıqlarının təmin olunması və müdafiə edilməsində fəal rol oynadığını bildirmişdir.

Ümumiyyətlə, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərlik etdiyi dövrdə təşkilatın fəaliyyəti əsaslı şəkildə canlanmış və təşkilat üzvlərinin birliyi, həmrəyliyi daha dolğun təmin edilmişdir. Pandemiya dövründə cənab İlham Əliyevin irəli sürdüyü bəşəri ideyalar, təşəbbüslər, xüsusilə amansız xəstəliyə qarşı dünya ölkələrinin səfərbər olunması barədə etdiyi müraciətlər dünyanın 150 dövləti tərəfindən dəstəklənmişdir. Səbəbsiz deyildir ki, dünya ictimaiyyəti cənab İlham Əliyevin bu əməllərini, təşəbbüslərini, bəşəriyyətə qayğı və diqqətini yüksək qiymətləndirmiş, onun xidmətlərini dünya xalqlarına və dövlətlərinə humanizmin nümunəsi kimi təqdim etmişlər.

Əlaqələndirmə Bürosunun nazirlər görüşündəki çıxışında da dövlətimizin başçısı bir daha bəşəri ideyalara, beynəlxalq normalara, sülhə, təhlükəsizliyə, insan azadlığına, ölkələrin müstəqilliyinə, suverenliyinə sadiqliyini ifadə etmiş, irqçiliyə, ayrı-seçkiliyə, islamafobiyaya, zülmə, müharibəyə, zorakarlığa qarşı mübariz olduğunu bildirmişdir. Çünki Azərbaycan Ermənistan tərəfindən işğala məruz qaldığı, torpaqlarının, şəhər və kəndlərinin viran edildiyi, insanların qətlə yetirildiyi otuz ildə bu ayrı-seçkilikdən, ikili standartlardan, beynəlxalq norma və prinsiplərə laqeydlikdən çox əziyyət çəkmişdir. Təəssüf ki, Azərbaycan bu gün də ikili standartlarla, ədalətsizliklərlə qarşılaşmaqdadır. Azərbaycan Prezidenti bu baxımdan Fransanın, xüsusilə Prezident Emmanuel Makronun şovinist, beynəlxalq aləmə zidd mövqeyini, bu dövlətin müstəmləkəçilik, xalqlara və dövlətlərə qarşı uzun illər yürütdüyü yanlış, ziddiyyətli siyasəti ciddi tənqid etmiş, Fransa hakimiyyət dairələrini bu məkrli, insanlığa zidd əməllərdən çəkinməyə səsləmişdir. Ona görə ki, dünən və bu gün Fransa demokratiya pərdəsi altında özünün çirkin məqsədlərini həyata keçirməkdədir və bu siyasət nəticəsində Fransa dövləti, onun rəhbərləri on milyonlarla insanın qətlinə rəvac vermiş, ölkələri viran qoymuşlar. Prezidentimiz bildirmişdir ki, Fransa müstəmləkə keçmişinə və soyqırımı aktlarına görə üzr istəməlidir.

Ancaq terrorçu, təcavüzkar Ermənistanı müdafiə etməklə, ona maddi-mənəvi, hərbi dəstək verməklə, Azərbaycana düşmən mövqeyində durmaqla Fransa özünün çirkli, şovinist əməllərini bu gün də davam etdirməkdədir. Cənab İlham Əliyev demişdir ki, Fransa özünü Azərbaycandakı erməni milli azlığının müdafiəçisi kimi göstərməyə çalışır. Qarabağ bölgəsində erməni separatizmini dəstəkləyir. Bu əməllər bir dövlət kimi Fransanı sarsıdır, onun nüfuzuna ciddi ziyan vurur. Son aylar ölkədə baş verən kütləvi iğtişaşlar, nümayişlər, qarşıdurmalar, həbslər bunu deməyə əsas verir ki, Makronun siyasəti iflasa məhkumdur.

Rəhbərlik etdiyi ölkədə ictimai-siyasi sabitliyi bərpa edə bilməyən Makronun bu gün başqa dövlətlərdə, o cümlədən Ermənistanda sülhü, əmin-amanlığı bərpa etmək, kimlərəsə məsləhətlər vermək cəhdi çox gülünc doğurur. Prezidentimizin söylədiyi kimi, Ermənistan regionda sülhə maraqlıdırsa, silahlı qüvvələri Qarabağdan çıxarmalıdır, Zəngəzur dəhlizinin açılmasına mane olmamalıdır. Makron və onun kimilər isə ədalətə, haqqa əsaslanmadıqları, dövlətlərin müstəqilliyinə hörmət qoymadıqları üçün siyasi meydandan uzaqlaşmalıdır.

***Tahir RZAYEV,***
***Milli Məclisin Aqrar siyasət komitəsinin sədri***

# Azərbaycan Qoşulmama Hərəkatına sədrliyi ilə mükəmməl nümunə formalaşdırıb

*Əvvəli 1-ci səh.*

Hələ 2019-cu ildə ölkəmiz Qoşulmama Hərəkatının sammitinə uğurla evsahibliyi etdiyi tədbirdə Prezident İlham Əliyev Azərbaycanın öz sədrliyi dövründə beynəlxalq hüququ və ədaləti müdafiə edəcəyini, fəaliyyətini tarixi "Bandunq prinsipləri" üzərində quracağını bəyan etmişdi. Sədrliyi dövründə ölkəmiz həyata keçirdiyi fəaliyyətlə dünyada Hərəkatın rolunun gücləndirilməsinə, "Bandunq prinsipləri"nin dəstəklənməsinə, üzv ölkələrin maraqlarının qorunmasına böyük töhfələr verib, BMT ilə çoxtərəfli əlaqələrin təşviq edilməsi, qorunması və gücləndirilməsi istiqamətində səylərini əsirgəməyib.

### İlham Əliyevin təşəbbüsləri beynəlxalq miqyasda təqdir olundu

Məlum olduğu kimi, Azərbaycanın quruma sədrliyi qlobal təhlükəyə çevrilmiş COVID-19 pandemiyasının tüğyan etdiyi dövrə təsadüf etdi. Belə bir vaxtda Prezident İlham Əliyev öz müdrikliyi ilə QH-ni pandemiya ilə mübarizəyə uğurla səfərbər etdi. Bununla həm də qlobal lider rolunu öz üzərinə götürən Prezident İlham Əliyevin təşəbbüsləri ilə Hərəkatın pandemiya ilə mübarizə tədbirləri qlobal səviyyədə təqdir olundu, böyük razılıqla qarşılandı. Bu tədbirlər pandemiya ilə mübarizədə beynəlxalq həmrəyliyin, o cümlədən COVID-19 əleyhinə peyvəndlərə əlçatanlığın təmin edilməsində böyük rol oynadı.

Azərbaycanın Hərəkata sədrliyi dövründə peyvənd millətçiliyinə qarşı da mübarizə apardı. Bu xüsusda, 23 mart 2021-ci il tarixində BMT-nin İnsan Hüquqları Şurasının 46-cı sessiyası çərçivəsində Qoşulmama Hərəkatının sədri qismində Azərbaycanın təşəbbüsü ilə "COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi" adlı qətnamə qəbul edilib. Qətnaməyə ümumilikdə 133 dövlət həmmüəlliflik edib ki, bu da BMT-nin İnsan Hüquqları Şurasında qəbul edilən qətnamələr üçün olduqca yüksək göstəricidir.

BMT Baş Assambleyasının 76-cı sessiyası çərçivəsində isə Assambleyanın plenar iclasında Hərəkatın Sədri qismində Prezident İlham Əliyevin təşəbbüsü ilə hərəkat üzvləri adından irəli sürülmüş "COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi" adlı qətnamə BMT üzv dövlətlərinin mütləq əksəriyyətinin dəstəyi ilə qəbul edilib.

İyulun 5-də Bakı Konqres Mərkəzində Hərəkatın Əlaqələndirmə Bürosunun "Qoşulmama Hərəkatı: meydana çıxan çağırışlarla mübarizədə birgə və qətiyyətli" mövzusunda nazirlər görüşündə çıxış edən Prezident İlham Əliyev bu barədə deyib: "Qoşulmama Hərəkatı ölkələrinin yekdil qərarı ilə Azərbaycan 2019-2022-ci illər üçün sədrliyi öz üzərinə götürdü və yenidən yekdil qərarla sədrliyimiz daha bir il uzadıldı. Azərbaycan Qoşulmama Hərəkatına sədrliyi dövründə "Bandunq prinsipləri" əsasında ədaləti, beynəlxalq hüququ və üzv ölkələrin qanuni maraqlarını qətiyyətlə qorudu. Beynəlxalq ictimaiyyət COVID-19 pandemiyası ilə necə mübarizə aparacağı barədə çaşqın vəziyyətdə olarkən, misli görünməmiş bu çağırışla mübarizədə qlobal səyləri birləşdirən Qoşulmama Hərəkatı oldu".

### Müdrik və uzaqgörən fəaliyyət

QH-də Azərbaycan təşəbbüsü əsasında Hərəkatın üzv dövlətlərini təmsil edən gənclərin iştirakı ilə Qoşulmama Hərəkatı Gənclər Şəbəkəsi təsis olunub.

Azərbaycanın QH-yə uğurla sədrlik etməsinin başqa bir nümunəsi təşkilatın Parlament Şəbəkəsinin yaradılmasıdır. QH-nin prinsip, ideya və məqsədlərinin həyata keçirilməsində parlamentarilərin konstruktiv rolu nəzərə alınaraq, üzv dövlətlərin parlamentləri arasında əlaqələrin dərinləşdirilməsi məqsədilə Prezident İlham Əliyevin təşəbbüsü ilə 2021-ci ilin noyabr ayında Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi təsis olunub.

2022-ci ildə Şuşa razılaşması əsasında Qoşulmama Hərəkatının Gənclər Təşkilatı təsis olunub və onun daimi katibliyi Bakıda yerləşəcək. Ötən gün Prezident İlham Əliyev bildirdi ki, biz hazırda Qoşulmama Hərəkatının qadınlar platformasının yaradılması üzərində işləyirik.

Bütün bunlar göstərir ki, Azərbaycan Qoşulmama Hərəkatına sədrliyi ilə mükəmməl nümunələr yaradıb. Prezident İlham Əliyevin dediyi kimi, institusional davamlılığa doğru atılan bu addımlarla biz növbəti sədrlərə mütləq uğurlu bir miras qoyacağıq.

Bir məsələni də qeyd edək ki, Qoşulmama Hərəkatı ölkələri BMT Təhlükəsizlik Şurasında Azərbaycan əleyhinə olan birtərəfli və qərəzli bəyanatların qəbul edilməsinin qarşısının alınmasında böyük rol oynayıblar. Bütün bunlar bir daha Azərbaycanın QH çərçivəsində həyata keçirdiyi müdrik və uzaqgörən fəaliyyətdən xəbər verir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Qoşulmama Hərəkatının Bakıda keçirilən nazirlər görüşü dünya mediasının diqqət mərkəzində olub

**Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun Bakıda keçirilən "Qoşulmama Hərəkatı: meydana çıxan çağırışlarla mübarizədə birgə və qətiyyətli" mövzusunda nazirlər görüşü dünya mediasının diqqət mərkəzində olub.**

AZƏRTAC xəbər verir ki, dünyanın müxtəlif ölkələrinin tanınmış KİV-lərində dərc olunmuş məqalələrdə qlobal səviyyədə yaşanan gərginliklərə baxmayaraq, Bakıda keçirilən tədbirdə çoxsaylı ölkə nümayəndələrinin iştirakına, beynəlxalq ictimaiyyətə ünvanlanan mesajlara geniş yer verilib.

Kubanın **"www.plenglish.com"** portalında yayımlanan xəbərdə Qoşulmama Hərəkatının "yeni ədalətli dünya nizamı uğrunda mübarizəsini davam etdirən ölkələrin ən böyük hərəkatı olduğu bildirilib. Qeyd edilib ki, Qoşulmama Hərəkatı 1961-ci ildə keçmiş Yuqoslaviyanın Belqrad şəhərində Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin prinsiplərinə əsaslanaraq ədalətli dünya nizamını müdafiə etmək üçün alternativ hərəkat olaraq yaradılıb.

**"www.cubanews.acn.cu"** portalında yayımlanan məqalədə isə Qoşulmama Hərəkatının siyasi məsləhətləşmələr və beynəlxalq gündəlikdəki digər aktual məsələlər üzrə mübadilə forumu kimi canlandırılması prosesində irəliləyişi davam etdirməyə, dialoqun, diplomatiyanın və dinc münasibətlərin təşviqinə imkan verəcəyi diqqətə çatdırılıb.

Əlcəzairin **"al24news.com"** saytında bildirilib ki, Azərbaycanın paytaxtı Bakıda keçirilən Qoşulmama Hərəkatının nazirlər görüşü "Qoşulmama Hərəkatı: meydana çıxan çağırışlarla mübarizədə birgə və qətiyyətli" mövzusuna həsr olunub.

Qoşulmama Hərəkatının sədri, Prezident İlham Əliyevin açılış sessiyasında "beynəlxalq təşkilatlar, xüsusilə də Birləşmiş Millətlər Təşkilatı artıq bəşəri ümidləri doğrultmur, ona görə də BMT qaçılmaz olaraq ciddi islahatlar aparmalıdır" barədə fikirləri oxucuların diqqətinə çatdırılıb.

Bildirilib ki, Prezident İlham Əliyev həmçinin Qoşulmama Hərəkatına BMT Təhlükəsizlik Şurasında daimi yer verilməsinin zəruriliyini vurğulayaraq, bu mənada "Qoşulmama Hərəkatına, İslam Əməkdaşlıq Təşkilatına (İƏT) sədrlik edən ölkələrə və Afrika İttifaqı (Aİ) da növbə düsturuna uyğun və veto hüququna malik yerə sahib olmalı olduğunu bildirib.

Pakistanın **"www.urdupoint.com"** portalında isə Bakı görüşündə Malayziyanın xarici işlər naziri Zambri Abd Kadirin BMT-də ciddi islahatlara çağırış etdiyi bildirilib. Qeyd edilib ki, dünya ciddi problemlərlə üzləşdiyindən Birləşmiş Millətlər Təşkilatından effektiv olması üçün kritik islahatlardan keçməlidir.

Nazir eyni zamanda ölkəsinin İsveçdə Quranın yandırılması kimi nifrət dolu bəyanatların və hərəkətlərin dünyada artmasından narahat olduğunu söyləyib.

Çinin **"People's Daily"** və Nikaraquanın **"www.el19digital.com"** portallarında qeyd olunur ki, Bakı görüşündə yeni dünya nizamı ilə bağlı məsələlər müzakirə olunacaq, yaranmış böhrandan çıxış yolları axtarılacaq.

İranın **"ww.tasnimnews.com"** və **"mehrnews.com"** saytlarında bu ölkənin xarici işlər naziri Hüseyn Əmir Abdullahiyanın Azərbaycan Prezidenti İlham Əliyevlə keçirdiyi görüşlər barədə məlumat verilib. Müzakirə olunan məsələlər arasında Azərbaycanın İrandakı səfirliyinə hücumda müqəssirlərin tapılması ilə bağlı görülən tədbirlər də müzakirə mövzusu olub.

**"Shabestan"** xəbər agentliyində isə Qoşulmama Hərəkatı haqqında məqalə dərc olunub. Yazıda bildirilib ki, sammit Qoşulmama Hərəkatının ən yüksək toplantısı hesab olunur, adətən üç ildə bir dəfə üzv ölkələrdən birinin paytaxtında keçirilir. Budəfəki toplantının hazırda təsisata rəhbərlik edən Azərbaycanın paytaxtı Bakıda keçirildiyi bildirilib.

Misirin **"Əxbar Əl Youm"** nəşrinin AZƏRTAC-a istinadla dərc etdiyi "İlham Əliyev: Fransa üzr istəməlidir" sərlövhəli materialda qeyd olunub ki, Azərbaycan Prezidenti özünü yalandan insan haqlarının və beynəlxalq hüququn müdafiəçisi kimi qələmə verən Fransanın hələ də digər ölkələrin daxili işlərinə qarışdığını, təəssüf ki, Azərbaycanın Qarabağ bölgəsində erməni separatizmini dəstəklləyərək, geosiyasi rəqabət, xarici hərbi mövcudluq və "Orientalizm" müstəmləkəçilik siyasəti ilə Cənubi Qafqaz regionunda da eyni mənfur təcrübəni tətbiq etməyə çalışdığını söyləyib. Ərəbdilli oxucuların diqqətinə çatdırılıb ki, Prezident İlham Əliyev Fransada, xüsusilə də mediada və internetdə müəyyən etnik azlıqlara qarşı davamlı və geniş şəkildə yayılmış irqçi, ayrı-seçkilik salan fikirlər, rəsmi şəxslər və parlamentin iki palatasının üzvləri tərəfindən irqi nifrət xarakterli çıxışların getdikcə artdığını, bu yaxınlarda Əlcəzairəsilli 17 yaşlı yeniyetmənin Fransa polisi tərəfindən qətlə yetirilməsinin bu ölkədə irqçiliyin və islamofobiyanın daha bir əlaməti olduğunu vurğulayıb. O əlavə edib ki, "bu baxımdan biz BMT-nin polisin atəş açmasını pisləyən və Fransanı "hüquq-mühafizə orqanlarında irqçilik və ayrı-seçkiliyin dərin problemlərini ciddi şəkildə həll etməyə" çağıran bəyanatını dəstəkləyirik".

**"Əl Əhəd"** qəzetində "İlham Əliyev Fransanı Azərbaycanın daxili işlərinə müdaxilə etməkdə ittiham edib və Parisi üzr istəməyə çağırıb" sərlövhəli məqalədə qeyd olunub ki, Azərbaycanın dövlət başçısı neokolonializmi hələ də davam etdirən ölkələrdən biri olan Fransanın Avropadan kənarda idarə etdiyi ərazilərin fransız müstəmləkə imperiyasının iyrənc qalıqları olduğunu söyləyib. O vurğulayıb ki, Fransa Qəmər adalarının Mayot adası üzərində suverenliyinə, həmçinin Yeni Kaledoniya xalqının, o cümlədən özündən digər dənizaşırı icma və ərazilərində yaşayan xalqların hüquqlarına hörmət etməlidir. Azərbaycanın dövlət başçısı həmçinin Fransanın soyqırımlarla dolu hakimiyyəti dövründə 1,5 milyona yaxın əlcəzairlinin qətlə yetirdiyini, hələ də Paris muzeyində əlcəzairli azadlıq döyüşçülərinin kəllə sümüklərinin müharibə qənimətləri kimi saxlanıldığını bildirib, bunu utancverici və iyrənc hərəkət adlandırıb. O, Fransa Prezidenti Emmanuel Makrondan həmin qəhrəmanların qalıqlarını Əlcəzairə təhvil verməsini tələb edib.

Məqalədə qeyd olunub ki, Prezident İlham Əliyev Fransanı Azərbaycanın daxili işlərinə müdaxilə etməkdə ittiham edib, Parisin üzr istəməli olduğunu söyləyib, habelə bu yaxınlarda Əlcəzairəsilli 17 yaşlı yeniyetmənin fransız polisi tərəfindən qətlə yetirilməsinin bu ölkədə irqçiliyin və islamofobiyanın daha bir əlaməti olduğunu vurğulayıb.

Geniş oxucu auditoriyasına malik olan **"Dustur"** nəşrində dərc olunan "Prezident Əliyev Fransanı üzr istəməyə dəvət edib" sərlövhəli məqalədə qeyd edilib ki, Azərbaycanın dövlət başçısı Parisi həm Azərbaycanın daxili işlərinə kobudcasına müdaxilə etdiyinə, həm də neokolonializm, islamofobiya siyasətinə görə üzr istəməyə çağırıb. O, Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşündəki çıxışında vurğulayıb ki, Fransa hakimiyyəti başqalarına mühazirə oxumağa cəhd etmək əvəzinə, öz ölkəsində bu cür narahatedici meyillərlə mübarizə aparmalıdır. Məqalədə dövlətimizin başçısının aşağıdakı sözləri sitat kimi verilib: "Əcdadları müstəmləkə siyasətinə məruz qalmış, qul kimi istifadə olunmuş, öldürülmüş, işgəncələr verilmiş və alçaldılmış insanlardan milyonlarla insanın qarşısında üzr istənilməsi yalnız Fransanın tarixi günahının etirafı olmayacaq, həm də Fransanın əlcəzairli yeniyetmənin vəhşicəsinə öldürülməsindən sonra qarşılaşdığı dərin siyasi, sosial və humanitar böhranın nəticələrinin aradan qaldırılmasına kömək edəcək".

**"Əl Marsad"**, **"Əl Həmra"**, **"Pressbee"**, **SANA** informasiya agentliyi, **"Yemen Publisher"** və ərəb ölkələrinin digər qəzet və portalları da Azərbaycanın dövlət başçısının Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşündəki çıxışına geniş yer ayırıblar.

Qardaş Türkiyənin **"Hürriyet"** qəzetində dərc olunan "Əliyev sülhün şərtlərini açıqladı: Ermənistan silahlı qüvvələrini Qarabağdan tamamilə çəkməlidir" sərlövhəli geniş məqalədə qeyd olunub ki, Prezident İlham Əliyev Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşündəki çıxışında otuz il ərzində Ermənistanın Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazilərinin təxminən 20 faizini işğal etdiyini, həm Ermənistanda, həm də Azərbaycanın işğal olunmuş ərazilərində etnik təmizləmə həyata keçirdiyini, bunun nəticəsində bir milyondan çox azərbaycanlının qaçqın və məcburi köçkünə çevrildiyini qeyd edib. Azərbaycanın dövlət başçısı diqqətə çatdırıb: "Ərazilərimiz işğaldan azad edildikdən sonra Azərbaycan indi bir sıra nəhəng çağırışlarla üzüzədir. Keçmişdə işğal altında olmuş ərazilərdəki dağıntıların miqyasından dəhşətə gəldik. Azərbaycanın şəhər və kəndləri Ermənistan tərəfindən qəsdən dağıdılmış, talan olunmuş, bütün mədəni və dini abidələr, məscidlər təhqir olunmuş, qarət edilmişdir. Ermənistan işğal etdiyi ərazilərdə urbisid, kulturisid və ekosid törətmişdir. İşğal altında olmuş ərazilərdəki 67 məsciddən 65-i dağıdılıb, qalanların-dan isə donuz və inəklər üçün tövlə kimi istifadə edilib ki, bu da bütün dünya müsəlmanlarına qarşı təhqirdir. Altmış min hektar meşəlik məhv edilmiş, kəsilmiş və daşınmışdır, torpaqlarımız və çaylarımız çirkləndirilmiş və zəhərləndirilmişdir".

Məqalədə xüsusi olaraq vurğulanıb ki, Prezident İlham Əliyev münaqişə başa çatdıqdan az sonra Azərbaycanın Ermənistanla bir-birinin suverenliyinin və ərazi bütövlüyünün qarşılıqlı tanınması əsasında sülh sazişi imzalamaq üçün beş əsas prinsipi təqdim etdiyini deyib. O əlavə edib ki, Ermənistanın Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanımağa məcbur olmasına baxmayaraq, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində hələ də Ermənistan silahlı qüvvələrinin qalıqları mövcuddur. Əgər Ermənistan həqiqətən də regionda çoxdan gözlənilən sülhdə maraqlıdırsa, onda onun silahlı qüvvələri Azərbaycanın Qarabağ bölgəsindən tamamilə çıxmalıdır. Bölgədəki erməni hərbi və yarımhərbi elementlər tərk-silah edilməlidir.

Türkiyənin **Anadolu, İHA** informasiya agentlikləri, **"TRTWorld"** telekanalı Prezident İlham Əliyevin Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşündəki çıxışını canlı yayımlayıb. Bundan başqa, **"Yeni Akit"**, **"Yeni Şafak"**, **"Akşam"**, **"Haber com"**, **"En son haber"** və digər qəzet və xəbər portalları, həmçinin **"Haber Global"**, **"OdaTV"** telekanallarının saytları dövlətimizin başçısının çıxışının əsas məqamlarını təqdim ediblər.

**"Milliyet"** qəzetində isə Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşündə iştirak edən Türkiyənin xarici işlər naziri Hakan Fidanın söylədiyi "Qarabağda Azərbaycan torpaqlarının qaytarılmasını bütün türk dünyasının zəfəri kimi görürük" fikirlərinin sərlövhəyə çıxarıldığı məqalə dərc olunub.

Prezident İlham Əliyevin Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun "Qoşulmama Hərəkatı: meydana çıxan çağırışlarla mübarizədə birgə və qətiyyətli" mövzusunda nazirlər görüşündə söylədiyi fikirlər Gürcüstan mətbuatının da diqqət mərkəzində olub.

**"İnterpressnews.ge"** portalında dərc olunmuş materialda deyilir: "Azərbaycan Prezidenti İlham Əliyev bildirib ki, münaqişə başa çatdıqdan az sonra Azərbaycan Ermənistanla bir-birinin suverenliyi və ərazi bütövlüyünün qarşılıqlı tanınmasına əsaslanan sülh müqaviləsinin imzalanmasının beş əsas prinsipini təqdim edib. Ermənistanın Qarabağı Azərbaycanın bir hissəsi kimi tanımalı olmasına baxmayaraq, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisində hələ də Ermənistan silahlı qüvvələrinin qalıqları var. Əgər Ermənistan həqiqətən də regionda çoxdan gözlənilən sülhün əldə olunmasında maraqlıdırsa, o zaman onun silahlı qüvvələri Azərbaycanın Qarabağ bölgəsindən tamamilə çıxarılmalıdır. Erməni hərbi və hərbiləşdirilmiş elementlərinin tərk-silahı və tərxis olunması həyata keçirilməlidir".

Geniş oxucu kütləsinə malik **"netgazeti.ge"** portalında yayımlanan materialda isə bildirilir ki, Ermənistan silahlı qüvvələri Qarabağı tamamilə tərk etməlidir. Azərbaycan Prezidenti İlham Əliyev Qarabağ ərazisində qalan erməni hərbi birləşmələrini ərazini tamamilə tərk etməyə çağırır.

Portal Azərbaycan Prezidentinin bu fikirlərini sitat gətirib: "Ermənistanın Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanımağa məcbur edilməsinə baxmayaraq, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisində Ermənistan silahlı qüvvələrinin qalıqları hələ də mövcuddur. Əgər Ermənistan həqiqətən də regionda davamlı sülhün əldə olunmasında maraqlıdırsa, onun silahlı qüvvələri Azərbaycanın Qarabağ bölgəsindən tamamilə çıxmalıdır. Erməni əsgərləri və hərbiləşdirilmiş birləşmələri tərk-silah edilməlidir".

Gürcüstanın İctimai Televiziyasında yayımlanan **(1tv.ge)** materialda Prezident İlham Əliyevin Fransada rəsmi şəxslərdən və parlamentarilərdən irqçi nifrət dili getdikcə daha çox eşidilməsi barədə fikirləri yayıb. Bildirilib ki, Fransa müstəmləkəçilik siyasətinə və soyqırımı aktlarına görə üzr istəməlidir.

**"İnterpress.ge"** portalında AZƏRTAC-a istinadla yayımlanan materialda Azərbaycan Prezidentinin islamın zorakılıq və terrorla eyniləşdirilməsi cəhdlərindən narahatlığı barədə məlumat verilib.

Bildirilir ki, mədəniyyətlərarası və dinlərarası dialoqun təşviqi bizim gündəlikimizdə öndə duran məsələlər olmalıdır.

Həmin portalda yayımlanan digər materialda isə Ermənistanın Zəngəzur dəhlizinin açılmasına törətdiyi maneədən bəhs olunur. Bildirilir ki, Ermənistan həmçinin təxminən 3 il əvvəl imzaladığı kapitulyasiya aktında yer almış digər öhdəliyi olan və Azərbaycanın əsas hissəsini onun Naxçıvan Muxtar Respublikası ilə bağlayacaq Zəngəzur dəhlizinin açılmasına maneə yaradır.

Eyni zamanda Azərbaycan Prezidentinin geniş vüsət alan islamofobiya və ksenofobiya hallarından, həmçinin islamın zorakılıq və terrorla eyniləşdirilməsi cəhdlərindən narahatlığını ifadə etdiyi diqqətə çatdırılıb.

**Qafqaztürk.com** saytında yerləşdirilən materialda da Azərbaycan Prezidentinin islamofobiya ilə bağlı fikirləri yer alıb: "Danimarkada, Niderlandda, İsveçdə müqəddəs Quranın yandırılması və təhqir olunması və buna ifadə azadlığı adı altında bəraət qazandırılması tamamilə məsuliyyətsizlikdir, qəbulolunmazdır və bu, pislənilməlidir".

Saytda dərc olunmuş "Azərbaycan indi bir sıra nəhəng çağırışlarla üz-üzədir" sərlövhəli materialda isə deyilir: "Otuz il əvvəl Ermənistan Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazilərinin təxminən 20 faizini işğal etdi, həm Ermənistanda, həm də Azərbaycanın işğal olunmuş ərazilərində etnik təmizləmə həyata keçirib".

Ərazilərimiz işğaldan azad edildikdən sonra Azərbaycan indi bir sıra nəhəng çağırışlarla üz-üzə olduğunu söyləyən Azərbaycan Prezidenti vurğulayıb: "Keçmişdə işğal altında olmuş ərazilərdəki dağıntıların miqyasından dəhşətə gəldik. Azərbaycanın şəhər və kəndləri Ermənistan tərəfindən qəsdən dağıdılmış, talan olunmuş, bütün mədəni və dini abidələr, məscidlər təhqir olunmuş, qarət edilmişdir".

Qoşulmama Hərəkatının Bakıda keçirilən nazirlər görüşü və tədbirdə səslənən fikirlərlə bağlı materiallar eyni zamanda Belarusun **"Belta"**, **"Reform.by"**, **"Eadaily.com"** kimi elektron media resurslarında da yayımlanıb.

Azərbaycan Prezidenti İlham Əliyevin Qoşulmama Hərəkatının nazirlər görüşündə çıxışı zamanı söylədiyi fikirləri ispandilli mətbuatın da diqqət mərkəzində olub.

**"www.swissinfo.ch"**, **"www.msn.com"**, **"Deportes"** kimi portallarda yayımlanan məqalələrdə Prezident İlham Əliyevin Qoşulmama Hərəkatına (QHH) üzv olan dövlətləri neokolonializmlə mübarizə aparmağa çağırdığı, Fransanı irqçilikdə, soyqırımda və başqa ölkələrin işlərinə qarışmaqda ittiham edərək neokolonializmin müasir dəstəkçilərindən biri olduğunu bildirdiyi vurğulanıb.

Portallarda dövlətimizin başçısının bu fikri sitat gətirilib: "Dekolonizasiya prosesi nəticəsində yaranmış Qoşulmama Hərəkatı keçmişin bu utancverici mirasına qarşı qətiyyətlə mübarizə aparmalı və onun tamamilə aradan qaldırılmasına öz töhfəsini verməlidir".

Azərbaycan Prezidenti qeyd edib ki, "neokolonializm siyasətini indi də davam etdirən ölkələrdən biri də Fransadır".

"Avropadan kənarda Fransanın idarə etdiyi ərazilər Fransa müstəmləkə imperiyasının iyrənc qalıqlarıdır", - deyən Prezident İlham Əliyev rəsmi Parisin təxminən 1,5 milyon əlcəzairlinin qətlə yetirilməsinə, müstəmləkə keçmişinə və soyqırımı aktlarına görə üzr istəməli olduğunu bildirib.

O, həmçinin hazırda dünyada mövcud olan islamofobiya və ksenofobiya ilə bağlı narahatlığını ifadə edib.

Azərbaycan Prezidenti İlham Əliyev Əlcəzairəsilli 17 yaşlı yeniyetmənin fransız polisi tərəfindən öldürülməsini xatırladaraq əlavə edib ki, bu hadisə ölkədə mövcud olan irqçilik və islamofobiyanın daha bir əlamətidir".

Ermənistanla münaqişənin həllinə gəlincə, Prezident İlham Əliyev qeyd edib ki, 2020-ci il müharibəsi başa çatdıqdan sonra İrəvanın Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanımağa məcbur olmasına baxmayaraq, Azərbaycan ərazisində hələ də Ermənistan silahlı qüvvələrinin qalıqları var.

O vurğulayıb ki, əgər Ermənistan həqiqətən də regionda çoxdan gözlənilən sülhün əldə olunmasında maraqlıdırsa, o zaman onun silahlı qüvvələri Azərbaycanın Qarabağ bölgəsini tamamilə tərk etməlidir.




















# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 214

QƏRAR

Bakı şəhəri, 25 iyun 2023-cü il

## "Müayinənin və texniki xidmətin həyata keçirilməsinə monitorinqin keçirilməsi qaydası"nın təsdiq edilməsi haqqında

"Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 25 fevral tarixli 486-VIQD nömrəli Qanununun tətbiqi və "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 28 sentyabr tarixli 773 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 8 aprel tarixli 1658 nömrəli Fərmanının 2.2.3-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Müayinənin və texniki xidmətin həyata keçirilməsinə monitorinqin keçirilməsi qaydası" təsdiq edilsin (əlavə olunur).

2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 25 iyun tarixli 214 nömrəli Qərarı ilə təsdiq edilmişdir.*

## Müayinənin və texniki xidmətin həyata keçirilməsinə monitorinqin keçirilməsi QAYDASI

### 1. Ümumi müddəalar

1.1. "Müayinənin və texniki xidmətin həyata keçirilməsinə monitorinqin keçirilməsi qaydası" (bundan sonra - Qayda) "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra - Qanun) 6-4-cü maddəsinin ikinci cümləsinə əsasən hazırlanmışdır, müayinənin və texniki xidmətin həyata keçirilməsinə monitorinqin (bundan sonra - monitorinq) keçirilməsi qaydasını müəyyən edir.

1.2. Monitorinq müayinə və texniki xidmət məlumatları üzrə reyestrə (bundan sonra - Reyestr) daxil edilmiş məlumatlar əsasında bu Qaydanın 3-cü hissəsinə uyğun olaraq qaz qurğularının etibarlı istismarı sahəsi üzrə Azərbaycan Respublikası Energetika Nazirliyinin tabeliyində Enerji Məsələlərini Tənzimləmə Agentliyi və texniki təhlükəsizlik sahəsi üzrə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi (bundan sonra - nəzarət orqanları) tərəfindən keçirilir.

1.3. Bu Qaydada istifadə olunan anlayışlar Qanunda və digər normativ hüquqi aktlarda nəzərdə tutulmuş mənaları ifadə edir.

### 2. Monitorinqin keçirilməsinin məqsədi və subyektləri

2.1. Monitorinqin məqsədi müayinə keçirilməsində və texniki xidmət işləri ilə əlaqədar istehlakçıların qaz qurğularının və balans mənsubiyyəti sərhədində yerləşən qaz xətlərinin (bundan sonra - qaz qurğularının və qaz xətlərinin), tüstü bacalarının, habelə havalandırma və havadəyişmə xətlərinin təhlükəsiz və etibarlı istismar olunmasını, onlara göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılmasını, monitorinq keçirilən subyektlər tərəfindən Qanunun 6-2-ci və 6-3-cü maddələrinin tələblərinə əməl olunmasını, qanun pozuntularının qarşısının alınmasını və yol verilmiş pozuntuların vaxtında aşkar edilərək aradan qaldırılmasını təmin etməkdir.

2.2. Qanunun 6-4-cü maddəsinə uyğun olaraq monitorinq subyektləri aşağıdakılardır:

2.2.1. qaz paylayıcısı;

2.2.2. yaşayış binalarının mənzil mülkiyyətçiləri (bina mənzil mülkiyyətçiləri tərəfindən bilavasitə idarə edildikdə), mənzil mülkiyyətçiləri müştərək cəmiyyətləri, ixtisaslaşmış istehlak kooperativləri, binanı idarə edən hüquqi şəxslər və fərdi sahibkarlar (idarəedici təşkilatlar), habelə digər qazlaşdırılmış tikinti obyektlərinin mülkiyyətçiləri (istifadəçiləri);

2.2.3. balansında dövlət mənzil fonduna aid binaları olan dövlət orqanları (qurumları);

2.2.4.ixtisaslaşmış podratçılar;

2.2.5. istehlakçılar.

### 3. Monitorinqin keçirilməsi

3.1. Qanunun 20-ci maddəsinə uyğun olaraq nəzarət orqanları bu Qaydanın 3.2-ci və 3.3-cü bəndlərində nəzərdə tutulmuş istiqamətlər üzrə monitorinqin keçirilməsi ilə bağlı bütün yerləri, binaları və qurğuları yoxlama hüququna malikdirlər.

3.2. Azərbaycan Respublikası Energetika Nazirliyinin tabeliyində Enerji Məsələlərini Tənzimləmə Agentliyi Reyestrə daxil edilmiş məlumatlar əsasında aşağıdakı istiqamətlər üzrə monitorinq keçirir:

3.2.1. Qanunun 6-2-ci maddəsi ilə müəyyən edilmiş qaydada qaz paylayıcısı tərəfindən istehlakçının qaz qurğularına və qaz xətlərinə müayinənin keçirilməsi və nəticələrinin rəsmiləşdirilməsi;

3.2.2. Qanunun 6-3-cü maddəsi ilə müəyyən edilmiş qaydada istehlakçının qaz qurğularına və qaz xətlərinə texniki xidmətin həyata keçirilməsi və nəticələrinin rəsmiləşdirilməsi;

3.2.3. qazpaylayıcı şəbəkəyə texniki xidmətin həyata keçirilməsi;

3.2.4. müayinə zamanı sayğaca müdaxilə, habelə qanunsuz qoşulma halları aşkar edildikdə Qanunun 13-cü maddəsinin 8-1-ci hissəsində nəzərdə tutulmuş tədbirlərin görülməsi;

3.2.5. müayinənin və texniki xidmətin həyata keçirilməsi ilə bağlı fəaliyyətlərdə bu Qaydanın 2.2-ci bəndində nəzərdə tutulmuş subyektlər tərəfindən Qanunun 6-2-ci və 6-3-cü maddələri ilə müəyyən edilmiş müddətlərə və hərəkətlərə əməl edilməsi;

3.2.6. Qanunun 6-5-ci maddəsinin 2-ci hissəsinə uyğun olaraq ixtisaslaşmış podratçıların fəaliyyəti.

3.3. Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi Reyestrə daxil edilmiş məlumatlar əsasında aşağıdakı istiqamətlər üzrə monitorinq keçirir:

3.3.1. Qanunun 6-2-ci maddəsi ilə müəyyən edilmiş qaydada istehlakçının tüstü bacalarına, habelə havalandırma və havadəyişmə xətlərinə müayinənin keçirilməsi və nəticələrinin rəsmiləşdirilməsi;

3.3.2. Qanunun 6-3-cü maddəsi ilə müəyyən edilmiş qaydada istehlakçının tüstü bacalarına, habelə havalandırma və havadəyişmə xətlərinə texniki xidmətin həyata keçirilməsi və nəticələrinin rəsmiləşdirilməsi;

3.3.3.yaşayış binalarında və dövlət mənzil fondu binalarında tüstü bacalarına, habelə havalandırma və havadəyişmə xətlərinə texniki xidmətin həyata keçirilməsi və nəticələrinin rəsmiləşdirilməsi.

3.4. Sahibkarlıq subyektlərinə münasibətdə monitorinq "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun həyata keçirilir.

### 4. Monitorinqin keçirilməsi üsulları

4.1. Nəzarət orqanları tərəfindən monitorinq aşağıdakı üsullarla həyata keçirilir:

4.1.1. Reyestrə daxil edilmiş məlumatların toplanılması, qiymətləndirilməsi, təhlili və yoxlanılması;

4.1.2. monitorinqin məqsədləri üçün bu Qaydanın 2.2-ci bəndində nəzərdə tutulmuş subyektlərin mülkiyyətində və ya istifadəsində olan tikinti obyektlərinə baxış keçirilməsi.

### 5. Monitorinqin keçirilməsi qaydası və müddəti

5.1.Nəzarət orqanları tərəfindən növbəti ilin başlanmasına ən geci 2 (iki) ay qalmış bu Qaydanın 3.2-ci və 3.3-cü bəndlərində nəzərdə tutulan istiqamətlər üzrə monitorinqin keçirilməsi barədə növbəti il üçün tədbirlər planı hazırlanıb təsdiq edilir.

5.2. Tədbirlər planında aşağıdakı məlumatlar qeyd edilir:

5.2.1. tədbirlər planı üzrə növbəti il üçün monitorinq keçiriləcək bu Qaydanın 3.2-ci və 3.3-cü bəndlərində nəzərdə tutulan istiqamətlər;

5.2.2. monitorinqin keçirilməsinin başlanma və bitmə tarixləri;

5.2.3. monitorinqin bu Qaydanın 4.1-ci bəndinə uyğun keçirilmə üsulları.

5.3. Tədbirlər planı təsdiq edildikdən sonra nəzarət orqanlarının rəsmi internet səhifəsində yerləşdirilir.

5.4. Bu Qaydanın 5.1-ci bəndinə əsasən monitorinq mütəmadi (rübdə bir dəfədən az olmamaq şərtilə) həyata keçirilir. Monitorinq başlanıldığı tarixdən etibarən 1 (bir) aydan çox davam edə bilməz.

5.5. Bu Qaydanın 2.2-ci bəndində nəzərdə tutulmuş subyektlərin, dövlət orqanlarının (qurumlarının), habelə fiziki və hüquqi şəxslərin müraciətlərinə əsasən Qanunun 6-2-ci və 6-3-cü maddələrinin tələblərinin pozulması halları müəyyən edildikdə, monitorinqlər bu Qaydanın tələblərinə uyğun olaraq plandankənar qaydada həyata keçirilir.

5.6. Monitorinqin keçirilməsi zamanı Reyestrə daxil edilmiş məlumatlar arasında natamamlıq, ziddiyyət və ya səhv aşkar edildikdə nəzarət orqanları bu Qaydanın 2.2-ci bəndində nəzərdə tutulmuş subyektlərdən əlavə məlumat, sənəd və izahat tələb edirlər. Monitorinq subyektləri monitorinqin keçirilməsi ilə bağlı tələb olunan məlumatları və sənədləri nəzarət orqanlarına kağız daşıyıcıda və ya elektron qaydada təqdim etməli, həmçinin yaranan suallara şifahi və (və ya) yazılı izahatlar verməlidirlər.

### 6. Monitorinqin nəticələrinin rəsmiləşdirilməsi

6.1. Monitorinqin nəticələri aktla rəsmiləşdirilir.

6.2. Monitorinqin nəticələri barəsində aktda aşağıdakılar qeyd edilir:

6.2.1. aktın tərtib edildiyi tarix, yer və qeydiyyat nömrəsi;

6.2.2. aktı tərtib edən şəxslərin vəzifəsi, soyadı, adı və atasının adı;

6.2.3. barəsində akt tərtib edilən monitorinq subyektinin adı və ünvanı;

6.2.4. bu Qaydanın 5.2.2-ci və 5.2.3-cü yarımbəndlərində qeyd edilən məlumatlar;

6.2.5. monitorinq zamanı aşkar olunmuş pozuntuların məzmunu və tələbləri pozulmuş normativ hüquqi aktların konkret struktur elementləri;

6.2.6. akta əlavə edilən sənədlərin siyahısı (olduğu halda);

6.2.7. aktı tərtib etmiş şəxslərin imzaları;

6.2.8. Qanunun 6-2-ci və 6-3-cü maddələrinin tələblərinə riayətolunmadığı müəyyən edildikdə bu Qaydanın 6.5-ci bəndində nəzərdə tutulan tədbirlərin görüləcəyi barədə məlumatlar;

6.2.9. aktı tərtib etmiş nəzarət orqanının möhürü.

6.3. Bu Qaydanın 6.4-cü bəndi nəzərə alınmaqla, monitorinqin nəticələri barəsində akt həmin monitorinqin keçirilməsinin bitmə tarixindən gec olmayaraq nəzarət orqanı tərəfindən tərtib edilməli və surəti tərtib edildiyi tarixdən 3 (üç) iş günü müddətində barəsində akt tərtib edilmiş monitorinq subyekti tərəfindən alınmasını təsdiq edən istənilən vasitə ilə təqdim olunmalıdır (göndərilməlidir).

6.4. Monitorinq subyektinin mülkiyyətində və ya istifadəsində olan tikinti obyektlərinə baxış keçirilməsi üsulu ilə monitorinq həyata keçirildikdə monitorinqin keçirildiyi gün bu Qaydanın 6.2-ci bəndi ilə müəyyən edilmiş qaydada 2 (iki) nüsxədə akt tərtib edilir və 1 (bir) nüsxəsi barəsində akt tərtib edilmiş monitorinq subyektinə təqdim edilir, digər nüsxəsi isə nəzarət orqanında saxlanılır.

6.5. Nəzarət orqanları monitorinqin keçirilməsi nəticəsində Qanunun 6-2-ci və 6-3-cü maddələrinin tələblərinə riayətolunmadığını müəyyən etdikdə, qanun pozuntularının aradan qaldırılması üçün pozuntu hallarına yol vermiş monitorinq subyektinə "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla icrası məcburi olan göstərişlər verir və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq tədbirlər görür.

6.6. Monitorinqin keçirilməsinin nəticələrinə dair əldə edilmiş məlumatlar nəzarət orqanları tərəfindən 1 (bir) iş günü müddətində həmin orqanların rəsmi internet səhifəsində yerləşdirilir, habelə "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş digər mənbələrdə açıqlanır.

6.7. Monitorinqin keçirilməsi sahəsində nəzarət orqanlarının qərarlarının icrası bu Qaydanın 2.2-ci bəndində nəzərdə tutulmuş subyektlər üçün məcburidir. Həmin qərarlardan inzibati qaydada və məhkəməyə şikayət verə bilər.

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 215

QƏRAR

Bakı şəhəri, 25 iyun 2023-cü il

## "Qaz paylayıcısı tərəfindən qaz qurğularında, qaz xətlərində və tüstü bacalarında, habelə havalandırma və havadəyişmə xətlərində müayinənin keçirilməsi qaydası"nın təsdiq edilməsi haqqında

"Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 25 fevral tarixli 486-VIQD nömrəli Qanununun tətbiqi və "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 28 sentyabr tarixli 773 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 8 aprel tarixli 1658 nömrəli Fərmanının 2.2.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Qaz paylayıcısı tərəfindən qaz qurğularında, qaz xətlərində və tüstü bacalarında, habelə havalandırma və havadəyişmə xətlərində müayinənin keçirilməsi qaydası" təsdiq edilsin (əlavə olunur).

2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 25 iyun tarixli 215 nömrəli Qərarı ilə təsdiq edilmişdir.*

## Qaz paylayıcısı tərəfindən qaz qurğularında, qaz xətlərində və tüstü bacalarında, habelə havalandırma və havadəyişmə xətlərində müayinənin keçirilməsi QAYDASI

### 1. Ümumi müddəalar

1.1. "Qaz paylayıcısı tərəfindən qaz qurğularında, qaz xətlərində və tüstü bacalarında, habelə havalandırma və havadəyişmə xətlərində müayinənin keçirilməsi qaydası" (bundan sonra - Qayda) "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra - Qanun) 6-2-ci maddəsinə uyğun olaraq hazırlanmışdır və qaz paylayıcısı tərəfindən qaz qurğularında, qaz xətlərində və tüstü bacalarında, habelə havalandırma və havadəyişmə xətlərində müayinənin keçirilməsi qaydasını müəyyən edir.

1.2. Bu Qaydada istifadə olunan anlayışlar Qanunda və digər normativ hüquqi aktlarda nəzərdə tutulmuş mənaları ifadə edir.

1.3. Müayinə istehlakçının qaz qurğularının və qaz xətlərinin, tüstü bacalarının, habelə havalandırma və havadəyişmə xətlərinin işçi vəziyyətdə olmasının və texniki təhlükəsizlik tələblərinə riayət olunması vəziyyətinin müəyyən edilməsi, o cümlədən nöqsan və (və ya) pozuntuların aşkar olunması məqsədilə qaz paylayıcısı tərəfindən ödənişsiz keçirilir.

1.4. Sahibkarlıq subyektlərinə münasibətdə müayinə "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla həyata keçirilir.

### 2. Müayinəyə dair tələblər

2.1. Müayinə zamanı qaz qurğularının, qaz xətlərinin və tüstü bacalarının Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 12 may tarixli 80 nömrəli Qərarı ilə təsdiq edilmiş "Qazdan istifadə Qaydaları"na, 2023-cü il 6 fevral tarixli 36 nömrəli Qərarı ilə təsdiq edilmiş "Qaz qurğularının tikintisinə, qurulmasına, istismarına və işçi vəziyyətdə saxlanmasına dair tələblər"ə, 2023-cü il 6 fevral tarixli 37 nömrəli Qərarı ilə təsdiq edilmiş "Qaz qurğularının qazın atmosferə buraxılmamasına, habelə qazın təzyiqinə, temperaturuna, tərkibinə və digər göstəricilərinə dair tələblər"ə və 2023-cü il 6 fevral tarixli 38 nömrəli Qərarı ilə təsdiq edilmiş "Tüstü bacalarının istismarında təhlükəsizlik texnikası Qaydası"na uyğunluğu yoxlanmalıdır.

2.2. Qaz qurğuları, qaz xətləri və tüstü bacaları, habelə havalandırma və havadəyişmə xətləri üzrə müayinə bu Qaydanın 1 nömrəli əlavəsi ilə müəyyən edilmiş hər müayinə predmeti üzrə müvafiq metodlara uyğun aparılır.

### 3. Müayinənin keçirilməsi və nəticələrinin rəsmiləşdirilməsi

3.1. Qaz paylayıcısının işçiləri istehlakçıya 5 (beş) iş günü əvvəldən sifarişli poçt göndərişi və ya istehlakçının əvvəlcədən razılığı ilə elektron poçt və ya digər elektron kommunikasiya vasitələri ilə bildiriş təqdim etməklə (göndərməklə) bu Qaydanın 3.6-cı bəndində nəzərdə tutulan hallar istisna olmaqla, ildə bir dəfə (hər il noyabrın 1-dək) müayinə keçirilməsini təmin etməlidirlər.

3.2. Bildirişdə müayinənin keçiriləcəyi tarix, məqsədi və ödənişsiz aparılması, tərəflərin hüquq və vəzifələri, müayinənin nəticələrindən asılı olaraq istehlakçının həyata keçirməli olduğu tədbirlər barədə Qanunun tələbləri, habelə istehlakçı qaz paylayıcısının işçilərini onun mülkiyyətində və ya istifadəsində olan tikinti obyektinə müayinə üçün buraxmadıqda və ya müayinə keçirməsinə maneə törətdikdə və müayinənin keçirilməsinə şərait yaratmadıqda, qaz paylayıcısının qazın verilişini dayandırmaq hüququ, bildirişi imzalayan şəxs barədə məlumatlar əks etdirilir.

3.3. Qaz paylayıcısının işçiləri istehlakçıların mülkiyyətində və ya istifadəsində olan tikinti obyektlərinə daxil olarkən, qaz paylayıcısı tərəfindən ona verilmiş xidməti vəsiqəni mütləq istehlakçıya (və ya onun səlahiyyətli nümayəndəsinə, yaxud eyni ünvanda yaşayan yetkinlik yaşına çatmış ailə üzvlərindən birinə) təqdim etməlidirlər.

3.4. Qaz paylayıcısının işçisi müayinənin nəticələrini istehlakçının (və ya onun səlahiyyətli nümayəndəsinin, yaxud yetkinlik yaşına çatmış ailə üzvlərindən birinin) iştirakı ilə bu Qaydanın 2 nömrəli əlavəsi ilə müəyyən edilmiş 2 (iki) nüsxədən ibarət olan aktla rəsmiləşdirməli və aktın 1 (bir) nüsxəsini istehlakçıya (və ya onun səlahiyyətli nümayəndəsinə, yaxud eyni ünvanda yaşayan yetkinlik yaşına çatmış ailə üzvlərindən birinə) təqdim etməlidir.

3.5. İstehlakçı qaz paylayıcısının işçilərini onun mülkiyyətində və ya istifadəsində olan tikinti obyektinə müayinə üçün buraxmadıqda və ya müayinə keçirməsinə maneə törətdikdə və müayinənin keçirilməsinə şərait yaratmadıqda, qaz paylayıcısı bu barədə müvafiq aktda qeyd aparmaqla qazın verilməsini dayandıra bilər.

3.6. İstehlakçı tərəfindən qaz qurğuları, qaz xətləri və tüstü bacalarında, habelə havalandırma və havadəyişmə xətlərində nöqsan və (və ya) pozuntular aşkar edildikdə, istehlakçının müraciəti əsasında təkrar müayinə qaz paylayıcısı tərəfindən 3 (üç) iş günündən gec olmayaraq aparılmalıdır. Təkrar müayinə qaz paylayıcısı tərəfindən ödənişsiz keçirilir. İstehlakçı təkrar müayinə üçün il (ardıcıl on iki ay) müddətində 1 (bir) dəfədən çox müraciət etdikdə, növbəti müayinə ödənişli keçirilir. Ödənişin məbləği qaz paylayıcısı ilə istehlakçı arasında bağlanılmış müqavilə ilə müəyyən edilir. Müayinə nəticəsində texniki xidmət göstərilməsi zərurəti yarandıqda, Qanunun 6-3-cü maddəsində nəzərdə tutulmuş tədbirlər görülməlidir. İstehlakçının müraciəti əsasında aparılan təkrar müayinə ilə bağlı bu Qaydanın 3.4-cü bəndinə uyğun olaraq akt tərtib edilir.

3.7. Qaz paylayıcısı bu Qaydanın 3.6-cı bəndinə əsasən təkrar müayinənin aparılmasından imtina etdikdə istehlakçı 1 (bir) iş günü ərzində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 25 iyun tarixli 214 nömrəli Qərarı ilə təsdiq edilmiş "Müayinənin və texniki xidmətin həyata keçirilməsinə monitorinqin keçirilməsi qaydası" ilə müəyyən edilmiş nəzarət orqanlarına məlumat verməlidir.

3.8. Qanunun 6-2-ci maddəsinə uyğun olaraq müayinə zamanı sayğaca müdaxilə, habelə qanunsuz qoşulma halları aşkar edildikdə həmin Qanunun 13-cü maddəsinin 8-1-ci hissəsində nəzərdə tutulmuş tədbirlər görülür.

3.9. İstehlakçı ilə bağlı üzrlü səbəbdən bildirişdə qeyd edilmiş tarixdə müayinə keçirilə bilinmədikdə istehlakçı bildirişi qəbul etdiyi tarixdən 1 (bir) iş günü müddətində qaz paylayıcısına şifahi və ya yazılı formada müraciət edərək, bu Qaydanın 3.1-ci bəndində nəzərdə tutulan tarixdən gec olmayaraq müayinə tarixini razılaşdırmalıdır.

3.10. İstehlakçı tərəfindən qaz paylayıcısının işçilərinə müayinə keçirilməsi üçün onun mülkiyyətində və ya istifadəsində olan tikinti obyektinə müayinənin keçirilməsinə şərait yaradılmaması səbəbindən müayinənin keçirilmədiyi hallarda qazın verilməsi dayandırılır və istehlakçı qaz paylayıcısına şifahi və ya yazılı formada müraciət etdikdən sonra 1 (bir) iş günü müddətində müayinənin keçirilməsi təmin edilir.

Ardı 10-cu səh.

*"Qaz paylayıcısı tərəfindən qaz qurğularında, qaz xətlərində və tüstü bacalarında, habelə havalandırma və havadəyişmə xətlərində müayinənin keçirilməsi qaydası"na 1 nömrəli əlavə*

## Qaz qurğuları, qaz xətləri və tüstü bacaları, habelə havalandırma və havadəyişmə xətləri üzrə müayinənin predmetləri və metodlarının SİYAHISI

*Əvvəli 9-cu səh.*

| Müayinənin predmetləri | Müayinə metodları |
|---|---|
| **1. Qaz qurğuları üzrə** | |
| Mexaniki və korroziya zədələnmələri | Vizual və ya ölçmə metodu ilə |
| Kiplik | Yüksək həssaslıqlı qaz indikatorları və ya köpüklənən maye ilə qaz sızmalarının aşkarlanması |
| İşçi vəziyyətdə olması | Yanma parametrlərinin və təhlükəsizlik avtomatikasının yoxlanılması |
| Özbaşına qaz qurğularının quraşdırılmasının, qaz qurğularının və qapadıcı ventillərin yerdəyişməsinin, dəyişdirilməsinin və təmirinin həyata keçirilməsi | Vizual |
| Qaz qurğularının quruluşunda (konstruksiyasında) dəyişikliklər edilməsi | Vizual |
| Qazdan və qaz qurğularından təyinatına uyğun olmayan məqsədlər üçün istifadə edilməsi | Vizual |
| **2. Qaz qurğularının quraşdırıldığı otaq (yer) üzrə** | |
| Qaz qurğularının quraşdırıldığı otaqların ölçülərinin texniki normativ hüquqi aktlara uyğunluğu | Vizual və ya ölçmə metodu ilə |
| Qaz qurğularının quraşdırıldığı vanna otaqları qapılarının alt hissəsində dəliklərin mövcudluğu | Vizual |
| Qaz qurğusunun quraşdırıldığı yerin quruluşunun (planının) müvafiq razılaşma olmadan dəyişdirilməsi | Vizual |
| **3. Qaz xətləri üzrə** | |
| Məkanın qazlılığı | Qaz indikatorları |
| Kiplik | Yüksək həssaslıqlı qaz indikatorları və ya köpüklənən maye ilə qaz sızmalarının aşkarlanması |
| Qoruyucu örtüyün və səthin vəziyyəti | Vizual və ölçmə metodu ilə |
| Qaynaq birləşmələrinin vəziyyəti | Vizual və ölçmə metodu ilə |
| İnşaat konstruksiyalarından keçidlərin vəziyyəti | Vizual və ölçmə metodu ilə |
| Qanunsuz qoşulma halları | Vizual |
| Tikinti obyekti daxilində qeyri-metal borular vasitəsilə qurğulara qaz xəttinin çəkilişi | Vizual |
| **4. Bağlayıcı, tənzimləyici, qoruyucu armaturlar, qaz sızmasını və dəm qazını müəyyən edən detektorlar** | |
| Xarici səthin vəziyyəti | Vizual və ölçmə metodu ilə |
| Kiplik | Yüksək həssaslıqlı qaz indikatorları və ya köpüklənən maye ilə qaz sızmalarının axtarışı |
| İşçi vəziyyətdə olması | İş qabiliyyətinin yoxlanması |
| Qaz qurğularında avtomatlaşdırılmış təhlükəsizlik və tənzimləmə vasitələrinin ləğv edilməsi | Vizual və ölçmə metodu ilə |
| **5. Qaz sayğacları** | |
| Xarici görünüşü | Vizual |
| Kiplik | Yüksək həssaslıqlı qaz indikatorları və ya köpüklənən maye ilə qaz sızmalarının axtarışı |
| İşçi vəziyyətdə olması | İş qabiliyyətinin yoxlanması |
| Sayğaca müdaxilə (sayğacın hesablayıcı mexanizminin sıradan çıxarılması məqsədilə plombun qoparılması, baxış şüşəsinin sındırılması, gövdəsinin zədələnməsi və sayğaca vizual baxış nəticəsində qüsurun müəyyən edilməsi mümkün olan digər hallar) | Vizual |
| **6. Tüstü bacaları, habelə havalandırma və havadəyişmə xətləri** | |
| Qaz qurğusunu tüstü bacası ilə birləşdirən boruların xarici görünüşü | Vizual |
| Tüstü bacalarının və havadəyişmə xətlərinin quruluşunun dəyişdirilməsi, havadəyişmə xətlərinin bağlanması, tüstü bacalarının təmizlənməsi üçün nəzərdə tutulan ciblərin hörülməsi və ya bağlanması | Vizual |
| Tüstü bacalarına və suqızdırıcıların tüstü ötürücü xətlərində özbaşına əlavə şiberlərin (qapaqların) quraşdırılması | Vizual |
| Nəfəsliklər, jalüzlü barmaqlıqlar və havadəyişmə xətlərinin barmaqlıqlarının bağlı saxlanılması | Vizual |
| Tüstü bacasında sorulmanın vəziyyəti | Sorulma indikatorları və ya digər ölçmə vasitələri ilə sorulmanın ölçülməsi |
| Havalandırma və havadəyişmə xətlərində sorulmanın vəziyyəti | Havalandırma və havadəyişmə xətlərində hava sərfinin ölçülməsi |

*"Qaz paylayıcısı tərəfindən qaz qurğularında, qaz xətlərində və tüstü bacalarında, habelə havalandırma və havadəyişmə xətlərində müayinənin keçirilməsi qaydası"na 2 nömrəli əlavə*

## Müayinənin nəticəsinə dair AKT

№ _______

"____"_____________20__ il ______________________

(aktın tərtib edildiyi yer)

1. ____________________________________________

(aktı tərtib edən qaz paylayıcısının işçisinin (işçilərinin) vəzifəsi, soyadı, adı, atasının adı)

2. İstehlakçı fiziki şəxs olduqda - soyadı, adı, atasının adı, fərdi identifikasiya nömrəsi (bundan sonra - FİN), ünvanı, telefon nömrələri

________________________________________________

________________________________________________

(akt istehlakçı fiziki şəxsin səlahiyyətli nümayəndəsi olan fiziki şəxsin iştirakı ilə tərtib edildikdə, onun soyadı, adı, atasının adı, FİN-i və səlahiyyətini təsdiq edən sənəd haqqında məlumat, yaxud müayinə aktı fiziki şəxsin yetkinlik yaşına çatmış ailə üzvlərindən birinin iştirakı ilə tərtib edildikdə, həmçinin onun soyadı, adı, atasınınadı və FİN-i)

3. İstehlakçı sahibkarlıq fəaliyyətini hüquqi şəxs yaratmadan həyata keçirən fiziki şəxs (bundan sonra - fərdi sahibkar) olduqda - soyadı, adı, atasının adı, FİN-i, ünvanı, telefon nömrələri, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (bundan sonra - VÖEN), sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrindən çıxarışın tarixi və yoxlamanın kodu

________________________________________________

________________________________________________

____________________

(akt fərdi sahibkarın səlahiyyətli nümayəndəsi olan fiziki şəxsin iştirakı ilə tərtib edildikdə, həmçinin onun soyadı, adı, atasının adı, FİN-i və səlahiyyətini təsdiq edən sənəd haqqında məlumat)

4. İstehlakçı hüquqi şəxsin tam adı, VÖEN-i, hüquqi ünvanı, faktiki fəaliyyət ünvanı (hüquqi ünvandan fərqli olduqda), telefon nömrələri, qanuni təmsilçisinin soyadı, adı, atasının adı, sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrindən çıxarışın tarixi və yoxlamanın kodu

________________________________________________

________________________________________________

__________________________

(akt istehlakçının qanuni təmsilçisindən başqa səlahiyyətli nümayəndəsi olan fiziki şəxsin iştirakı ilə tərtib edildikdə, həmçinin onun soyadı, adı, atasının adı, FİN-i və səlahiyyətini təsdiq edən sənəd haqqında məlumat)

5. İstehlakçı dövlət orqanının (qurumunun) tam adı, VÖEN-i, hüquqi ünvanı, faktiki fəaliyyət ünvanı, telefon nömrələri

________________________________________________

________________________________________________

(daimi fəaliyyət göstərən orqanın yerləşdiyi yerə dair məlumat), səlahiyyətli vəzifəli şəxsin vəzifəsi, soyadı, adı, atasının adı, FİN-i və səlahiyyətini təsdiq edən sənəd haqqında məlumat)

6. Müayinənin əhatə etdiyi təqvim ili ____________________

7. Təqvim ili ərzində keçirilmiş müayinənin sayı (istehlakçının müraciəti əsasında keçirilmiş təkrar müayinə nəzərə alınmaqla)

________________________________________________

8. Müayinə zamanı istehlakçının qaz qurğuları, qaz xətləri və tüstü bacalarında, habelə havalandırma və havadəyişmə xətlərində aşkar edilmiş nöqsan və (və ya) pozuntuların mahiyyəti və onların aradan qaldırılması üçün verilmiş vaxt (bir aydan çox olmayan müddət)

________________________________________________

________________________________________________

9. Müayinə zamanı nöqsan və (və ya) pozuntular aşkar edildikdə texniki xidmətin qaz paylayıcısı, ixtisaslaşmış podratçı və ya məişət abonenti olmayan istehlakçının ixtisaslı işçi heyəti tərəfindən həyata keçirilməsi ilə bağlı istehlakçının seçimi barədə məlumat

________________________________________________

________________________________________________

10. İstehlakçının qaz qurğularının adı, tipi və markası ________

11. İstehlakçının qaz sayğacının tipi, markası və nömrəsi _____

12. İstehlakçı ilə qaz paylayıcısı arasında bağlanılmış qazın alqı-satqı müqaviləsinin tarixi və nömrəsi ____________________

13.Fərdi hesabı ______________________________

14. Müayinə zamanı sayğaca müdaxilə, habelə qanunsuz qoşulma halları aşkar edildikdə Qanunun 13-cü maddəsinin 8-1-ci hissəsində nəzərdə tutulmuş tədbirlər barədə məlumatlar, o cümlədən pozuntunun mahiyyəti, vurulmuş zərərin miqdarı, görülmüş tədbirin qısa təsviri

________________________________________________

________________________________________________

________________________________________________

15. Müayinə keçirilməsi üçün istehlakçının mülkiyyətində və ya istifadəsində olan tikinti obyektinə daxil olmağa maneə törədilməsi və ya müayinənin keçirilməsinə şərait yaradılmaması və qazın verilişinin dayandırılmasına dair qeydlər (olduğu halda)

________________________________________________

________________________________________________

16. Müayinənin keçirilməsi müddəti (işlərin başlanılması və bitməsivaxtı)________________________________

17.İstehlakçının müayinə ilə bağlı qeydləri (olduğuhalda)

________________________________________________

18. Tərtib edilmiş aktın nüsxələrinin sayı _______________

19. İstehlakçıya təqdim edilmiş aktın nüsxələrinin sayı______

20. İstehlakçı "Qazdan istifadə Qaydaları"nın tələblərinə uyğun olaraq təlimatlandırıldı.

21. İmzalar

1. ________________________________________

(aktı tərtib etmiş işçinin (işçilərin) vəzifəsi, soyadı, adı, atasının adı)

2. ________________________________________

(istehlakçının və ya aktda qeyd edilmiş şəxsin soyadı, adı, atasının adı)

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 216** QƏRAR **Bakı şəhəri, 25 iyun 2023-cü il**

## "Müayinə və texniki xidmət məlumatları üzrə reyestrin aparılması ......və ondan istifadə qaydası"nın təsdiq edilməsi haqqında

"Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 25 fevral tarixli 486-VIQD nömrəli Qanununun tətbiqi və "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 28 sentyabr tarixli 773 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 8 aprel tarixli 1658 nömrəli Fərmanının 2.2.1-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Müayinə və texniki xidmət məlumatları üzrə reyestrin aparılması və ondan istifadə qaydası" təsdiq edilsin (əlavə olunur).

2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 25 iyun tarixli 216 nömrəli Qərarı ilə təsdiq edilmişdir.*

## Müayinə və texniki xidmət məlumatları üzrə reyestrin aparılması və ondan istifadə QAYDASI

**1. Ümumi müddəalar**

1.1. Bu Qayda "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra - Qanun) 6-1-ci maddəsinin 1-ci hissəsinin üçüncü cümləsinə əsasən hazırlanmışdır və müayinə və texniki xidmət məlumatları üzrə reyestrin (bundan sonra - Reyestr) aparılmasının və ondan istifadə edilməsinin təşkilati və hüquqi əsaslarını tənzimləyir.

1.2. Reyestr müayinə və texniki xidmət üzrə məlumatların toplusundan ibarət dövlət informasiya ehtiyatıdır.

1.3. Reyestrin məqsədi müayinə və texniki xidmət üzrə məlumatların vahid mənbədə toplanılması,saxlanılması, istifadəsi və istifadəçilər tərəfindən özlərinə aid və ya "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən açıq hesab edilən məlumatların əldə edilməsi, habelə Reyestrə daxil edilmiş məlumatlar əsasında Qanunun 6-2-ci və 6-3-cü maddələrinin tələblərinə riayət olunması üzrə monitorinq keçirilməsi yolu ilə nəzarətin həyata keçirilməsidir.

1.4. Reyestrdə yaradılan, əldə edilən, toplanılan informasiya və elektron sənədlər Azərbaycan Respublikasının mülkiyyətidir.

1.5. Reyestrin formalaşdırılması, aparılması, idarə olunması və təkmilləşdirilməsi ilə bağlı xərclər Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Azəriqaz" İstehsalat Birliyinin və Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikasının Qaz İstismar Xidmətinin vəsaiti və qanunla müəyyən olunan digər mənbələr hesabına maliyyələşdirilir.

*Ardı 11-ci səh.*

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 25 iyun tarixli 216 nömrəli Qərarı ilə təsdiq edilmişdir.*

# Müayinə və texniki xidmət məlumatları üzrə reyestrin aparılması və ondan istifadə QAYDASI

*Əvvəli 10-cu səh.*

1.6. Reyestrin formalaşdırılmasına və aparılmasına dair bu Qayda ilə tənzimlənməyən digər məsələlər, o cümlədən Reyestrin Elektron Hökumət İnformasiya Sistemi (bundan sonra - EHİS) vasitəsilə digər dövlət informasiya ehtiyatlarına və sistemlərinə inteqrasiyası Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"na (bundan sonra - Qaydalar) uyğun tənzimlənir.

1.7. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Reyestrə daxil edilmiş texniki xidmət aktlarının təhlili əsasında görülmüş işlərin dəyərinin "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respub-likasının Qanununa əsasən müəyyən edilmiş bazar qiymətinə uyğunluğuna mütəmadi nəzarət edir, habelə əvvəlki ildə tərtib edilmiş texniki xidmət aktlarına əsasən onların orta qiymətini müəyyən edir və rəsmi internet səhifəsində yerləşdirir.

1.8. Fərdi məlumatların Reyestrdə toplanılması və işlənilməsi "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

### 2. Əsas anlayışlar

2.1. Bu Qaydada istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

2.1.1. **istifadəçi** - Qanunun 6-1-ci maddəsinin 1-ci hissəsinin ikinci cümləsinə uyğun olaraq Reyestrdən informasiya əldə etmək və ya informasiyadan istifadə hüququ verilmiş Azərbaycan Respub-likasının Energetika Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və balansında dövlət mənzil fonduna aid yaşayış sahələri olan dövlət orqanları (qurumları), habelə istehlakçılar;

2.1.2. **iştirakçı** - Qanunun 6-5-ci maddəsinin 4-ci hissəsinə uyğun olaraq Reyestrin informasiya proseslərində iştirak edən Azərbaycan Respublikasının Energetika Nazirliyi;

2.1.3. **sahib** - Qanunun 6-1-ci maddəsinin 1-ci hissəsinin birinci cümləsinə uyğun olaraq Reyestr üzərində sahiblik və istifadə hüququnu həyata keçirən, qanunvericiliyə uyğun qaydada Reyestrin yaradılmasını və aparılmasını təmin edən Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Azəriqaz" İstehsalat Birliyi və Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikasının Qaz İstismar Xidməti.

2.2. Bu Qaydanın məqsədləri üçün istifadə olunan digər anlayışlar Qanunda, Qaydalarda və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarında nəzərdə tutulan mənaları ifadə edir.

2.3. Sahib eyni zamanda Reyestrin operatorudur.

### 3. Reyestrin formalaşdırılması və fəaliyyət prinsipləri

3.1. Reyestr Qaydaların 2.1-ci bəndində qeyd edilən prinsiplər nəzərə alınmaqla, aşağıdakı prinsiplər əsasında formalaşdırılır:

3.1.1. **istifadə rahatlığı** - Reyestrdən istifadənin və məlumat mübadiləsinin rahat, əlavə əməliyyatlar aparılmadan təmin edilməsi;

3.1.2. **fasiləsizlik** - Reyestrdə aparılan təşkilati, inzibati, texniki və digər dəyişikliklərdən asılı olmayaraq fəaliyyətin fasiləsiz həyata keçirilməsi;

3.1.3. **funksionallıq və davamlı inkişaf** - Reyestrin inkişaf etdirilməsi imkanını təmin edən proqram-texniki komponentlərin olması və ən son texnologiyalardan istifadə edilməklə Reyestrin daim təkmilləşdirilməsi;

3.1.4. **operativlik** - Reyestrdə məlumatların yaradılması, toplanılması, işlənilməsi, saxlanılması və axtarışı işlərinin sürətli şəkildə həyata keçirilməsi;

3.1.5. **sərbəstlik** - Reyestrin fəaliyyətinin onda aparılan təşkilati, inzibati, texniki və digər dəyişikliklərdən asılı olmaması;

3.1.6. **şəffaflıq** - Reyestrin fəaliyyətində aşkarlığın və hesabatlılığın təmin edilməsi, həyata keçirilən prosedurların və onların nəticələrinin izlənilməsi imkanının mövcudluğu.

### 4. Reyestrin funksionallığına dair tələblər

4.1. Reyestr vasitəsilə aşağıdakılar təmin edilir:

4.1.1. informasiyanın Reyestrdə toplanılması, emalı, axtarışı, təhlili və ötürülməsi;

4.1.2. Reyestrin fasiləsiz fəaliyyəti;

4.1.3. informasiya mübadiləsində bir-biri ilə uzlaşa bilən texnologiyaların və proqram-texniki vasitələrin tətbiqi;

4.1.4. EHİS-ə inteqrasiya olunması.

4.2. Reyestrdə yalnız sertifikatlaşdırılmış proqram təminatından və proqram-texniki vasitələrdən istifadə edilir.

4.3. Sahib Reyestrə daxil edilən məlumatların itirilməsinin, təhrif edilməsinin və qanunsuz olaraq əldə edilməsinin qarşısının alınması, habelə həmin məlumatların mühafizəsi ilə bağlı normativ hüquqi aktlarda müəyyən edilmiş təşkilati, texniki tədbirləri görür, Reyestrdə formalaşdırılan, daxil edilən və yığılan məlumatların təhlükəsiz şəraitdə saxlanılmasına və mühafizəsinə görə məsuliyyət daşıyır.

### 5. Reyestrin strukturu və reyestrə daxil edilən məlumatlar

5.1. Reyestrin strukturu aşağıdakı bölmələrdən ibarətdir:

5.1.1. müayinə (o cümlədən təkrar müayinə);

5.1.2. texniki xidmət;

5.1.3. ixtisaslaşmış podratçılar.

5.2. Reyestrin müayinə bölməsinə aşağıdakı məlumatlar daxil edilir:

5.2.1. müayinə aktının tərtib edildiyi tarix, yer və nömrəsi;

5.2.2. müayinə aktını tərtib edən qaz paylayıcısının işçisinin (işçilərinin) vəzifəsi, soyadı, adı, atasının adı;

5.2.3. istehlakçı fiziki şəxs olduqda - soyadı, adı, atasının adı, fərdi identifikasiya nömrəsi (bundan sonra - FİN), ünvanı, telefon nömrələri (akt istehlakçı fiziki şəxsin səlahiyyətli nümayəndəsi olan fiziki şəxsin iştirakı ilə tərtib edildikdə, onun soyadı, adı, atasının adı, FİN-i və səlahiyyətini təsdiq edən sənəd haqqında məlumat, yaxud müayinə aktı fiziki şəxsin yetkinlik yaşına çatmış ailə üzvlərindən birinin iştirakı ilə tərtib edildikdə, həmçinin onun soyadı, adı, atasının adı, FİN-i);

5.2.4. istehlakçı sahibkarlıq fəaliyyətini hüquqi şəxs yaratmadan həyata keçirən fiziki şəxs (bundan sonra - fərdi sahibkar) olduqda - soyadı, adı, atasının adı, FİN-i, ünvanı, faktiki fəaliyyət ünvanı, telefon nömrələri, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (bundan sonra - VÖEN), sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrindən çıxarışın tarixi və yoxlamanın kodu (akt fərdi sahibkarın səlahiyyətli nümayəndəsi olan fiziki şəxsin iştirakı ilə tərtib edildikdə, həmçinin onun soyadı, adı, atasının adı, FİN-i və səlahiyyətini təsdiq edən sənəd haqqında məlumat);

5.2.5. istehlakçı hüquqi şəxsin tam adı, VÖEN-i, hüquqi ünvanı, faktiki fəaliyyət ünvanı (hüquqi ünvandan fərqli olduqda), telefon nömrələri, qanuni təmsilçisinin adı, soyadı və atasının adı, sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrindən çıxarışın tarixi və yoxlamanın kodu (akt istehlakçının qanuni təmsilçisindən başqa səlahiyyətli nümayəndəsi olan fiziki şəxsin iştirakı ilə tərtib edildikdə, həmçinin onun soyadı, adı, atasının adı, FİN-i və səlahiyyətini təsdiq edən sənəd haqqında məlumat);

5.2.6. istehlakçı dövlət orqanının (qurumunun) tam adı, VÖEN-i, hüquqi ünvanı, faktiki fəaliyyət ünvanı (daimi fəaliyyət göstərən orqanının yerləşdiyi yerə dair məlumat), telefon nömrələri, səlahiyyətli vəzifəli şəxsinin vəzifəsi, soyadı, adı, atasının adı, FİN-i və səlahiyyətini təsdiq edən sənəd haqqında məlumat);

5.2.7. müayinənin əhatə etdiyi təqvim ili;

5.2.8. təqvim ili ərzində keçirilmiş müayinənin sayı (istehlakçının müraciəti əsasında keçirilmiş təkrar müayinə nəzərə alınmaqla);

5.2.9. müayinə zamanı istehlakçının qaz qurğuları, qaz xətləri və tüstü bacalarında, habelə havalandırma və havadəyişmə xətlərində aşkar edilmiş nöqsan və (və ya) pozuntuların mahiyyəti və onların aradan qaldırılması üçün verilmiş vaxt (bir aydan çox olmayan müddət);

5.2.10. müayinə zamanı nöqsan və (və ya) pozuntular aşkar edildikdə texniki xidmətin qaz paylayıcısı, ixtisaslaşmış podratçı və ya məişət abonenti olmayan istehlakçının ixtisaslı işçi heyəti tərəfindən həyata keçirilməsi ilə bağlı istehlakçının seçimi barədə məlumat;

5.2.11. istehlakçının qaz qurğularının adı, tipi və markası;

5.2.12. istehlakçının qaz sayğacının tipi, markası və nömrəsi;

5.2.13. istehlakçı ilə qaz paylayıcısı arasında bağlanılmış qazın alqı-satqı müqaviləsinin tarixi və nömrəsi;

5.2.14. istehlakçının fərdi hesabı;

5.2.15. müayinə zamanı sayğaca müdaxilə, habelə qanunsuz qoşulma halları aşkar edildikdə Qanunun 13-cü maddəsinin 8-1-ci hissəsində nəzərdə tutulmuş tədbirlər barədə məlumatlar, o cümlədən pozuntunun mahiyyəti, vurulmuş zərərin miqdarı, görülmüş tədbirin qısa təsviri;

5.2.16. müayinə keçirilməsi üçün istehlakçının mülkiyyətində və ya istifadəsində olan tikinti obyektinə daxil olmağa maneə törədilməsi və ya müayinənin keçirilməsinə şərait yaradılmaması və qazın verilişinin dayandırılmasına dair qeydlər (olduğu halda);

5.2.17. müayinənin keçirilməsi müddəti (işlərin başlanılması və bitməsi vaxtı);

5.2.18. istehlakçının müayinə ilə bağlı qeydləri (olduqda).

5.3. Reyestrin texniki xidmət bölməsinə aşağıdakı məlumatlar daxil edilir:

5.3.1. texniki xidmətin nəticəsinə dair aktın tərtib edildiyi tarix, yer və nömrəsi;

5.3.2. texniki xidmətin nəticəsinə dairaktı tərtib edən şəxslərin vəzifələri, soyadları, adları, atalarının adları (ixtisaslaşmış podratçının işçisinin və yafərdi sahibkar olan ixtisaslaşmış podratçının ixtisas attestatının nömrəsi, verilmə və qüvvədəolma tarixi);

5.3.3. istehlakçı barədə bu Qaydanın 5.2.3-5.2.6-cı yarımbəndlərində nəzərdə tutulan məlumatlar;

5.3.4. texniki xidmət zamanı görülmüş işlərin siyahısı;

5.3.5. texniki xidmət zamanı istifadə olunan mal-material istehlakçı və ya bu Qaydanın 5.3.12-ci və 5.3.13-cü yarımbəndlərində göstərilən subyektlər tərəfindən təqdim edildikdə, həmin mal-materialın növü, ölçüsü, miqdarı;

5.3.6. texniki xidmət zamanı istifadə olunan, qaz paylayıcısı və ya ixtisaslaşmış podratçı tərəfindən təqdim edilən və dəyəri istehlakçı və ya bu Qaydanın 5.3.12-ci və 5.3.13-cü yarımbəndlərində göstərilən subyektlər tərəfindən ödənilən mal-materialın növü, ölçüsü, miqdarı, dəyəri;

5.3.7. texniki xidmət zamanı görülmüş işlərin dəyəri;

5.3.8. texniki xidmət üzrə işlərin görülməsi müddəti (işlərin başlanılması və bitməsi vaxtı);

5.3.9. texniki xidmət məişət abonenti olmayan istehlakçının müvafiq ixtisaslı işçi heyəti tərəfindən göstərildiyi hallar istisna olmaqla, qaz paylayıcısı və ya ixtisaslaşmış podratçı ilə istehlakçı və ya ixtisaslaşmış podratçı ilə bu Qaydanın 5.3.12-ci yarımbəndində qeyd edilən subyektlər arasında texniki xidmət göstərilməsinə görə bağlanılmış müqavilənin tarixi və nömrəsi;

5.3.10. texniki xidmətin nəticəsinə dairaktın nüsxələrinin sayı;

5.3.11. istehlakçının və ya bu Qaydanın 5.3.12-ci yarım-bəndində göstərilən subyektlərin texniki xidmətlə bağlı qeydləri (olduqda);

5.3.12. balansında dövlət mənzil fonduna aid yaşayış sahələri olan dövlət orqanının (qurumunun) adı, VÖEN-i;

5.3.13. yaşayış binalarının mənzil mülkiyyətçilərinin (bina mənzil mülkiyyətçiləri tərəfindən bilavasitə idarə edildikdə), mənzil mülkiyyətçiləri müştərək cəmiyyətinin, ixtisaslaşmış istehlak kooperativinin, binanı idarə edən hüquqi şəxsin və fərdi sahibkarın (idarəedici təşkilatın), habelə digər qazlaşdırılmış tikinti obyektlərinin mülkiyyətçilərinə (istifadəçilərinə) dair bu Qaydanın 5.2.3-5.2.6-cı yarımbəndlərində nəzərdə tutulan məlumatlar.

5.4. Reyestrin ixtisaslaşmış podratçılar bölməsinə aşağıdakı məlumatlar daxil edilir:

5.4.1 fərdi sahibkar olan ixtisaslaşmış podratçının soyadı, adı, atasının adı, ünvanı, VÖEN-i, FİN-i, habelə ixtisas attestatı almış əməkdaşlarının soyadı, adı, atasının adı və FİN-i;

5.4.2. ixtisaslaşmış podratçı hüquqi şəxsin tam adı, hüquqi ünvanı, faktiki fəaliyyət ünvanı (daimi fəaliyyət göstərən orqanının yerləşdiyi yerə dair məlumat), VÖEN-i, ixtisas attestatı almış əməkdaşlarının soyadı, adı, atasının adı və FİN-i;

5.4.3. ixtisas attestatının nömrəsi, verilmə və qüvvədəolma tarixi;

5.4.4. ixtisas attestatının qüvvədəolma müddətinin dayandırılması və ya onun ləğv edilməsi barədə məlumat.

5.5. Bu Qaydanın 5.2-ci və 5.3-cü bəndlərində nəzərdə tutulan məlumatlar bilavasitə sahib tərəfindən 5.4-cü bəndində nəzərdə tutulan məlumatlar isə iştirakçı tərəfindən Reyestrə daxil edilir.

### 6. Reyestrin aparılması

6.1. Sahib müayinə və texniki xidmətlə (texniki xidməti qaz paylayıcısının keçirdiyi halda) bağlı məlumatları müayinənin və ya texniki xidmətin keçirildiyi vaxtdan 5 (beş) iş günündən gec olmayaraq Reyestrə daxil etməlidir. Məlumatlar sahibin təyin etdiyi məsul şəxs (şəxslər) tərəfindən Reyestrə gücləndirilmiş elektron imza vasitəsilə daxil edilir.

6.2. İstehlakçının qaz qurğularına və qaz xətlərinə, habelə qazpaylayıcı şəbəkəyə texniki xidmətin qaz paylayıcısı tərəfindən həyata keçirilməsi halları istisna olmaqla, bu Qaydanın 5.3-cü bəndində nəzərdə tutulmuş məlumatlar sahibə elektron və ya kağız daşıyıcılarda təqdim olunduğu vaxtdan 1 (bir) iş günü müddətində Reyestrə daxil edilməlidir.

6.3. Bu Qaydanın 5.4-cü bəndində göstərilən məlumatlar iştirakçı tərəfindən 1 (bir) iş günü müddətində Reyestrə yerləşdirilir və müntəzəm olaraq yenilənməsi təmin edilir. Məlumatlar iştirakçının təyin etdiyi məsul şəxs (şəxslər) tərəfindən Reyestrə gücləndirilmiş elektron imza vasitəsilə daxil edilir.

6.4. Reyestrə məlumatların daxil edilməsi zamanı texniki-texnoloji problemlər yarandıqda, iştirakçı tərəfindən bu barədə sahibə məlumat verilməlidir. Sahib daxil olmuş müraciətlə bağlı 1 (bir) iş günü müddətində araşdırma aparmalı və araşdırmanın nəticəsi barədə müraciət edən şəxsi məlumatlandırmalıdır.

6.5. Müayinə və texniki xidmətin nəticəsinə dair aktlarda olan məlumatlarla Reyestrə daxil edilmiş məlumatlar arasında uyğunsuzluq olduqda, istifadəçilərin müraciəti əsasında və ya sahibin təşəbbüsü ilə 1 (bir) iş günü müddətində düzəliş edilməsi təmin edilir.

6.6. Reyestrə daxil edilmiş məlumatlarla bağlı dəyişikliklər olduqda və ya yeni məlumatlar əldə edildikdə, Reyestrdəki məlumatların yenilənməsi və yeni məlumatların Reyestrə daxil edilməsi 1 (bir) iş günü müddətində həyata keçirilir.

6.7. Sahib Reyestrə daxil edilmək üçün təqdim edilmiş müayinə və texniki xidmətin nəticəsinə dair aktlarda məlumatların tam olmasını təmin etməlidir.

### 7. Sahibin funksiyaları

7.1. Reyestrin fəaliyyətini təmin etmək üçün sahibin aşağıdakı funksiyaları vardır:

7.1.1. Reyestrin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi işlərinin layihələrə, beynəlxalq standartlara və normativ hüquqi aktlarla müəyyən edilmiş tələblərə uyğun formada aparılmasına nəzarət etmək;

7.1.2. Reyestrin formalaşdırılması, istifadəsi və inkişaf etdirilməsi ilə bağlı beynəlxalq təcrübəni və standartları öyrənmək, bu sahədə müvafiq ölkədaxili və beynəlxalq qurumlarla (təşkilatlarla) əməkdaşlıq etmək;

7.1.3. Reyestrə çıxışı olan, habelə onun aparılmasında iştirak edən əməkdaşlarını gücləndirilmiş elektron imza ilə təmin etmək;

7.1.4. normativ hüquqi aktlarla müəyyən edilmiş hüquqlarının həyata keçirilməsi, vəzifələrinin və ya funksiyalarının icrası zamanı əldə etdiyi məlumatları Reyestrə daxil etmək;

7.1.5. Reyestrə daxil edilmiş məlumatların sistemləşdirilmiş şəkildə saxlanılması, onların mühafizəsi ilə bağlı zəruri təşkilati və texniki tədbirlər görülməsinə, məlumatların aktuallığına, etibarlılığına, əlçatanlığına, tamlığına, konfidensiallığına, habelə onların ehtiyat surətlərinin saxlanılmasına və qorunmasına, informasiya təhlükə-sizliyinin təmin olunmasına nəzarət etmək;

7.1.6. tələb edilən sənədlər barədə məlumatlar dövlət informasiya ehtiyatında və sistemində olduqda, həmin məlumatların ilkin mənbədən Qaydalara uyğun əldə edilməsi üçün tədbirlər görmək;

7.1.7. Reyestrin dayanıqlı və fasiləsiz fəaliyyətinin təmin olunmasına nəzarət etmək;

7.1.8. Reyestrdən istifadə və onun funksiyaları ilə bağlı maarifləndirmə və məlumatlandırma işləri aparmaq;

7.1.9. Reyestrdə dəyişikliklər və təkmilləşdirmələr aparmaq;

7.1.10. Reyestrin fəaliyyətinin təmin olunması ilə bağlı zəruri sənədləri (məlumatları) əldə etmək üçün aidiyyəti qurumlara sorğular vermək və həmin qurumlardan belə sənədləri (məlumatları) almaq;

7.1.11. aidiyyəti qurumların Reyestrin fəaliyyəti ilə bağlı sorğularını vaxtında və hərtərəfli cavablandırmaq, habelə qeyd edilən sorğular əsasında zəruri sənədləri (məlumatları) onlara təqdim etmək;

7.1.12. Qaydaların 6-cı hissəsində qeyd edilən digər funksiyaları həyata keçirmək.

### 8. İştirakçının hüquq və vəzifələri

8.1. İştirakçının aşağıdakı hüquqları vardır:

8.1.1. Reyestrin fəaliyyəti ilə bağlı zəruri məlumatları (sənədləri) əldə etmək üçün sahibə sorğular vermək;

8.1.2. Reyestrin təkmilləşdirilməsi istiqamətində sahibə təkliflər vermək.

8.2. İştirakçı aşağıdakı vəzifələri həyata keçirir:

8.2.1. Reyestrə çıxışı olan, habelə onun aparılmasında iştirak edən əməkdaşlarını gücləndirilmiş elektron imza ilə təmin etmək;

8.2.2. aktual, tam və etibarlı məlumatları (sənədləri) vaxtında və dolğun şəkildə Reyestrə daxil etmək (ötürmək) üçün sahibə təqdim etmək, bu məlumatların təhlükəsizliyinin təmin edilməsi üçün tədbirlər görmək;

8.2.3. Reyestrdən və Reyestrdə olan məlumatlardan (sənədlərdən) yalnız xidməti məqsədlər üçün istifadə etmək;

8.2.4. Reyestrdə saxlanılan məlumatlarda (sənədlərdə) aşkarlanmış səhvlərin aradan qaldırılması məqsədilə dərhal sahibə məlumat vermək;

8.2.5. Reyestrin fəaliyyətinə zərər gətirəcək, habelə onun fəaliyyətinin ləngiməsinə və ya dayanmasına səbəb ola biləcək hərəkətlərə yol verməmək;

8.2.6. məlumat mübadiləsi zamanı aşkar olunmuş çatışmazlıqların və yaranan nasazlıqların aradan qaldırılması ilə bağlı tədbirlər görmək, bu barədə sahibə məlumat vermək.

### 9. Reyestrdən istifadə qaydası

9.1. İstifadəçilərin özlərinə aid və ya "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən açıq hesab edilən məlumatları əldə etməsini təmin etmək məqsədilə sahib tərəfindən Reyestrdə müxtəlif meyarlar və parametrlər üzrə axtarış aparılmasına imkan verən modul yaradılır.

9.2. Bu Qaydanın 9.1-ci bəndində nəzərdə tutulan hallarda Reyestrdən məlumatların əldə edilməsi üçün Vahid Giriş Sistemi vasitəsilə identikləşdirilmə tələb olunmur.

9.3. Reyestrdə olan məlumatlardan (sənədlərdən) xidməti məqsədlər üçün istifadə edən istifadəçilərin (istehlakçılar istisna olmaqla) Reyestrdən istifadəsi onların rəhbər şəxsi tərəfindən Reyestrdə qeydiyyatdan keçirilən və bu Qaydaya uyğun hüquqlar verilən məsul şəxslərin Vahid Giriş Sistemi vasitəsilə identikləşdirilməsi yolu ilə təmin edilir.

9.4. Reyestrin məlumatlarından "İnformasiya əldə etmək haqqında", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Dövlət sirri haqqında" və "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikası qanunlarınıntələbləri nəzərə alınmaqla istifadə olunur.

9.5. Reyestrə qeyri-qanuni daxilolma və ya müdaxilə baş verdikdə Reyestrə giriş sahib tərəfindən məhdudlaşdırılır.

9.6. Reyestrdən istifadə və Reyestrdən məlumatların sorğu əsasında alınması ödənişsizdir.

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 217

QƏRAR

Bakı şəhəri, 25 iyun 2023-cü il

## "İxtisaslaşmış podratçılara verilən ixtisas attestatının forması, onun verilməsi, qüvvədəolma müddətinin dayandırılması və ya ləğv edilməsi, eləcə də ixtisaslaşmış podratçıların reyestrinin aparılması və onların fəaliyyətinə nəzarətin həyata keçirilməsi qaydası"nın təsdiq edilməsi haqqında

"Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 25 fevral tarixli 486-VIQD nömrəli Qanununun tətbiqi və "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 28 sentyabr tarixli 773 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 8 aprel tarixli 1658 nömrəli Fərmanının 2.2.4-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. "İxtisaslaşmış podratçılara verilən ixtisas attestatının forması, onun verilməsi, qüvvədəolma müddətinin dayandırılması və ya ləğv edilməsi, eləcə də ixtisaslaşmış podratçıların reyestrinin aparılması və onların fəaliyyətinə nəzarətin həyata keçirilməsi qaydası" təsdiq edilsin (əlavə olunur).

2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan RespublikasınınBaş naziri***

*Ardı 12-ci səh.*

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 25 iyun tarixli 217 nömrəli Qərarı ilə təsdiq edilmişdir.*

# İxtisaslaşmış podratçılara verilən ixtisas attestatının forması, onun verilməsi, qüvvədəolma müddətinin dayandırılması və ya ləğv edilməsi, eləcə də ixtisaslaşmış podratçıların reyestrinin aparılması və onların fəaliyyətinə nəzarətin həyata keçirilməsi QAYDASI

*Əvvəli 11-ci səh.*

## 1. Ümumi müddəalar

1.1. "İxtisaslaşmış podratçılara verilən ixtisas attestatının forması, onun verilməsi, qüvvədəolma müddətinin dayandırılması və ya ləğv edilməsi, eləcə də ixtisaslaşmış podratçıların reyestrinin aparılması və onların fəaliyyətinə nəzarətin həyata keçirilməsi qaydası" (bundan sonra - Qayda) "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra - Qanun) 6-5-ci maddəsinin 3-cü hissəsinə əsasən hazırlanmışdır və ixtisaslaşmış podratçılara verilən ixtisas attestatının forması və verilməsi, qüvvədəolma müddətinin dayandırılması və ləğv edilməsi, eləcə də ixtisaslaşmış podratçıların reyestrinin aparılması və onların fəaliyyətinə nəzarətin həyata keçirilməsi qaydasını müəyyən edir.

1.2. Bu Qaydada istifadə olunan anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.2.1. **attestasiya** - texniki xidmətin həyata keçirilməsi üçün ixtisas attestatının verilməsi məqsədilə namizədin bilik səviyyəsinin yoxlanılması;

1.2.2. **ixtisaslaşmış podratçı** - işçiləri bu Qayda ilə müəyyən edilmiş qaydada ixtisas attestatı alan, texniki xidməti həyata keçirən hüquqi şəxs və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs;

1.2.3. **ixtisas attestatı** - texniki xidmətin həyata keçirilməsi üçün fiziki şəxsin uyğunluğunu təsdiq edən sənəd;

1.2.4. **namizəd** - ixtisaslaşmış podratçılara verilən ixtisas attesta-tını əldə etmək məqsədilə attestasiyadan keçmək üçün müraciət edən fiziki şəxs;

1.2.5. **reyestr** - bu Qaydanın 4.2-ci bəndi ilə müəyyən edilən məlumatları ehtiva edən ixtisaslaşmış podratçıların vahid informasiya ehtiyatı.

1.3. Bu Qaydada istifadə olunan digər anlayışlar Qanunda və digər normativ hüquqi aktlarda nəzərdə tutulmuş mənaları ifadə edir.

1.4. İxtisaslaşmış podratçılara ixtisas attestatının verilməsi, onun qüvvədəolma müddətinin dayandırılması və ləğv edilməsi, eləcə də ixtisaslaşmış podratçıların reyestrinin aparılması və onların fəaliyyətinə nəzarət Azərbaycan Respublikasının Energetika Nazirliyi (bundan sonra - Nazirlik) tərəfindən həyata keçirilir.

1.5. İxtisaslaşmış podratçının işçisi, habelə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan ixtisaslaşmış podratçı Nazirlikdən ixtisas attestatı almaq üçün energetika və texniki sahələrdə, o cümlədən qaz avadanlıqlarının təmiri və istismarı üzrə peşə təhsilinə malik olmalı, habelə müvafiq ixtisas üzrə ən azı 1 (bir) il iş təcrübəsi olmalıdır.

## 2. İxtisaslaşmış podratçılara verilən ixtisas attestatının forması və verilməsi qaydası

2.1. Attestasiya test üsulu ilə ildə iki dəfə Nazirlik tərəfindən ödənişsiz həyata keçirilir.

2.2. Nazirlik attestasiyanın keçirilmə qrafikini təsdiq edir və rəsmi internet səhifəsində yerləşdirir, attestasiyanın keçirilməsi tarixindən ən azı 1 (bir) ay əvvəl sənəd qəbuluna dair elan verir.

2.3. Qanunun 6-5-ci maddəsinin birinci hissəsinə əsasən namizəd ixtisas attestatının verilməsi məqsədilə ərizəni Nazirliyə təqdim edir və ya poçt rabitəsi vasitəsilə göndərir, yaxud rəsmi internet səhifəsində elektron qaydada müraciət edir və ərizəyə aşağıdakı sənədlər əlavə olunur;

2.3.1. namizədin fotoşəkli (30x40 mm ölçüdə 2 ədəd);

2.3.2. namizədin şəxsiyyətini təsdiq edən sənədin surəti;

2.3.3. namizəd hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs olduqda vergi ödəyicisi kimi uçota alınması haqqında şəhadətnamənin surəti;

2.3.4. hüquqi şəxs və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslə namizəd arasında bağlanılmış əmək müqaviləsinə dair Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mərkəzləşdirilmiş elektron informasiya sisteminin "əmək müqaviləsi bildirişi" altsistemindən çıxarış;

2.3.5. müvafiq sahə üzrə peşə təhsili haqqında diplomun (sertifikatın) surəti;

2.3.6. ixtisasartırma kurslarında iştirakını təsdiq edən şəhadətnamə (olduğu halda);

2.3.7. müvafiq ixtisas üzrə iş stajını təsdiq edən əmək kitabçasının surəti.

2.4. Bu Qaydanın 2.3-cü bəndində nəzərdə tutulmuş sənədlərin "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 30.5-ci maddəsinə əsasən Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət qurumlarından əldə edilməsi mümkün olduqda, həmin sənədlər namizəddən tələb olunmur. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi namizədin razılığı ilə sorğu əsasında müvafiq dövlət qurumlarından tələb olunur və ya namizəd tərəfindən təmin edilir.

2.5. Bu Qaydanın 2.3-cü bəndində qeyd olunan sənədlər tam təqdim olunmadıqda və yaxud təqdim olunmuş sənədlərdə uyğunsuzluq aşkar edildikdə, Nazirlik bu barədə sənədlər təqdim edildikdən 3 (üç) gün müddətində yazılı və ya elektron formada namizədi məlumatlandırır. Namizəd attestasiyanın keçirilməsinə ən azı 10 (on) gün qalanadək səhv və ya uyğunsuzluqların aradan qaldırılmasını və çatışmayan sənədlərin təqdim olunmasını təmin etməlidir.

2.6. Sənədlərdə aşkar olunmuş çatışmazlıqlar namizəd tərəfindən bu Qaydanın 2.5-ci bəndində qeyd edilən müddətdə aradan qaldırılmadıqda, namizədin attestasiyaya buraxılmasından imtina olunması barədə qərar qəbul edilir və 3 (üç) iş günü müddətində bu barədə yazılı və ya elektron qaydada namizədə məlumat göndərilir. Bu qərardan inzibati və məhkəmə qaydasında şikayət verilə bilər.

2.7. Təqdim edilmiş sənədlər bu Qaydanın tələblərinə uyğun olduqda, 2 (iki) iş günü müddətində namizəd attestasiya üzrə namizədlərin siyahısına daxil edilir və ona sənədlərin qəbul edilməsi haqqında arayış, şəxsi eyniləşdirmə kodu (şəxsi eyniləşdirmə kodu rəqəmlə ifadə olunur və imtahan zamanı namizədin anonimliyinin qorunmasına xidmət edir) və yaddaş kitabçası verilir. Yaddaş kitabçasında bu Qaydanın 2.8-ci bəndində qeyd edilən hərəkətlər, habelə attestasiyanın keçirildiyi yerə gətirilməsi qadağan olunan əşyaların siyahısı və imtahanın digər qaydaları yaddaş kitabçasına daxil edilir.

2.8. Attestasiyanın keçirilməsi zamanı namizəd aşağıdakı hərəkətlərə yol verməməlidir:

2.8.1. saxta və ya başqasına aid sənəd təqdim etmək, attestasiyaya öz yerinə başqasını göndərmək və ya sərxoş vəziyyətdə gəlmək;

2.8.2. attestasiya zamanı kalkulyator istisna olmaqla mobil telefon və digər rabitə vasitələri, konspekt, məlumat kitabçası və digər yardımçı vasitələrdən istifadə etmək;

2.8.3. attestasiya başlandığı andan icazəsiz yerini dəyişmək, gəzişmək, attestasiyanın gedişinə mane olmaq;

2.8.4. digər namizədin nəticəsinə təsir göstərmək, o cümlədən başqasının cavab vərəqinə baxmaq və ya öz cavab vərəqinə başqasının baxmasına şərait yaratmaq, sualın cavabını soruşmaq və ya bildirmək;

2.8.5. nəzarətçiyə və digər şəxslərə tapşırıqların həllində kömək üçün müraciət etmək;

2.8.6. cavab vərəqini nəzarətçiyə təhvil vermədən attestasiyanın keçirildiyi zalı tərk etmək;

2.8.7. attestasiya keçirilən binaya yandırıcı, partlayıcı, kəsici, deşici, atıcı və digər bu qəbildən olan əşyalarla daxil olmaq, özü ilə tütün məmulatı gətirmək;

2.8.8. səbəbindən asılı olmayaraq, attestasiya başlandığı andan 1 (bir) saat bitənədək və attestasiyanın son 30 (otuz) dəqiqəsi ərzində attestasiya keçirildiyi zaldan çıxmaq.

2.9. Attestasiyanın keçirilməsini təmin etmək məqsədilə Nazirlik attestasiyanın keçirilməsinə məsul şəxsi və nəzarətçiləri təyin edir. Nəzarətçilərin sayı hər auditoriya üzrə 2 (iki) nəfərdən az olmamalıdır.

2.10. Attestasiyanın keçiriləcəyi vaxt və yer barədə məlumat attestasiyanın keçirilməsindən ən azı 10 (on) gün əvvəl Nazirliyin rəsmi internet səhifəsində yerləşdirilir.

2.11. Attestasiya üçün test tapşırıqları bu Qaydanın 1.5-ci bəndində qeyd edilən sahələr üzrə Nazirlik tərəfindən hazırlanır. Test tapşırıqlarının hazırlanması üçün əsas olan Attestasiya Proqramı Nazirlik tərəfindən təsdiq edilir və rəsmi internet informasiya ehtiyatında yerləşdirilir. Test tapşırıqlarının hazırlanmasına bu Qaydanın 1.5-ci bəndində qeyd edilən sahələr üzrə mütəxəssislər cəlb edilə bilərlər.

2.12. Test tapşırıqları konfidensiallıq gözlənilməklə Nazirlik tərəfindən üç mürəkkəblik dərəcəsi üzrə tərtib edilir, tapşırıqlar toplusuna dair düzgün cavabların siyahısını tərtib edir və konfidensiallığın gözlənilməsi şərtilə xüsusi ayrılmış məlumat bazasında saxlanılması təmin edilir. Hazırlanmış tapşırıqlar toplusunda tapşırıqların sayı test zamanı istifadə ediləcək tapşırıqların sayından azı 10 (on) dəfə çox olmalıdır. Tapşırıqlar toplusu hər il 10 (on) faizdən aşağı olmayaraq yenilənir.

2.13. Test tapşırıqları müasir informasiya texnologiyaları və xüsusi optik cihazlar vasitəsilə oxunan və dərəcəsinə görə 15 (on beş) çətin, 15 (on beş) orta, 10 (on) asan olmaqla 40 (qırx) sualdan ibarət olan tapşırıqlar kitabçasında qeyd olunur.

2.14. Test tapşırıqları testin keçirilməsində iştirak edən məsul şəxsə verildikdən sonra o, nəzarətçi ilə birlikdə cavab kartları zərfinin möhürünü açır, şəxsi eyniləşdirmə kodu ilə şifrələnmiş cavab kartlarını test tapşırıqlarına uyğun ayırır, attestasiyada iştirak edən namizədlərə paylayır və həmin kartların doldurulması qaydasını onlara izah edir.

2.15. Test tapşırıqları üzrə cavab kartında düzgün cavabın yerləşdiyi hərfli dairə qara və ya tünd göy rəngdə yazan diyircəkli qələmlə doldurulmalıdır. Korlanmış cavab kartı dəyişdirilmir. Bir suala aid olan bir neçə dairə qaralanarsa, həmin cavab etibarsız sayılır və ümumi nəticəyə hesablanmır. Cavab kartı onu doldurmuş namizəd tərəfindən imzalanır. Cavab kartında hər hansı bir qeydin aparılmasına yol verilmir, əks halda bu cür cavab kartı etibarsız hesab olunur.

2.16. Attestasiyanın müddəti 2 (iki) saatdır və fasilə verilmədən keçirilir.

2.17. Attestasiyanın başlanma vaxtı tapşırıqlar kitabçası paylanıldığı andan hesablanır. Test bir neçə auditoriyada keçirildikdə, hər auditoriyada testin başlanma vaxtı həmin auditoriyada tapşırıqlar kitabçası paylanıldığı andan hesablanır.

2.18. Hər bir tapşırığa düzgün cavab bir balla qiymətləndirilir (cəmi 40 (qırx) mümkün bal). Səhv cavablar və ya sualın cavabsız qoyulması sıfır bala bərabər tutulur.

2.19. Namizəd yaddaş kitabçasında qeyd olunan tələblərə riayət etmədikdə, attestasiyanın keçirilməsinə məsul şəxs və nəzarətçi tərəfindən bu barədə akt tərtib edilir və həmin şəxs attestasiyadan kənarlaşdırılır. Qeyd olunan pozuntular attestasiya başa çatdıqdan sonra aşkar olunduqda, Nazirlik tərəfindən həmin şəxsin nəticələrinin ləğv edilməsi barədə qərar qəbul edilir.

2.20. Attestasiyanın başa çatması barədə protokol tərtib edilir. Protokol nəzarətçilər və imtahan verən iki namizəd tərəfindən imzalanır. Protokol və cavab kartları zərfə qoyulur, möhürlənir və Nazirliyə təqdim edilməsi üçün testin keçirilməsinə məsul şəxsə təhvil verilir.

2.21. Test tapşırıqları üzrə cavab kartları Nazirlikdə müasir informasiya texnologiyalarından istifadə edilməklə yoxlanılır. Qiymətləndirmənin nəticələri üzrə balların hesablanması avtomatlaşdırılmış qaydada həyata keçirilir.

2.22. Test tapşırıqları üzrə 25 (iyirmi beş) və ya daha çox bal toplamış şəxslər attestasiyadan keçmiş hesab olunurlar.

2.23. Attestasiyanın nəticələri toplanılan ballar qeyd edilməklə 5 (beş) iş günü müddətində Nazirliyin rəsmi internet informasiya ehtiyatında yerləşdirilir və testdə iştirak etmiş namizədə onun müraciəti əsasında yazılı və ya elektron qaydada testin nəticəsi barədə arayış göndərilir.

2.24. Attestasiyanın nəticəsindən narazı qalan namizəd nəticənin elan olunduğu vaxtdan 5 (beş) iş günü müddətində inzibati qaydada Nazirliyə və məhkəməyə şikayət vermək hüququna malikdir. Nazirliyə verilən şikayətə aidiyyəti mütəxəssislərlə birlikdə namizədin iştirakı ilə 5 (beş) iş günü müddətində baxılır və ona əsaslandırılmış cavab verilir. Namizədin nəticələrinin düzgün hesablanmadığı aşkar edildikdə, bu Qaydaya uyğun olaraq yenidən hesablanma aparılır və namizədin nəticələri yenilənir.

2.25. Attestasiyanın uğurla keçmiş namizədlərə test nəticələrinin elan olunduğu tarixdən 5 (beş) iş günü müddətində bu Qaydanın əlavəsində qeyd edilən formada ixtisas attestatı verilir.

2.26. İxtisas attestatı qurumun rəhbəri və ya onun həvalə etdiyi vəzifəli şəxs tərəfindən imzalanır, möhürlə təsdiq edilir və reyestrdə qeydiyyata alınır.

2.27. İxtisas attestatında aşağıdakılar qeyd edilir:

2.27.1. ixtisas attestatını verən qurumun adı;

2.27.2. ixtisas attestatı verilən şəxsin soyadı, adı, atasının adı və ünvanı;

2.27.3. ixtisas attestatı verilən şəxsin işlədiyi ixtisaslaşmış podratçı hüquqi şəxs olduqda onun adı və hüquqi ünvanı, VÖEN-i, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs olduqda onun soyadı, adı və atasının adı, VÖEN-i, fəaliyyət ünvanı;

2.27.4. ixtisas attestatının nömrəsi və verilməsi tarixi.

2.28. İxtisas attestatının əsli bir nüsxədən ibarət olaraq ixtisas attestatı almış şəxsə verilir, ixtisas attestatının verilməsini təsdiq edən sənədlər isə Nazirlikdə saxlanılır.

2.29. İxtisas attestatı yararsız hala düşdükdə, məhv olduqda və ya itirildikdə ixtisas attestatı almış şəxsə onun müraciəti əsasında ixtisas attestatının dublikatı verilir. Bu halda ixtisas attestatı almış şəxs tərəfindən ixtisas attestatının dublikatının alınması üçün Nazirliyə elektron və ya yazılı qaydada müraciət edilir. İxtisas attestatının dublikatı müraciət edildiyi gündən 3 (üç) iş günü müddətində ixtisas attestatı almış şəxsə ödənişsiz verilir.

2.30. İxtisas attestatı almış şəxsin, habelə ixtisaslaşmış podratçının işçisi olduqda həmin podratçının attestatda qeyd edilmiş məlumatlarında hər hansı dəyişiklik baş verdiyi halda, ixtisas attestatı almış şəxs tərəfindən ixtisas attestatının dəyişdirilməsi barədə ərizə, qüvvədə olan ixtisas attestatının əsli və müvafiq dəyişiklikləri təsdiq edən sənəd Nazirliyə təqdim edilir və ixtisas attestatı 3 (iş) günü müddətində dəyişdirilir.

2.31. İxtisas attestatı ödənişsiz 10 (on) il müddətinə verilir.

2.32. Bu Qaydanın 3.7.2-ci və 3.7.3-cü yarımbəndlərində nəzərdə tutulan hallarda ixtisas attestatı ləğv edildikdə və bu Qaydanın 2.31-ci bəndində nəzərdə tutulmuş müddət keçmədikdə, ixtisas attestatının ləğv edildiyi gündən 2 (iki) il müddətində ixtisas attestatı almaq üçün yenidən müraciət edən namizədə attestasiya keçirilmədən yeni ixtisas attestatı verilir.

## 3. İxtisas attestatının qüvvədəolma müddətinin dayandırılması və ləğv edilməsi qaydası

3.1. İxtisaslaşmış podratçı və onun ixtisas attestatı almış işçisi öz fəaliyyətini həyata keçirərkən Qanunun, energetika sahəsində yaranan münasibətləri tənzimləyən digər normativ hüquqi aktların və bu Qaydanın tələblərinə riayət etməlidir.

3.2. Nazirlik tərəfindən ixtisas attestatı almış şəxsin fəaliyyətinə Qanunun 6-4-cü maddəsinə uyğun olaraq nəzarət həyata keçirilərkən pozuntular aşkar edildikdə Nazirlik ixtisas attestatının qüvvədəolma müddətinin dayandırılması barədə qərar qəbul edir.

3.3. Nazirlik ixtisas attestatının qüvvədəolma müddətinin dayandırılması barədə qərarı pozuntular aşkar edildikdən 3 (üç) gün müddətində qəbul edir.

3.4. Bu Qaydanın 3.2-ci bəndində nəzərdə tutulmuş hal olduqda, ixtisas attestatının qüvvədəolma müddəti 30 (otuz) gün müddətinə dayandırılır.

3.5. Bu Qaydanın 3.2-ci bəndində qeyd edilən nəzarət nəticəsində aşkar olunan çatışmazlıqlar barədə 2 (iki) iş günü müddətində ixtisaslaşmış podratçıya bildiriş göndərilir. Pozuntular aşkar edildiyinə görə ixtisas attestatının qüvvədəolma müddəti dayandırılmış ixtisas attestatı almış şəxs bu Qaydanın 3.4-cü bəndi ilə müəyyən edilmiş müddətdə Nazirliyə yol verilmiş pozuntuların səbəbləri, habelə bu pozuntuların aradan qaldırılması məqsədilə həyata keçirilən tədbirlər barədə elektron və ya yazılı qaydada məlumat təqdim etməlidir. Nazirlik təqdim edilmiş məlumatlara 2 (iki) gün müddətində baxır, həmin məlumatlara əsasən pozuntuların aradan qaldırıldığını müəyyən etdikdə, ixtisas attestatının qüvvədəolma müddətinin 1 (bir) iş günü müddətində bərpa edilməsi barədə qərar qəbul edir.

3.6. Bu Qaydanın 3.5-ci bəndində nəzərdə tutulmuş məlumat bu Qaydanın 3.4-cü bəndi ilə müəyyən edilmiş müddətdə təqdim edilmədikdə, Nazirlik həmin müddətin bitdiyi gündən 1 (bir) iş günü müddətində ixtisas attestatının ləğv edilməsi barədə qərar qəbul edir.

3.7. İxtisas attestatının ləğv edilməsi barədə qərar aşağıdakı hallarda qəbul edilir:

3.7.1. ixtisas attestatının ləğv edilməsi barədə ixtisas attestatı almış şəxs tərəfindən elektron və ya yazılı qaydada ərizə təqdim edildikdə;

3.7.2. ixtisas attestatı verilən şəxsin işlədiyi hüquqi şəxs ləğv edildikdə və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxs sahibkarlıq fəaliyyətini dayandırdıqda;

3.7.3. ixtisas attestatı verilən şəxslə bağlanılmış əmək müqaviləsinə xitam verildikdə;

3.7.4. ixtisas attestatı almış şəxsin əmək qabiliyyətini tam itirdikdə və ya şəxs vəfat etdikdə;

3.7.5. bu Qaydanın 3.2-ci bəndində qeyd edilən hal təqvim ili ərzində ən azı 3 (üç) dəfə təkrar edildikdə;

3.7.6. bu Qaydanın 3.6-cı bəndində nəzərdə tutulmuş hallarda;

3.7.7. bu Qaydanın 2.3-cü bəndində nəzərdə tutulmuş sənədlərdə uyğunsuzluq aşkar edildikdə;

3.7.8. ixtisas attestatı almış şəxsin fəaliyyət qabiliyyətinin məhdudlaşdırılması, fəaliyyət qabiliyyətinin olmaması, ölmüş elan edilməsi və ya itkin düşməsi barədə məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olduqda;

3.7.9. ixtisaslaşmış podratçı fəaliyyəti ilə bağlı müəyyən fəaliyyətlə məşğulolma hüququndan məhrumetmə cəzasına məhkum olunduqda.

3.8. Nazirlik bu Qaydanın 3.7.2-3.7.4-cü, 3.7.8-ci və 3.7.9-cu yarımbəndlərində qeyd edilən məlumatları "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 30.5-ci maddəsinə əsasən Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət qurumlarından əldə edir.

3.9. İxtisas attestatının ləğv edilməsi ilə ixtisas attestatı verilən şəxs reyestrdən çıxarılır.

3.10. İxtisas attestatının qüvvədəolma müddətinin dayandırılması, bərpa olunması və ya onun ləğv edilməsi haqqında qərar qəbul edildiyi tarixdən 1 (bir) iş günü müddətində ərizəçiyə elektron və ya yazılı qaydada təqdim edilir və məlumatlar reyestrə daxil edilir.

## 4. İxtisaslaşmış podratçıların reyestrinin aparılması və onların fəaliyyətinə nəzarətin həyata keçirilməsi qaydası

4.1. Reyestr Nazirlik tərəfindən elektron qaydada aparılır və mütəmadi olaraq yenilənir.

4.2. Reyestrə aşağıdakı məlumatlar daxil edilir:

4.2.1. ixtisaslaşmış podratçı fiziki şəxs olduqda soyadı, adı, atasının adı, ünvanı, VÖEN-i və ixtisas attestatı almış əməkdaşları barədə məlumatlar;

4.2.2. ixtisaslaşmış podratçı hüquqi şəxs olduqda hüquqi şəxsin adı, təşkilati-hüquqi forması, hüquqi ünvanı, VÖEN-i və ixtisas attestatı almış əməkdaşları barədə məlumatlar (soyadı, adı, ixtisas attestatının nömrəsi və tarixi);

4.2.3. ixtisas attestatının nömrəsi, verilməsi və qüvvədəolma tarixi;

4.2.4. ixtisas attestatının qüvvədəolma müddətinin dayandırılması, bərpa edilməsi və ya onun ləğv edilməsi barədə məlumat;

4.2.5. ixtisaslaşmış podratçının və ixtisas attestatı almış işçisinin əlaqə vasitələri (telefon və elektron poçt ünvanı);

4.2.6. həyata keçirilən texniki xidmətlər barədə məlumat;

4.2.7. ixtisas attestatı almış şəxsin fəaliyyətində aşkar edilmiş nöqsanlar barədə məlumat.

4.3. Qanunun 6-5-ci maddəsinin dördüncü hissəsinə əsasən Nazirlik bu Qaydanın 4.2.1-4.2.4-cü yarımbəndlərində qeyd edilən məlumatları rəsmi internet səhifəsində, habelə müayinə və texniki xidmət məlumatları üzrə reyestrdə yerləşdirir və müntəzəm olaraq yenilənməsini təmin edir.

4.4. İxtisaslaşmış podratçı keçirdiyi texniki xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması ilə bağlı Nazirliyin göstərişlərinə riayət etməlidir. İxtisaslaşmış podratçıların fəaliyyətinə Qanunun 6-4-cü maddəsinə uyğun olaraq Nazirlik tərəfindən monitorinq keçirilməsi yolu ilə mütəmadi nəzarət edir və həmin tələblərə riayət olunmadığını müəyyən etdikdə icrası məcburi olan göstərişlər verir.

## 5. Yekun müddəa

İxtisas attestatının verilməsindən, qüvvədəolma müddətinin dayandırılması və ləğv edilməsi, eləcə də ixtisaslaşmış podratçıların reyestrinin aparılması və onların fəaliyyətinə nəzarətin həyata keçirilməsi ilə bağlı qəbul edilmiş qərarlardan inzibati qaydada və məhkəməyə şikayət verilə bilər.

***"İxtisaslaşmış podratçılara verilən ixtisas attestatının formasını, onun verilməsi, qüvvədəolma müddətinin dayandırılması və ya ləğv edilməsi, eləcə də ixtisaslaşmış podratçıların reyestrinin aparılması və onların fəaliyyətinə nəzarətin həyata keçirilməsi qaydası"na əlavə***

# İXTİSAS ATTESTATI

№ __________

"_____"____________20____il

____________________________________________________________(ixtisas attestatını verən qurumun adı)

**İxtisas attestatı verilmişdir**______________________________________________________

____________________________________(fiziki şəxsin soyadı, adı, atasının adı)

İxtisaslaşmış podratçı hüquqi şəxs olduqda adı və hüquqi ünvanı, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs olduqda soyadı, adı, atasının adı, fəaliyyət ünvanı __________________________

**İxtisas attestatının qüvvədəolma müddəti**_______________________

**İxtisas attestatını təsdiq edən şəxs**______________________________

____________________________________________________________(soyadı, adı)

**Vəzifəsi**_____________________________________________________

**İmza** ________________

**M.Y.**

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 218

QƏRAR

Bakı şəhəri, 25 iyun 2023-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 12 may tarixli 80 nömrəli Qərarı ilə təsdiq edilmiş "Qazdan istifadə Qaydaları"nda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 12 may tarixli 80 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 5, maddə 452; 2012, № 2, maddə 184; 2013, № 6, maddə 744; 2014, № 1, maddə 69; 2016, № 4, maddə 834; 2017, № 6, maddə 1228, № 10, maddə 1876; 2018, № 6, maddə 1379, № 8, maddə 1817, № 11, maddə 2461; 2022, № 2, maddələr 168, 188, № 4, maddə 373, № 8, maddə 966) ilə təsdiq edilmiş "Qazdan istifadə Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 1.2-ci bənd üzrə:

1.1. ikinci abzasda "hüquqi şəxs" sözləri "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Azəriqaz" İstehsalat Birliyi və Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikasının Qaz İstismar Xidməti" sözləri ilə əvəz edilsin;

1.2. dördüncü abzasdan "istilik enerjisinin alınması və məişət ehtiyacları üçün" sözləri çıxarılsın;

1.3. beşinci abzasdan "əhalinin" sözü və "qazın yanacaq kimi istehlakı prosesində" sözləri çıxarılsın;

1.4. altıncı abzasda ", istilik enerjisinin alınması və məişət ehtiyacları üçün qazın yanacaq və müxtəlif növ məhsulların istehsalı ilə əlaqədar xammal kimi istehlakı prosesində" sözləri "və ya qeyri-məişət ehtiyacları üçün" sözləri ilə əvəz edilsin;

1.5. on ikinci abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda on üçüncü-on yeddinci abzaslar əlavə edilsin:

"müayinə - istehlakçının qaz qurğularının və qaz xətlərinin, tüstü bacalarının, habelə havalandırma və havadəyişmə xətlərinin işçi vəziyyətdə olmasının və texniki təhlükəsizlik tələblərinə riayət olunması vəziyyətinin müəyyən edilməsi, o cümlədən nöqsan və (və ya) pozuntuların aşkar edilməsi məqsədilə həyata keçirilən fəaliyyət;

texniki xidmət - istehlakçının qaz qurğularının və balans mənsubiyyəti sərhədində yerləşən qaz xətlərinin (bundan sonra - qaz qurğularının və qaz xətlərinin), tüstü bacalarının, habelə havalandırma və havadəyişmə xətlərinin təhlükəsiz və etibarlı istismarının təmin olunması məqsədilə müayinə aktı üzrə aşkar edilmiş nöqsan və (və ya) pozuntuların aradan qaldırılması məqsədilə həyata keçirilən təmir və digər əlaqədar xidmət işləri;

tüstü bacası - yanma məhsullarının (tüstü qazlarının) qaz qurğularından sorularaq atmosferə atılmasını təmin edən boru;

məişət abonenti - yaşayış evlərində və mənzillərdə, o cümlədən Azərbaycan Respublikası Mənzil Məcəlləsinin 91-ci maddəsində nəzərdə tutulan xüsusi təyinatlı yaşayış sahələrində məişət ehtiyacları üçün qazdan istifadə edən fiziki şəxs;

ixtisaslaşmış podratçı - işçiləri "Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada ixtisas attestatı alan, texniki xidməti həyata keçirən hüquqi şəxs və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs.";

1.6. aşağıdakı məzmunda 1.7-ci bənd əlavə edilsin:

"1.7. Tikinti obyektlərinin qazpaylayıcı şəbəkəyə qoşulması və ya əlavə qaz həcmi alması qaydası Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.".

2. 2-ci hissə üzrə:

2.1. adından "qazpaylayıcı şəbəkəyə qoşulması, istismara qəbulu və" sözləri çıxarılsın;

2.2. 2.1-2.5-ci bəndlər ləğv edilsin;

2.3. 2.7-ci və 2.8-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

"2.7. Qaz paylayıcısı tərəfindən "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun 6-2-ci maddəsinə uyğun olaraq ildə 1 (bir) dəfə (hər il noyabrın 1-dək) müayinə həyata keçirilir. Müayinə zamanı aşkar edilmiş nöqsan və (və ya) pozuntuların aradan qaldırılması məqsədilə "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun 6-3-cü maddəsinə uyğun olaraq texniki xidmət həyata keçirilir.

2.8. Qaz paylayıcısının işçiləri tərəfindən istehlakçıya 5 (beş) iş günü əvvəl sifarişli poçt göndərişi və ya istehlakçının əvvəlcədən razılığı ilə elektron poçt və ya digər elektron kommunikasiya vasitələri ilə bildiriş təqdim edildikdə (göndərildikdə), istehlakçı qaz paylayıcısının işçilərinin xidməti vəsiqələrini təqdim etdikləri təqdirdə müayinə keçirilməsi üçün onun mülkiyyətində və ya istifadəsində olan tikinti obyektinə daxil olmasına maneə törətməməli və müayinənin keçirilməsinə şərait yaratmalıdırlar.";

2.4. 2.10-cu bənddə "sənaye qaz qurğularına" sözləri "qaz qurğularının müayinəsi və ona nəzarət" sözləri ilə, "texniki baxış" sözləri "həyata" sözü ilə əvəz edilsin;

2.5. 2.11-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.11. Qaz paylayıcısının işçiləri müayinənin nəticəsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin təsdiq etdiyi formada 2 (iki) nüsxədə müayinə aktını istehlakçının (və ya onun səlahiyyətli nümayəndəsinin, yaxud yetkinlik yaşına çatmış ailə üzvlərindən birinin) iştirakı ilə tərtib etməli və aktın 1 (bir) nüsxəsini istehlakçıya (və ya onun səlahiyyətli nümayəndəsinə, yaxud eyni ünvanda yaşayan yetkinlik yaşına çatmış ailə üzvlərindən birinə) təqdim etməlidir. İstehlakçı tərəfindən qaz qurğuları, qaz xətləri və tüstü bacalarında, habelə havalandırma və havadəyişmə xətlərində nöqsan və (və ya) pozuntular aşkar edildikdə istehlakçının müraciəti əsasında təkrar müayinə qaz paylayıcısı tərəfindən 3 (üç) iş günündən gec olmayaraq aparılmalıdır. İstehlakçı təkrar müayinə üçün il ərzində 1 (bir) dəfədən çox müraciət edərsə növbəti müayinə ödənişli keçirilir. Ödənişin məbləği qaz paylayıcısı ilə istehlakçı arasında bağlanmış müqavilə ilə müəyyən edilir. Müayinə nəticəsində texniki xidmətin göstərilməsi zərurəti yarandıqda, "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun 6-3-cü maddəsi ilə müəyyən edilmiş tədbirlər görülməlidir.";

2.6. 2.11-2-ci bənddə "sayğacdan kənar paylayıcı şəbəkəyə qanunsuz qoşulma (qaz paylayıcısının razılığı olmadan paylayıcı şəbəkəyə qoşulma)" sözləri "qaz paylayıcısının razılığı olmadan qazpaylayıcı şəbəkəyə sayğacdan kənar qoşulma (bundan sonra - qanunsuz qoşulma)" sözləri ilə əvəz edilsin.

3. 3-cü hissə üzrə:

3.1. 3.1.7-ci yarımbənddə "qaldırmalıdır" sözü "qaldırmalı" sözü ilə əvəz olunsun, həmin yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 3.1.8-3.1.11-ci yarımbəndlər əlavə edilsin:

"3.1.8. "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun 6-2-ci maddəsinə uyğun olaraq müayinəni həyata keçirməli;

3.1.9. qazpaylayıcı şəbəkəyə texniki xidməti həyata keçirməli;

3.1.10. bu Qaydaların 2.11-1-ci və 2.11-2-ci bəndlərinin tələbləri nəzərə alınmaqla istehlakçıların qaz sayğaclarının işlək və toxunulmaz vəziyyətdə olmasını müəyyən etmək məqsədilə yaşayış sahələrinin daxilində quraşdırılmış qaz sayğaclarına 6 (altı) ayda 1 (bir) dəfə, digər qaz sayğaclarına isə 3 (üç) ayda 1 (bir) dəfə onlara baxış keçirməli, nəticəsini aktla rəsmiləşdirməli və aktın 1 (bir) nüsxəsini istehlakçıya təqdim etməlidir;

3.1.11. qazpaylayıcı şəbəkəyə qanunsuz qoşulma hallarının qarşısının alınması məqsədilə qaz paylayıcısı tərəfindən müəyyən edilən, lakin bu Qaydaların 3.1.10-cu yarımbəndində nəzərdə tutulan qaydada və müddətlərdə şəbəkəyə baxış keçirməli və nəticəsini aktla rəsmiləşdirməlidir.";

3.2. 3.2.3-cü, 3.2.11-ci və 3.4.6-cı yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

"3.2.3. qaz paylayıcısının işçiləri tərəfindən tərtib edilmiş müayinə aktında qeyd olunmuş nöqsan və (və ya) pozuntuların aradan qaldırılması üçün "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun 6-2-ci və 6-3-cü maddələrinin tələblərini yerinə yetirməli;

3.2.11. qaz paylayıcısının işçilərinin müayinə keçirilməsi üçün onun mülkiyyətində və ya istifadəsində olan tikinti obyektinə maneəsiz daxil olmasına və ya müayinənin keçirilməsinə şərait yaratmalı;

3.4.6. "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun 6-3-cü maddəsinə uyğun olaraq tüstü bacalarına, habelə havalandırma və havadəyişmə xətlərinə həyata keçirilməli olan texniki xidmətin keçirilməsini təmin etmədən qazdan istifadə etmək;";

3.3. 3.5-ci bənddə "Yaşayış binasında mənzillərin hissəsi olmayan və binada birdən artıq mənzilə xidmət etmək üçün nəzərdə tutulmuş obyektlərə (çoxmənzilli binanın ümumi əmlakı) münasibətdə mənzil mülkiyyətçiləri (bina mənzil mülkiyyətçiləri tərəfindən bilavasitə idarə edildikdə), mənzil mülkiyyətçiləri müştərək cəmiyyəti və ya ixtisaslaşmış istehlak kooperativi, idarəedici təşkilat" sözləri "Yaşayış binalarının mənzil mülkiyyətçiləri (bina mənzil mülkiyyətçiləri tərəfindən bilavasitə idarə edildikdə), mənzil mülkiyyətçiləri müştərək cəmiyyəti, ixtisaslaşmış istehlak kooperativi, binanı idarə edən hüquqi şəxs və fərdi sahibkar (idarəedici təşkilat), habelə digər qazlaşdırılmış tikinti obyektlərinin (yaşayış evləri istisna olmaqla) mülkiyyətçiləri (istifadəçiləri)" sözləri ilə əvəz edilsin;

3.4. 3.5.3-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

"3.5.3. binanın tüstü bacalarına, habelə havalandırma və havadəyişmə xətlərinə ildə 1 (bir) dəfə (hər il iyulun 1-dək) texniki xidmətin həyata keçirilməsini təmin etməli və ixtisaslaşmış podratçı və ya məişət abonenti olmayan istehlakçının müvafiq ixtisaslı işçi heyəti tərəfindən "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun 6-3-cü maddəsinin 6-cı hissəsinə uyğun olaraq texniki xidmətin nəticəsi barədə akt tərtib edilməli və həmin aktın 1 (bir) nüsxəsini müayinə və texniki xidmət məlumatları üzrə reyestrə daxil edilməsi üçün qaz paylayıcısına təqdim etməli;";

3.5. 3.5.4-cü yarımbənd ləğv edilsin.

4. 4.2-ci bənddə "Məişət qaz qurğularının istifadəsi üçün qaz sayğacı qaz paylayıcısının vəsaiti hesabına, sənaye qaz qurğularının istifadəsi" sözləri "Məişət qaz qurğularını istifadə edən məişət abonentləri üçün qaz sayğacı qaz paylayıcısının vəsaiti hesabına, digər istehlakçılar" sözləri ilə əvəz edilsin.

5. 5.2-ci bəndin birinci abzası aşağıdakı redaksiyada verilsin:

"Bu Qaydaların 5.4-cü, 6.5-ci, 6.5-2-ci və 6.5-3-cü bəndlərində nəzərdə tutulmuş hallar istisna olmaqla, qaz paylayıcısı istehlakçıya verdiyi qazın dəyərini qaz sayğacının göstəricilərinə əsasən hər ay üzrə hesablamalı və növbəti ayın 10-dək istehlakçıya bu barədə məlumat (hesab) təqdim etməlidir (göndərməlidir). "Smart-kart" tipli qaz sayğacı olan istehlakçıya istifadə etdiyi qazın dəyəri haqqında hesabın qaz paylayıcısı tərəfindən təqdim edilməsi (göndərilməsi) tələb olunmur. İstehlakçının istehlak etdiyi qazın dəyəri tam ödənildikdən sonra qaz paylayıcısı tərəfindən yol verilmiş səhvə görə düzgün hesablanmamış qazın dəyərinin istehlakçı tərəfindən ödənilməsi tələb edilə bilməz.".

6. 6-cı hissə üzrə:

6.1. 6.1-ci bənddə "dayandıra bilər" sözləri "dayandırır" sözü ilə əvəz edilsin;

6.2. 6.1.5-1-ci, 6.1.5-2-ci yarımbəndlər və 6.5-ci bənd aşağıdakı redaksiyada verilsin:

"6.1.5-1. istehlakçı qaz paylayıcısının işçilərini müayinə keçirilməsi üçün onun mülkiyyətində və ya istifadəsində olan tikinti obyektinə daxil olmasına maneə törətdikdə və ya müayinənin keçirilməsinə şərait yaratmadıqda;

6.1.5-2. istehlakçı qaz paylayıcısının işçiləri tərəfindən tərtib edilmiş müayinə aktında qeyd olunmuş nöqsan və (və ya) pozuntuların aradan qaldırılması üçün "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun 6-2-ci və 6-3-cü maddələrinin tələblərini yerinə yetirmədikdə;

6.5. Qanunsuz qoşulma halları aşkar edildikdə, qaz paylayıcısı qanunsuz xətti dərhal qazpaylayıcı şəbəkədən ayırmaqla qazın verilməsini dayandırmalıdır. Sayğaca müdaxilə, habelə qanunsuz qoşulma halları aşkar edildikdə qaz paylayıcısı bu barədə akt tərtib etməli və həmin aktın 1 (bir) nüsxəsini barəsində akt tərtib edilmiş şəxsə (və ya onun səlahiyyətli nümayəndəsinə, yaxud yetkinlik yaşına çatmış ailə üzvlərindən birinə), 1 (bir) nüsxəsini isə inzibati xəta haqqında iş üzrə icraata başlanılması məsələsinə baxılması üçün EN-ə, cinayət tərkibinin əlamətləri olduqda isə cinayət təqibi orqanına təqdim etməlidir. İstehlakçının qazın talanmasında təqsirli olması həmin orqanların və ya məhkəmənin qərarı ilə müəyyən edildikdə qaz paylayıcısı vurulmuş zərərin ödənilməsini istehlakçıdan tələb etməlidir.";

6.3. aşağıdakı məzmunda 6.5-1-6.5-4-cü bəndlər əlavə edilsin:

"6.5-1. İstehlakçı tərəfindən qazın talanması məqsədilə sayğaca müdaxilə, habelə qanunsuz qoşulma nəticəsində qaz paylayıcısına vurulmuş zərərin hesablanması zamanı aşağıdakı şərtlər nəzərə alınır:

6.5-1.1. sayğaca müdaxilə, habelə qanunsuz qoşulma nəticəsində qazdan istifadə edildiyi müddət və həmin müddətin əhatə olunduğu ilin mövsümü;

6.5-1.2. əvvəlki dövrün orta gündəlik qaz sərfi;

6.5-1.3. istehlakçının istifadə etdiyi qaz qurğusunun xüsusiyyətləri (növü, maksimal saatlıq qaz sərfi) və qaz sayğacının markası.

6.5-2. İstehlakçı tərəfindən qazın talanması məqsədilə qaz sayğacına müdaxilə edildikdə (plomb qoparıldıqda, baxış şüşəsi sındırıldıqda, gövdəsi zədələndikdə və sayğaca vizual baxış nəticəsində qüsurun müəyyən edilməsi mümkün olan digər hallarda), qaz paylayıcısı tərəfindən pozuntu aradan qaldırılmalı və bu Qaydaların 3.1.10-cu yarımbəndinə uyğun olaraq qaz sayğacına keçirilmiş sonuncu baxış tarixindən sayğaca müdaxilə halları aşkar edildiyi tarixədək, lakin 3 (üç) aydan çox olmayan müddətdə istifadə edilmiş qazın dəyəri hər bir hal üzrə bu Qaydaların 6.5-1-ci bəndi ilə müəyyən edilmiş şərtlərin, habelə məişət abonentlərinə münasibətdə sutkanın on iki saatı, digər istehlakçılara münasibətdə isə onların işləmə saatı nəzərə alınmaqla hesablanır.

6.5-3. İstehlakçı tərəfindən qanunsuz qoşulma hallarında qaz paylayıcısı tərəfindən pozuntu aradan qaldırılmalı və qazpaylayıcı şəbəkəyə keçirilmiş sonuncu baxış tarixindən qanunsuz qoşulma halları aşkar edildiyi tarixədək, lakin on iki aydan çox olmayan müddətdə istifadə edilmiş qazın dəyəri hər bir hal üzrə bu Qaydaların 6.5-1-ci bəndi ilə müəyyən edilmiş şərtlərin, habelə məişət abonentlərinə münasibətdə sutkanın on iki saatı, digər istehlakçılara münasibətdə isə onların işləmə saatı nəzərə alınmaqla hesablanır.

6.5-4. Qaz paylayıcısının işçisi bu Qaydaların 6.5-ci bəndinə uyğun olaraq tərtib etdiyi akta vurulmuş zərərin bu Qaydaların 6.5-2-ci və 6.5-3-cü bəndlərinə uyğun olaraq hesablanmış məbləği barədə ilkin məlumatı əlavə edir. Akt qaz paylayıcısının işçisi və istehlakçı (və ya onun səlahiyyətli nümayəndəsi, yaxud yetkinlik yaşına çatmış ailə üzvlərindən biri) tərəfindən imzalanmalıdır. İstehlakçı (və ya onun səlahiyyətli nümayəndəsi, yaxud yetkinlik yaşına çatmış ailə üzvlərindən biri) aktı imzalamaqdan imtina etdikdə, bu barədə aktda müvafiq qeyd aparılır və yol verilmiş pozuntu texniki vasitələrlə (foto və ya videoçəkiliş aparılmaqla) qeydə alınır. İstehlakçı (və ya onun səlahiyyətli nümayəndəsi, yaxud yetkinlik yaşına çatmış ailə üzvlərindən biri) izahat və aktın məzmunu barəsində öz mülahizələrini təqdim etmək, habelə aktı imzalamaqdan imtina etməsinin səbəblərini göstərmək hüququna malikdir, bu izahatlar və mülahizələr akta əlavə olunur.";

6.4. 6.6-cı bənddə "müvafiq qaydada" sözləri "qaz paylayıcısı tərəfindən istehlakçının iştirakı ilə aktla" sözləri ilə, "iş günü" sözləri "gün" sözü ilə və "bərpa edilməlidir" sözləri "bərpa edilməli və aktın 1 (bir) nüsxəsi istehlakçıya təqdim edilməlidir" sözləri ilə əvəz edilsin.

7. Qaydalara 2 nömrəli əlavə - "Qaz paylayıcısı ilə məişət qaz qurğusu istifadəçisi arasında qazın alqı-satqısı Müqaviləsi" üzrə:

7.1. 2.1.2-ci yarımbənddə "texniki baxış" sözləri "müayinə" sözü ilə əvəz edilsin;

7.2. 2.1.7-ci, 2.2.6.5-1-ci, 2.2.6.5-2-ci, 2.4.4-cü yarımbəndlər və 3.3-cü bənd aşağıdakı redaksiyada verilsin:

"2.1.7. "Qazdan istifadə Qaydaları"nın 5.4-cü, 6.5-ci, 6.5-2-ci və 6.5-3-cü bəndlərində nəzərdə tutulmuş hallar istisna olmaqla, istehlakçıya verdiyi qazın dəyərini sayğacın göstəricilərinə əsasən hər ay üzrə hesablamaq, növbəti ayın 10-dək istehlakçıya bu barədə məlumat (hesab) təqdim etmək (göndərmək);

2.2.6.5-1. istehlakçı qaz paylayıcısının işçilərini müayinə keçirilməsi üçün onun mülkiyyətində və ya istifadəsində olan tikinti obyektinə daxil olmasına maneə törətdikdə və ya müayinənin keçirilməsinə şərait yaratmadıqda;

2.2.6.5-2. istehlakçı qaz paylayıcısının işçiləri tərəfindən tərtib edilmiş müayinə aktında qeyd olunmuş nöqsan və (və ya) pozuntuların aradan qaldırılması üçün "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun 6-2-ci və 6-3-cü maddələrinin tələblərini yerinə yetirmədikdə;

2.4.4. müayinə və texniki xidmət keçirilməsi məqsədilə mülkiyyətində və ya istifadəsində olan tikinti obyektinə daxil olmaq üçün qaz paylayıcısı işçilərindən xidməti vəsiqələrini tələb etmək;

3.3. "Qazdan istifadə Qaydaları"nın 5.4-cü, 6.5-ci, 6.5-2-ci və 6.5-3-cü bəndlərində nəzərdə tutulmuş hallar istisna olmaqla, qaz paylayıcısı istehlakçıya verdiyi qazın dəyərini qaz sayğacının göstəricilərinə əsasən hər ay üzrə hesablamalı və növbəti ayın 10-dək istehlakçıya bu barədə məlumat (hesab) təqdim etməlidir (göndərməlidir). "Smart-kart" tipli qaz sayğacı olan istehlakçıya istifadə etdiyi qazın dəyəri haqqında hesabın qaz paylayıcısı tərəfindən təqdim edilməsi (göndərilməsi) tələb olunmur. İstehlakçının istehlak etdiyi qazın dəyəri tam ödənildikdən sonra qaz paylayıcısı tərəfindən yol verilmiş səhvə görə düzgün hesablanmamış qazın dəyərinin istehlakçı tərəfindən ödənilməsi tələb edilə bilməz.".

8. Qaydalara 3 nömrəli əlavə - "Qaz paylayıcısı ilə sənaye qaz qurğusu istifadəçisi arasında qazın alqı-satqısı Müqaviləsi" üzrə:

8.1. 2.1.3-cü yarımbənddə "texniki baxış" sözləri "müayinə" sözü ilə əvəz edilsin;

8.2. 2.1.9-cu yarımbənd aşağıdakı redaksiyada verilsin:

"2.1.9. "Qazdan istifadə Qaydaları"nın 5.4-cü, 6.5-ci, 6.5-2-ci və 6.5-3-cü bəndlərində nəzərdə tutulmuş hallar istisna olmaqla, istehlakçıya verdiyi qazın dəyərini sayğacın göstəricilərinə əsasən hər ay üzrə hesablamaq və növbəti ayın 10-dək istehlakçıya bu barədə məlumat (hesab) təqdim etmək (göndərmək);";

8.3. 2.2.7.5-1-ci, 2.2.7.5-2-ci, 2.4.5-ci yarımbəndlər və 3.3-cü bənd aşağıdakı redaksiyada verilsin:

"2.2.7.5-1. istehlakçı qaz paylayıcısının işçilərini müayinə keçirilməsi üçün onun mülkiyyətində və ya istifadəsində olan tikinti obyektinə daxil olmasına maneə törətdikdə və ya müayinənin keçirilməsinə şərait yaratmadıqda;

2.2.7.5-2. istehlakçı qaz paylayıcısının işçiləri tərəfindən tərtib edilmiş müayinə aktında qeyd olunmuş nöqsan və (və ya) pozuntuların aradan qaldırılması üçün "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun 6-2-ci və 6-3-cü maddələrinin tələblərini yerinə yetirmədikdə;

2.4.5. müayinə və texniki xidmət keçirilməsi məqsədilə mülkiyyətində və ya istifadəsində olan tikinti obyektinə daxil olmaq üçün qaz paylayıcısı işçilərindən xidməti vəsiqələrini tələb etmək;

3.3. "Qazdan istifadə Qaydaları"nın 5.4-cü, 6.5-ci, 6.5-2-ci və 6.5-3-cü bəndlərində nəzərdə tutulmuş hallar istisna olmaqla, qaz paylayıcısı istehlakçıya verdiyi qazın dəyərini qaz sayğacının göstəricilərinə əsasən hər ay üzrə hesablamalı və növbəti ayın 10-dək istehlakçıya bu barədə məlumat (hesab) təqdim etməlidir (göndərməlidir). "Smart-kart" tipli qaz sayğacı olan istehlakçıya istifadə etdiyi qazın dəyəri haqqında hesabın qaz paylayıcısı tərəfindən təqdim edilməsi (göndərilməsi) tələb olunmur. İstehlakçının istehlak etdiyi qazın dəyəri tam ödənildikdən sonra qaz paylayıcısı tərəfindən yol verilmiş səhvə görə düzgün hesablanmamış qazın dəyərinin istehlakçı tərəfindən ödənilməsi tələb edilə bilməz.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 219

QƏRAR

Bakı şəhəri, 25 iyun 2023-cü il

## "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin xarici dövlətlərdə və beynəlxalq təşkilatlarda nümayəndələrinin saxlanma xərclərinin (o cümlədən təmsilçilik xərclərinin) norma və ödəniş qaydaları"nın təsdiq edilməsi haqqında

"Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin xarici dövlətlərdə və beynəlxalq təşkilatlarda nümayəndələrinin təyin edilməsi və onların fəaliyyətinin təmin olunması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 dekabr tarixli 1936 nömrəli Fərmanının 3.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

"Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin xarici dövlətlərdə və beynəlxalq təşkilatlarda nümayəndələrinin saxlanma xərclərinin (o cümlədən təmsilçilik xərclərinin) norma və ödəniş qaydaları" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Ardı 14-cü səh.*

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 25 iyun tarixli 219 nömrəli Qərarı ilə təsdiq edilmişdir.*

# Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin xarici dövlətlərdə və beynəlxalq təşkilatlarda nümayəndələrinin saxlanma xərclərinin (o cümlədən təmsilçilik xərclərinin) norma və ödəniş QAYDASI

*Əvvəli 13-cü səh.*

### 1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin xarici dövlətlərdə və beynəlxalq təşkilatlarda nümayəndələrinin saxlanma xərclərinin (o cümlədən təmsilçilik xərclərinin) norma və ödəniş qaydaları (bundan sonra - Qaydalar)"Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin xarici dövlətlərdə və beynəlxalq təşkilatlarda nümayəndələrinin təyin edilməsi və onların fəaliyyətinin təmin olunması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 dekabr tarixli 1936 nömrəli Fərmanının 3.2-ci bəndinin icrasını təmin etmək məqsədilə hazırlanmışdır və Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin (bundan sonra - Xidmət) xarici dövlətlərdə və beynəlxalq təşkilatlarda nümayəndələrinin (bundan sonra - xarici ölkələrdəki nümayəndələr) saxlanma xərcləri (o cümlədən təmsilçilik xərcləri) ilə bağlı məsələləri tənzimləyir, o cümlədən təyin olunduqları ölkələrdə xidmət etdikləri dövrdə xarici ölkələrdəki nümayəndələrə və onların ailə üzvlərinə ödənişlərin verilməsini və digər təminatların həyata keçirilməsini müəyyən edir.

1.2. Bu Qaydaların məqsədləri üçün xarici ölkələrdəki nümayəndələrin ailə üzvləri dedikdə, xarici ölkələrdəki nümayəndələrin xidmət etdikləri dövlətdə onlarla birlikdə yaşayan nümayəndənin əri (arvadı), uşaqları və 18 yaşına çatmış əmək qabiliyyəti olmayan övladları başa düşülür.

1.3. Xarici ölkələrdəki nümayəndələrin fəaliyyətinin maliyyələşdirilməsi dövlət büdcəsindən Xidmətə ayrılmış vəsaitlər dairəsində "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri gözlənilməklə, mərkəzləşdirilmiş qaydada dövlət xəzinədarlığı vasitəsilə həyata keçirilir.

1.4. Bu Qaydalara uyğun olaraq müəyyən olunan ödənişlər xarici ölkələrdəki nümayəndələrə xidmətə təyin olunduqları tarixdən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 21 yanvar tarixli 11 nömrəli Qərarı ilə təsdiq edilmiş "Diplomatik xidmət əməkdaşlarına təminat və kompensasiyaların verilməsi Qayda-ları"nda hər bir dövlət üzrə müəyyən edilmiş xarici valyutada ödənilir.

1.5. Məzuniyyət, ezamiyyət, əmək qabiliyyətini müvəqqəti itirmə dövrləri, eləcə də qanunvericilikdə hərbi qulluqçunun xidmət yerinin və pul təminatının saxlandığı digər hallar istisna olmaqla, xarici ölkələrdəki nümayəndələr təyin olunduqları xidmət yerində hər hansı səbəbdən öz vəzifələrini 30 (otuz) təqvim günündən artıq müddətdə icra edə bilmədikdə, onlara yalnız milli valyutada dövlət məvacibi ödənilir.

1.6. Xarici ölkələrdəki nümayəndələrin saxlanma xərcləri (maddi-texniki, maliyyə və digər təminatları) dövlət büdcəsində Xidmət üçün nəzərdə tutulmuş vəsait hesabına maliyyələşdirilir. Xarici ölkələrdəki nümayəndələrə dövlət məvacibi və bu Qaydalarda nəzərdə tutulan digər ödənişlər Xidmət tərəfindən Azərbaycan Respublikasının Maliyyə Nazirliyi (bundan sonra - Nazirlik) ilə razılaşdırılmaqla təsdiq edilən xərclər smetası (bundan sonra - xərclər smetası) əsasında ödənilir.

1.7. Xarici ölkələrdəki nümayəndələrə maliyyə vəsaiti xarici valyutada təhtəlhesab şəxslər üzrə avans şəklində ayrılır. Bu məqsədlə xarici ölkələrdəki nümayəndələr tərəfindən xarici bank müəssisəsində fiziki şəxs qismində bank hesabı açılır və hər ayın 18-25 tarixləri ərzində Xidmət tərəfindən həmin bank hesabına vəsaitin köçürülməsi təmin edilir.

1.8. Xarici ölkədəki nümayəndə (təhtəlhesab şəxs) tərəfindən rüb ərzində əldə edilən maliyyə vəsaitlərinin istifadəsi ilə bağlı növbəti rübün birinci ayının 5-dək "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən Nazirlik tərəfindən müəyyən olunmuş formada Xidmətə rüblük avans hesabatı təqdim edilir. Təhtəlhesab şəxs avans hesabatına xərcləri təsdiq edən bütün təsdiqedici sənədləri (dövlət məvacibi, kompensasiya və müavinətlər istisna olmaqla) əlavə etməlidir. Bu sənədlərin siyahısının avans hesabatının müvafiq hissəsində qeydiyyatı aparılır. Avans hesabatına əlavə edilən bütün sənədlər hesabata birləşdirilmə ardıcıllığı ilə nömrələnir.

1.9. Xidmətə təqdim edilən avans hesabatı üzrə xərclənməyən qalıq vəsait ilkin mənbəyə qaytarılmadan növbəti rübdə istifadə olunur. Eyni şəxsə rübdən sonrakı yeni avans məbləği yalnız əvvəlki rüb ərzində ödənilmiş avans məbləğləri haqqında hesabat təqdim edildikdən və vəsaitin qalığı barədə məlumat əldə edildikdən sonra ödənilir. Təhtəlhesab məbləğlərin avans hesabatı müəyyən olunmuş müddətdə təqdim edilmədikdə bu borclar "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən Nazirlik tərəfindən müəyyən olunmuş qaydada xarici ölkədəki nümayəndənin məvacibindən tutulur.

1.10. Qanunvericiliklə müəyyən olunmuş müddət ərzində növbəti il üçün dövlət büdcəsi təsdiq olunmadıqda, dövlət büdcəsi təsdiq olunanadək Nazirlik tərəfindən hər ay üzrə xarici ölkələrdəki nümayəndələrin ötən il üzrə xərclərinin on ikidə bir hissəsi qədər maliyyələşdirilməsi aparılır.

1.11. Dövlət büdcəsindən xarici ölkələrdəki nümayəndələrin fəaliyyətinin maliyyələşdirilməsi üçün ayrılan vəsaitlər təyinatı üzrə istifadə edilməli və ilin sonuna istifadə olunmayan qalıq vəsait ilkin mənbəyə qaytarılmalıdır.

1.12. "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında", "Əmək pensiyaları haqqında" və "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq, xarici ölkələrdəki nümayəndələr sığorta olunarkən, onlara əmək pensiyası təyin edilərkən, müavinətlər və kompensasiyalar ödənilərkən, habelə Xidmətin hərbi qulluqçuları üçün normativ hüquqi aktlarda nəzərdə tutulmuş birdəfəlik ödənişlər verilərkən pul təminatı nəzərə alındığı halda onların Xidmətdə ştat üzrə tutduğu vəzifəyə uyğun hesablanan pul təminatı əsas götürülür.

### 2. Xarici ölkələrdəki nümayəndələrə ödənilən dövlət məvacibi, aylıq əlavə və dövlət məvacibinə fərqləndirici əmsalın tətbiq edilməsi

2.1. Xarici ölkələrdəki nümayəndələrə bu Qaydaların 2.2-ci bəndinə əsasən müəyyən edilən dövlət məvacibi və təyin olunduqları dövlətin və onun müvafiq şəhərinin sosial-iqtisadi və maddi-məişət şəraitinə uyğun olaraq dövlət məvacibinə bu Qaydaların tələblərinə uyğun fərqləndirici əmsal tətbiq edilməklə müəyyən edilən aylıq əlavə ödənilir.

2.2. Xarici ölkələrdəki nümayəndələrin dövlət məvacibi Azərbaycan Respublikası diplomatik nümayəndəliklərinin rəhbərlərinin Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilən dövlət məvacibinin 85 faiz nisbətində müəyyən edilir.

2.3. Aylıq əlavənin məbləği xarici ölkələrdəki nümayəndələrin dövlət məvacibindən qanunla müəyyən edilmiş qaydada məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqları, həmçinin gəlir vergisi çıxıldıqdan sonra qalan vəsaitə fərqləndirici əmsal tətbiq edilməklə alınan məbləğlə həmin qalan vəsait arasında fərqə bərabər götürülür.

2.4. Xarici ölkələrdəki nümayəndələrin dövlət məvacibinə fərqləndirici əmsal Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 21 yanvar tarixli 11 nömrəli Qərarı ilə təsdiq edilmiş "Diplomatik xidmət əməkdaşlarına təminat və kompensasiyaların verilməsi Qaydaları" ilə müəyyən edilmiş qaydada və hədlərdə tətbiq edilir.

### 3. Tibbi təminat xərcləri

3.1. Xarici ölkədə xidmət etdikləri dövrdə xarici ölkələrdəki nümayəndələrinvə onlarla birlikdə yaşayan ailə üzvlərinin tibbi təminatı dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilən, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 21 yanvar tarixli 11 nömrəli Qərarı ilə təsdiq edilmiş "Diplomatik xidmət əməkdaşlarına təminat və kompensasiyaların verilməsi Qaydaları" ilə müəyyən edilmiş tibbi sığorta zərfi əsasında həyata keçirilir. Bu məqsəd üçün dövlət büdcəsində xarici ölkələrdəki nümayəndələrin xidmət etdikləri ölkələrdə tibbi sığorta qiymətlərinin orta səviyyəsi nəzərə alınmaqla müvafiq vəsaitlər nəzərdə tutulur.

3.2. Fəaliyyət göstərdikləri ölkələrdə tibbi sığorta xidmətindən istifadə mümkün olmadıqda, xarici ölkələrdəki nümayəndələr və onlarla birlikdə yaşayan ailə üzvləri xərclər smetasında tibbi təminat xərcləri üçün nəzərdə tutulmuş vəsaitlər dairəsində bu Qaydaların 3.1-ci bəndində göstərilən tibbi sığorta zərfinə daxil olan tibbi xidmətlərdən yararlana bilərlər. Müvafiq tibbi sığorta zərfinə daxilolmayan tibbi xidmətlərdən istifadə xərcləri xarici ölkələrdəki nümayəndələr tərəfindən öz vəsaitləri hesabına ödənilir.

### 4. Nəqliyyat xərcləri

4.1. Xarici ölkələrdəki nümayəndələrxidmətə təyin olunarkən, habelə xarici ölkələrdə fəaliyyətlərini başa çatdırıb Azərbaycan Respublikasına qayıdarkən nümayəndələrin və onlarla birlikdə yaşayan ailə üzvlərinin nəqliyyat və yükün daşınması xərcləri (onların xarici ölkələrdə yaşadıqları ünvandan limana (vağzala) kimi olan nəqliyyat xərcləri də daxil olmaqla) xərclər smetasında bu məqsəd üçün nəzərdə tutulmuş vəsaitlər hesabına müvafiq təsdiqedici sənədlər əsasında ödənilir.

4.2. Xarici ölkədəki nümayəndəyə verilən ödənişli illik məzuniyyət dövründə və ya xarici ölkədəki nümayəndə ilə birlikdə yaşayan ailə üzvlərindən birinin ölümü ilə əlaqədar, xarici ölkədəki nümayəndənin və onunla birlikdə yaşayan ailə üzvlərinin Azərbaycan Respublikasına gəlməsi və xidmət etdiyidövlətə qayıtması üçün nəqliyyat xərcləri də bu Qaydaların 4.1-ci bəndində nəzərdə tutulmuş qaydada ödənilir.

4.3. Xarici ölkələrdə xidmətə təyin olunarkən, habelə fəaliyyətlərini başa çatdırıb Azərbaycan Respublikasına qayıdarkən xarici ölkələrdəki nümayəndələrə və onlarla birlikdə yaşayan ailə üzvlərinin hər birinə müvafiq sənədlər əsasında 80 kq-dək (yükün ümumi çəkisi 240 kq-dan artıq olmamaqla) yükün aparılması xərcləri xərclər smetasında bu məqsəd üçün nəzərdə tutulmuş vəsaitlər hesabına ödənilir.

### 5. Yaşayış sahəsi ilə təminat

5.1. Xarici ölkələrdəki nümayəndələrin və onlarla birlikdə yaşayan ailə üzvlərinin fəaliyyət göstərdikləri ölkələrdə yaşayış sahəsi ilə təmin olunması üçün xərclər smetasında müvafiq vəsaitlər nəzərdə tutulur. Həmin vəsaitlər nümayəndələr və onlarla birlikdə yaşayan ailə üzvləri üçün yaşayış sahəsinin icarəyə götürülməsi ilə bağlı bütün xərcləri, o cümlədən nümayəndələrin fəaliyyət göstərdikləri ölkələrin qanunvericiliyinə uyğun yaranan əlavə xərcləri təmin etməlidir.

5.2. Xarici ölkədəki nümayəndənin yaşayış sahəsi üzrə kommunal xidmətlərinin haqqı nümayəndənin şəxsi vəsaiti hesabına ödənilir.

5.3. Xarici ölkələrdəki nümayəndələr və onlarla birlikdə yaşayan ailə üzvləri nümayəndələrin tutduqları vəzifə və yerli şərait nəzərə alınmaqla, onların fəaliyyət göstərdikləri ölkələrdə mebellə təchiz edilmiş yaşayış sahəsi ilə təmin olunurlar.

5.4. Xarici ölkələrdəki nümayəndələrin yaşayış sahəsi ilə təminatı xərclər smetasında qeyd olunan məqsəd üçün nəzərdə tutulmuş vəsaitlər dairəsində bu Qaydaların əlavəsi ilə müəyyən edilən norma əsasında həyata keçirilir.

5.5. Yaşayış yerinin sahəsi nəzərdə tutulmuş normadan (müvafiq qaydada artırılma nəzərə alınmaqla) yuxarı olduğu təqdirdə, artıq olan sahənin haqqı nümayəndələrin öz şəxsi vəsaitləri hesabına ödənilir.

5.6. Xarici ölkələrdəki nümayəndələr fəaliyyət göstərdikləri ölkələrdə Azərbaycan Respublikasının mülkiyyətində olan yaşayış sahələri ilə təmin olunduqları hallarda, həmin sahələrə görə icarə haqqı ödənilmir.

5.7. Xarici ölkədəki nümayəndənin yaşayış sahəsi icarəyə götürüldükdə həmin sahənin icarəsi üçün ödənilən haqqın məbləği fəaliyyət göstərdiyi yaşayış məntəqəsində mövcud olan qiymətlərin orta səviyyəsinə uyğun müəyyən edilir. Qiymətlərin orta səviyyəsinin müəyyən edilməsi məqsədilə xarici ölkədəki nümayəndənin xidmət etdiyiyaşayış məntəqəsində yaşayış sahəsinin icarəsi ilə məşğul olan bir neçə şirkətə (3 şirkətdən az olmamaq şərtilə) sorğu edilir.

5.8. Yaşayış sahəsi icarəyə götürüldükdə icarəyə verənlə icarə müqaviləsi həmin sahədə yaşayacaq xarici ölkədəki nümayəndə tərəfindən bağlanılır. Bu müqavilə nümayəndənin təyin olunduğu ölkəyə gəldiyi tarixdən 15(on beş) gündən gec olmayaraq bağlanılmalıdır. Həmin müddət ərzində mehmanxanadan istifadə olunduqda, mehmanxana xərcləri həmin ölkə üçün Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş mehmanxana xərcləri normalarından artıq olmamalıdır. Qeyd olunan müddət ərzində müqavilə bağlanılmadıqda, mehmanxana xərcləri xarici ölkədəki nümayəndənin şəxsi vəsaiti hesabına ödənilir.

5.9. İcarə müqaviləsində digər şərtlərlə yanaşı, aşağıdakıların da nəzərdə tutulması zəruridir:

5.9.1. yaşayış sahəsinin ölçüləri, icarə müddəti və ödəniş şərtləri;

5.9.2. icarəçinin hər hansı vergi ödəməli olmaması;

5.9.3. icarəçinin xidməti zərurətlə əlaqədar icarə müqaviləsinə istənilən vaxt xitam vermək hüququ;

5.9.4. yaşayış sahəsi və oradakı mebel, inventar və digər avadanlığın icarəyə verənin hesabına sığortalanması;

5.9.5. yaşayış sahəsi və oradakı mebel, inventar və digər avadanlığın təbii aşınma ilə bağlı təmir xərclərinin icarəyə verən tərəfindən ödənilməsi.

5.10. Yaşayış sahəsinin icarə xərcləri aylıq əsasda ödənilir. Yaşayış sahəsinin icarə xərclərinin illik məbləğinin əvvəlcədən icarəyə verənə ödənilməsinə icazə verilmir.

5.11. Yaşayış sahəsinin icarə xərclərinin ödənilməsi xərclər smetasında bu məqsəd üçün nəzərdə tutulmuş vəsaitlər dairəsində xarici ölkədəki nümayəndə ilə icarəyə verən arasında bağlanılmış icarə müqaviləsi əsasında bank vasitəsilə həyata keçirilir. Xarici ölkədəki nümayəndə ilə birlikdə yaşayan ailə üzvlərindən biri eyni xarici ölkədə Xidmətin və ya digər dövlət orqanının nümayəndəsi qismində çalışdığı halda yaşayış sahəsi üçün icarə xərci ailə üzvlərindən birinə ödənilir.

5.12. Xarici ölkədəki nümayəndənin yaşayış sahəsinin icarəsi zamanı girov kimi depozitə qoyulmuş dövlət büdcəsi vəsaitinin qaytarılması təmin olunmadığı halda həmin vəsait aidiyyəti nümayəndədən tutulur.

5.13. Yaşayış sahəsinin və oradakı mebel, inventar və avadanlığın təbii aşınması ilə əlaqədar olmayan təmir xərcləri xarici ölkədəki nümayəndənin şəxsi vəsaiti hesabına ödənilir.

5.14. Xarici ölkədəki nümayəndə icarəyə götürdüyü yaşayış sahəsini icarəyə verənə təhvil verərkən icarəyə verəndən həmin xarici ölkədəki nümayəndəyə qarşı heç bir iddianın olmadığı barədə yazılı təsdiqedici sənəd alınmalı və Xidmətə təqdim edilməlidir.

5.15. Yaşayış sahəsinin icarəyə götürülməsi ilə bağlı bu Qaydaların 5-ci hissəsində göstərilən şərtlərlə icarəyə verən razılaşmadıqda və müvafiq ərazidə daha sərfəli şərtlərə yaşayış sahəsinin icarəyə götürülməsi mümkün olmadıqda, qeyd olunan icarə şərtləri Xidmətin və Nazirliyin razılığı əsasında dəyişdirilə bilər.

### 6. Təhsil haqqı ilə bağlı müavinət

6.1. Xarici ölkədəki nümayəndə ilə birlikdə yaşayan və ümumi təhsil müəssisəsində oxuyan ailə üzvlərinin təhsil haqqı ilə bağlı müavinətin ödənilməsi üçün tələb olunan vəsaitlər xərclər smetasında nəzərdə tutulur.

6.2. Təhsil haqqı ilə bağlı müavinət xarici ölkədəki nümayəndə ilə birlikdə yaşayan və ümumi təhsil müəssisəsində oxuyan hər bir ailə üzvü üçün müvafiq təhsil müəssisəsi ilə bağlanılmış müqavilədə nəzərdə tutulan məbləğə bərabər, lakin ayda 700 ABŞ dollarından və ya müvafiq valyutada onun ekvivalentindən çox olmamaq şərtilə ödənilir.

6.3. Təhsil haqqının təhsil haqqı üzrə müavinətdən artıq olan hissəsi xarici ölkədəki nümayəndənin şəxsi vəsaiti hesabına ödənilir.

### 7. Digər təminatlar

7.1. Xarici ölkələrdəki nümayəndələrə onların dövlət məvacibinə fərqləndirici əmsal tətbiq edildikdən sonra alınan məbləğin 15 (on beş) faizi həcmində aylıq təmsilçilik xərci ödənilir.

7.2. Xarici ölkədəki nümayəndəyə nümayəndənin xidmət etdiyidövlətdə onunla birlikdə yaşayan 18 yaşına çatmış əmək qabiliyyəti olmayan övladları üçün "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən müəyyən edilmiş müavinətin ABŞ dolları ekvivalentində məbləğinə fərqləndirici əmsal tətbiq edildikdən sonra alınan məbləğlə milli valyutada ödənilən müavinət arasında olan fərq həcmində aylıq müavinət bu Qaydaların 1.4-cü bəndi nəzərə alınmaqla müvafiq valyutada ödənilir.

7.3. Xarici ölkədə müvafiq vəzifəyə təyin olunarkən xarici ölkədəki nümayəndəyə həmin vəzifə üzrə dövlət məvacibinin 1 (bir) misli həcmində birdəfəlik yerləşmə müavinəti ödənilir.

7.4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 21 yanvar tarixli 11 nömrəli Qərarı ilə təsdiq edilmiş "Diplomatik xidmət əməkdaşlarına təminat və kompensasiyaların verilməsi Qaydaları" ilə siyahısı müəyyən edilmiş müharibə və silahlı münaqişə şəraitində olan xarici dövlətlərdə xidmət edən nümayəndələrə onların dövlət məvacibinə fərqləndirici əmsal tətbiq edildikdən sonra alınan məbləğin 30 (otuz) faizi həcmində aylıq kompensasiya ödənilir.

7.5. Xarici ölkələrdəki nümayəndələrin xidmət etdikləridövrdə onlara və ya onlarla birlikdə yaşayan ailə üzvlərinə öz xidməti vəzifələrini yerinə yetirərkən dəymiş zərərin əvəzi Azərbaycan Respublikasının mövcud qanunvericiliyi ilə müəyyən edilmiş qaydada ödənilir.

7.6. Xarici ölkələrdəki nümayəndələrin xaricdə xidmət etdikləri dövrdə əldə etdikləri vəsaitin və əmlakın Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilməsi Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə uyğun olaraq həyata keçirilir.

7.7. Xarici ölkələrdəki nümayəndə və ya onunla birlikdə yaşayan ailə üzvü öldükdə, onların cəsədinin Azərbaycan Respublikasına gətirilməsi xərcləri dövlət büdcəsi hesabına ödənilir.

7.8. Xarici ölkələrdəki nümayəndələrətəhkim olunan xidməti minik avtonəqliyyat vasitələrinin say həddi (limiti) 1 (bir) ədəd müəyyən edilir. Xarici ölkədəki nümayəndəyətəhkim olunan xidməti minik avtonəqliyyat vasitəsi üçün tam iş vaxtı üzrə aylıq yürüş həddinin norması 1000 km müəyyən edilir. Xidməti minik avtonəqliyyat vasitələri üçün istismar xərclərinin normaları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 21 yanvar tarixli 11 nömrəli Qərarı ilə təsdiq edilmiş "Diplomatik xidmət əməkdaşlarına təminat və kompensasiyaların verilməsi Qaydaları" ilə müəyyən edilmiş qaydada tənzimlənir.

**Qeyd.** Bu Qaydaların məqsədləri üçün Azərbaycan manatının ABŞ dollarına olan məzənnəsi, həmçinin avronun, Böyük Britaniya funt sterlinqinin, İsveçrə frankının və Yaponiya yeninin ABŞ dollarına olan çarpaz məzənnəsi Azərbaycan Respublikası Mərkəzi Bankının 2022-ci il 1 iyul tarixinə olan məzənnə göstəricilərinə əsasən müəyyən edilir.

***"Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin xarici dövlətlərdə və beynəlxalq təşkilatlarda nümayəndələrinin saxlanma xərclərinin (o cümlədən təmsilçilik xərclərinin) norma və ödəniş qaydaları"na əlavə***

## Xarici ölkələrdəki nümayəndələrin yaşayış sahəsi ilə təminat norması

| Sıra №-si | Vəzifənin adı | Yaşayış sahəsinin yuxarı həddi (kv.m) |
|---|---|---|
| 1. | Xarici ölkədəki nümayəndə | 70 |

**Qeydlər:**

1. Xarici ölkələrdəki nümayəndələrlə birlikdə yaşayan 2 və daha çox ailə üzvü olduqda, göstərilən yaşayış sahəsinin yuxarı həddi (adambaşına düşən yaşayış sahəsi 12 kv.metrdən artıq olmamaqla) Xidmət rəisinin razılığı ilə artırıla bilər.
2. Yaşayış sahəsinə yataq otaqlarının tutduğu sahə daxil edilir.

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 220 — QƏRAR — Bakı şəhəri, 4 iyul 2023-cü il

## "Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 8 dekabr tarixli 261 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 9 avqust tarixli 444 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi haqqında Əsasnamə"nin 16-cı hissəsinə uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 8 dekabr tarixli 261 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 12, maddə 1152; 2007, № 6, maddə 702; 2010, № 5, maddə 472; 2012, № 4, maddə 390; 2016, № 5, maddə 966; 2017, № 3, maddə 489; 2020, № 7, maddə 994) 1-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

"1. Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin kollegiya üzvlərinin sayı 11 (on bir) nəfərdən ibarət müəyyənləşdirilsin və aşağıdakı tərkibdə təsdiq edilsin:

**Kollegiyanın sədri**

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri

**Kollegiyanın üzvləri:**

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavinləri

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Aparatının rəhbəri

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Aparatının Ailə məsələləri şöbəsinin müdiri

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Aparatının Qadın və gender məsələləri şöbəsinin müdiri

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Aparatının Uşaq məsələləri şöbəsinin müdiri

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Aparatının Xarici əlaqələr və protokol xidməti şöbəsinin müdiri

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Aparatının Hüquqi-təminat şöbəsinin müdiri

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Aparatının Analitik təhlil və informasiya şöbəsinin müdiri.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

İŞİMİZ, GÜZƏRANIMIZ

# Xarici sərmayə ünvanını dəyişir

## Bu gün Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən layihələr daha cəlbedicidir

**Nəhəng və qüdrətli SSRİ-nin süqutundan sonra yeni dünya nizamı formalaşdı. Keçmiş müttəfiq respublikalar müstəqillik əldə etdilər, tədricən dünyanın siyasi və iqtisadi arenasında yer tutdular. Zaman o zaman idi ki, həmin mühitə inteqrasiya etməyə başlayan respublikaların siyasi vəziyyəti qeyri-sabit idi. Ona görə də iqtisadiyyatda görünməmiş eniş yarandı.**



Bu baxımdan Azərbaycan da istisna deyil. 90-cı illərin başlanğıcı müasir Azərbaycan tarixinə hərcmərclik, özbaşınalıq, səriştəsiz idarəetmə səhifələri kimi düşdü. Amma çox keçmədi ki, Heydər Əliyevin təcrübəsi, qətiyyəti sayəsində bu qara səhifələri siyasi sabitlik və iqtisadi inkişaf əvəz etdi. Ardınca Azərbaycan dünya iqtisadiyyatına inteqrasiya olunmağa başladı.

Xarici sərmayədarların ölkəyə cəlb olunması üçün ilk addım neft sənayesində atıldı. 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi" bağlandı. Bu hadisə təkcə yeni neft strategiyasının əsasının qoyulması deyil, həm də iqtisadiyyatın mərhələli şəkildə və dayanıqlı inkişafı üçün yaradılan şərait idi. Ən əsası isə gənc dövlətin dünya birliyində özünə layiqli yer tutmasının anonsu idi.

Bu gün Bakıda dünyanın aparıcı nəhəng şirkətlərinin ofislərinin olması, yaxud tanınmış ticarət və hotel şəbəkələrinin Azərbaycanda təmsil edilməsi adi hal hesab olunur. Halbuki 90-cı illərdə bu, hadisə sayılırdı. Heydər Əliyevin bunun üçün gördüyü ağlagəlməz işlərdən sonra Prezident İlham Əliyevin həmin siyasəti mövcud çağırışlara uyğun davam etdirməsi ilə xarici sərmayədarların ölkəmizə axını başladı. Bu yerdə son illər xarici sərmayədarların ölkəmizdə ard-arda yaradılan sənaye parklarındakı fəaliyyətlərini xüsusi qeyd etmək lazımdır. Ümumiyyətlə, sənaye parklarının ölkə iqtisadiyyatının, xüsusilə qeyri-neft sektorunun inkişafında, innovativ texnologiyalı iqtisadiyyatın formalaşması və həmin texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye məhsulları istehsalının genişləndirilməsində, investisiya mühitinin cəlbediciliyinin artırılmasında, eləcə də məşğulluq səviyyəsinin yüksəlməsində əvəzi yoxdur. Elə bu səbəblərdəndir ki, ölkədə fəaliyyət göstərən sənaye parkları və məhəllələrinə, eləcə də yaradılan Ələt Azad İqtisadi Zonasına xarici investorların marağı kifayət qədərdir.

Son statistikaya nəzər salaq: cari ilin birinci rübündə ölkəmizə birbaşa yatırılan xarici investisiyaların dəyəri 1 milyard 501 milyon 469 min dollar təşkil edib. Bu məbləğin 337,5 milyon dolları qeyri-neft-qaz sahələrinə yatırılıb. Dövlət Statistika Komitəsinin bu ilin beş aylıq məlumatında isə bildirilir ki, xarici ölkələr və beynəlxalq təşkilatların vəsaitləri hesabına əsas kapitala yönəlmiş vəsaitin 1 milyard 479,1 milyon manatı (95,8 faizi) Birləşmiş Krallıq, Türkiyə, Kipr, Fransa, ABŞ, Yaponiya, İsveçrə, Rusiya və Norveç sərmayədarlarına məxsusdur.

Azərbaycan bazarında xarici şirkətlərin iştirakı həm də insan kapitalının təkmilləşməsinə səbəb olur. Çünki beynəlxalq şirkətlər ixtisasartırma kursları açaraq təlimlər keçirlər ki, bu da işə qəbul olunan mütəxəssisin peşəkarlığını artırmağa imkan yaradır. Bir müddət sonra xarici şirkətlərin mütəxəssisləri yerli şirkətlərə keçid edə bilirlər. Nəticədə yerli şirkət xarici həmkarları ilə sağlam rəqabətə başlayır.

Xarici investorların ən praktik faydası texnoloji inkişaf imkanı ilə bağlıdır. İnnovativ texnologiyaların tətbiqi bütün istiqamətlərdə aparılır ki, bu da ardıcıl olaraq yerli şirkətlərin bazarda yayılmasına şərait yaradır. Xarici investisiyaların Azərbaycan üçün faydalarından biri də odur ki, onlar ekoloji və sosial şəraitin yaxşılaşmasına kömək edirlər. Bu, əsasən ekoloji cəhətdən daha təmiz texnologiyaların tətbiqi hesabına mümkün olur, şirkətlərin sosial baxımdan daha məsuliyyətli siyasət yürütməsinə imkan verir.

İqtisadçı ekspertlər deyirlər ki, yaxın gələcəkdə Azərbaycan iqtisadiyyatına xarici kapital qoyuluşları artmaqda davam edəcək. Qeyri-neft sektorunun inkişafı istiqamətində atılan addımların nəticəsi olaraq xarici şirkətlərin müxtəlif layihələrdə, o cümlədən işğaldan azad edilmiş ərazilərdə görülən işlərdə iştirak imkanı qazanması, şübhəsiz, öz töhfəsini verəcək.

Prezident İlham Əliyev son çıxışlarının birində belə fikir söyləmişdir: "Bugünkü güclü Azərbaycan bütün bu işləri görməyə qadirdir. Siyasi iradə var, iqtisadi güc var, xalqımızın səfərbərliyi var, milli həmrəylik ən yüksək zirvədədir və əlbəttə ki, şanlı tarixi zəfərimiz hər birimiz üçün qürur mənbəyidir. Qarabağdakı quruculuq işlərinə yerli və xarici şirkətlərin, iş adamlarının maraq göstərməsi, cəlb olunması vacibdir. Bölgədə investisiya qoyuluşu üçün bütün kartlar hər kəsin üzünə açıqdır. Mən artıq xarici və yerli investorları dəvət etmişəm".

Prezidentin dəvətindən sonra Azərbaycana gələn xarici sərmayədarlar Qarabağ və Şərqi Zəngəzurun quruculuq-bərpa işlərində yaxından iştirak etməyə başladılar. Türkiyənin, Böyük Britaniyanın, İsrailin və Azərbaycana yaxın olan digər ölkələrin şirkətləri artıq burada fəaliyyət göstərirlər. Onlar Ağdam və "Araz Vadisi İqtisadi Zonası" sənaye parklarında rezident kimi qeydiyyatdan keçiblər. İlk rezident Türkiyə və Azərbaycan birgə müəssisəsi olan "SmartPoint" şirkətidir.

Xarici şirkətlərin işğaldan azad olunmuş ərazilərdə fəaliyyət göstərməsi ən son innovasiya və texnologiyaların tətbiqi deməkdir. Müasir texnoloji yeniliklər işlərin sürətli və keyfiyyətli aparılmasına birbaşa təsir edir, müsbət nəticəyə zəmanət verir. "Azərenerji" ASC ilə İtaliyanın "Ansaldo Energia" şirkəti arasında Qarabağ bölgəsindəki dörd yarımstansiya üçün avadanlıq tədarükü ilə bağlı təchizat müqaviləsi bağlanıb. Hər birinin gücü 110 kilovat olan yarımstansiyalar erməni işğalından azad edilmiş Ağdam, Füzuli, Qubadlı və Kəlbəcər rayonlarında 2021-ci ildə istifadəyə verilib. Regionda fəaliyyət göstərən Yaponiya, Slovakiya, Macarıstan şirkətlərinin gördüyü işləri də unutmaq olmaz.

Qarabağ və Şərqi Zəngəzurda kənd təsərrüfatının inkişafı ilə bağlı görülən işlər onu deməyə əsas verir ki, bu sahəyə cəlb olunan xarici investorlar öz işlərini yüksək səviyyədə görürlər. Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyevin söylədiyinə görə, xarici investor tərəfindən Zəngilana 3500 cins heyvan gətirilib. Bu sayın 10 minə çatdırılması gözlənilir. Hazırda digər sahələrin inkişafı ilə bağlı da xarici investorlardan təkliflər gəlib. Bundan əlavə, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində KOBİA, TÜİB və TİKA-nın birgə dəstəyi ilə suvenir istehsalı müəssisəsi və istixana təsərrüfatı fəaliyyətə başlayıb.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## "Əmək və Məşğulluq" altsistemi BMT-nin Cənub-Cənub əməkdaşlığı platformasında uğurlu innovativ həll nümunəsi kimi təqdim olunub

**Azərbaycanın sosial sahədə rəqəmsallaşma layihəsinin növbəti beynəlxalq uğuru olaraq, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "Əmək və Məşğulluq" (ƏMAS) altsistemi BMT-nin Cənub-Cənub əməkdaşlığı platformasında uğurlu innovativ həllərdən biri kimi təqdim edilib.**

Bu platformanın rəsmi internet səhifəsində BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə doğru üzv ölkələrin qabaqcıl təcrübələri paylaşılır və həmin təcrübələr sırasında ƏMAS-la bağlı ətraflı məlumat da yer alıb (https://my.southsouth-galaxy.org/en/solutions/detail/unified-labour-employment-subsystem).

Dərc olunan məqalədə ƏMAS-ın beynəlxalq standartlara cavab verən, işəgötürənlər və işçilər üçün vahid əmək münasibətləri platforması olaraq əmək bazarı iştirakçılarına dəyərli dəstək verən uğurlu rəqəmsal həll yolu olduğu vurğulanır.

Bu elektron sistemin əmək münasibətlərində şəffaflığın və müasir iş prinsiplərinin təminatında, məşğulluq xidmətlərinin səmərəliliyinin, çevikliyinin və bu xidmətlərə, iş imkanlarına əlçatanlığın artırılmasında, insan resurslarının effektiv idarəçiliyində mühüm rolu qeyd olunur. ƏMAS-ın digər üstünlükləri, funksional imkanları, Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunması işlərində əhəmiyyəti diqqətə çatdırılır.

Bundan əvvəl ƏMAS və nazirliyin digər rəqəmsal layihəsi olan e-sosial.az portalı Beynəlxalq Telekommunikasiya İttifaqının bu ilin fevral ayında keçirdiyi, müxtəlif ölkələrdən 18 kateqoriya üzrə 900 layihənin iştirak etdiyi müsabiqədə "Çempion layihə" mükafatlarına da layiq görülüblər.

## Pirallahı Sənaye Parkında Tailand-Azərbaycan birgə müəssisəsi yaradılacaq

**Pirallahı Sənaye Parkının yeni qeydiyyata alınmış rezidenti tərəfindən 8,3 milyon manat investisiyanın yatırılması ilə 56 nəfər daimi işlə təmin ediləcək.**




İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) idarəçiliyində olan Pirallahı Sənaye Parkında yeni rezident - "Supreme Pharmatech Azerbaijan" MMC qeydiyyata alınıb, bununla da Sənaye Parkının rezidentlərinin sayı 6-ya çatıb.

Tailand-Azərbaycan birgə şirkəti olan "Supreme Pharmatech Azerbaijan" MMC tərəfindən Sənaye Parkının 2,5 hektar ərazisində bioloji aktiv qida əlavələrinin və dərman vasitələrinin istehsalını həyata keçirəcək müəssisə inşa ediləcək. İnvestisiya həcmi 8,3 milyon manat təşkil edən müəssisədə 56 nəfərin daimi işlə təmin edilməsi nəzərdə tutulur.

Müəssisədə istehsal olunan məhsulların daxili bazara satılması ilə yanaşı, "Made In Azerbaijan" brendi altında ixracı da planlaşdırılır.

## Milli Observatoriyanın yaradılmasından 4 il ötür

**Prezident İlham Əliyevin 4 iyul 2019-cu il tarixli fərmanı əsasında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriyanın yaradılmasından 4 il ötür.**

Milli Observatoriyanın İdarə Heyətinin sədri Elnur Səfərli qurumun 4 illik fəaliyyətinə dair keçirdiyi mətbuat konfransında bildirib ki, Observatoriya əmək, məşğulluq, sosial müdafiə sahələrində səmərəli idarəetmə qərarlarının qəbul edilməsi üçün təkmil monitorinq, təhlil, proqnozlaşdırma sisteminin yaradılması istiqamətində fəaliyyət göstərir.

Qurumun fəaliyyətinin sorğu-monitorinq, təhlil-tədqiqat, qiymətləndirmə və təlim-inkişaf istiqamətləri üzrə təşkil olunduğu qeyd edilib. Observatoriya tərəfindən ötən dövrdə 12 mövzuda 9,7 mindən çox respondent arasında sorğular təşkil edildiyi bildirilib. Həmçinin yuxarı sinif şagirdləri arasında peşə seçimi ilə bağlı sorğu keçirildiyi, şagirdlərin təhsil perspektivləri, peşə və ixtisas seçiminə təsir edən faktorlar, məqsədyönlü ixtisas seçimini təşviq edən amillər kimi vacib məsələlərin öyrənildiyi diqqətə çatdırılıb.

Eyni zamanda sosial islahatlar, bacarıqların proqnozlaşdırılması, peşə təhsili və s. ilə bağlı aparılan təhlillərdən bəhs olunub. İqtisadiyyatın rəqabətədavamlı kadrlarla təmin edilməsi üçün peşə və ixtisaslara, zəruri bacarıqlara və səriştələrə dair tələblərin, strateji məşğulluq sahələrinin müəyyən olunması sahəsində aparılan sorğu və təhlillər diqqətə çatdırılıb. Bu sorğu və təhlillərin nəticələrinə uyğun olaraq müvafiq sahələr üzrə təkliflərin, proqnozların hazırlandığı qeyd olunub. Nazirliyin təlim bazası qismində də iştirak edən Milli Observatoriyanın ötən müddət ərzində nazirlik Aparatı və nazirliyə tabeli qurumların əməkdaşları üçün 61 mövzu üzrə təlim keçirdiyi, təlim və təlimçi reyestri formalaşdığı qeyd olunub. Əməkdaşların fasiləsiz peşəkar inkişafı üçün 2023-2025-ci illər üzrə Təlim Strategiyasının hazırlanaraq təqdim edildiyi, Sosial Jurnalistika təlimlərinin də təşkil olunduğu bildirilib.

Observatoriyanın müvafiq mərkəzlərlə, ali təhsil müəssisələri ilə əməkdaşlığından və təcrübə mübadilələrindən, Milli Observatoriyanın institusional potensialının gücləndirilməsi istiqamətində atılan addımlardan bəhs olunub.

Təhlil tədqiqat mərkəzi olaraq qurumun regionda aparıcı beyin mərkəzlərindən birinə çevrilməyi hədəflədiyi vurğulanıb.

# Dünyanın daha balanslı enerji sisteminə ehtiyacı var

## bp bu sahədə də ölkəmizlə tərəfdaşlıq edir

**Azərbaycanın təkcə nəhəng karbohidrogen yataqları deyil, "yaşıl enerji" mənbələri olduğu da indi hamıya yaxşı məlumdur. Bu, dəyişən enerji dünyasında ölkəmizin rolunu getdikcə artırır. Bərpaolunan enerji layihələrimizin sayı artır. Bu işdə dünyanın ən tanınmış şirkətləri ilə tərəfdaşlıq edirik.**

Xarici sərmayədarlar Azərbaycanın uzunmüddətli, dayanıqlı, ucuz və ekoloji cəhətdən təmiz enerji növləri ilə təmin edilməsi prosesinə həvəs və inamla qoşulublar. Keçən ilin yanvar ayında Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti tərəfindən inşa ediləcək 240 MVt gücündə "Xızı-Abşeron" külək elektrik stansiyasının tikintisinə başlanıb. Həmin ilin martında isə Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti ilə "Qaradağ" Günəş Elektrik Stansiyasının təməli qoyulub. Sonrakı müddətdə xarici investorlarla digər layihələr haqqında da danışıqlar aparılıb, razılıqlar əldə olunub. Azərbaycan dövlətinin bərpaolunan enerji sahəsindəki prioritetlərini ölkəmizdə ən iri neft, qaz və ixrac layihələrinin əməliyyatçısı bp şirkəti də dəstəkləyir.

"Dünyanın daha yaxşı, daha balanslı enerji sisteminə ehtiyacı var. Balanslı dedikdə, biz təhlükəsiz, əlçatan və daha az karbonlu enerji təmin edə biləcək bir sistem nəzərdə tuturuq. Buna "enerji trilemması" deyirlər. Şirkət olaraq hesab edirik ki, bu məsələnin həllinə iki yolla dəstək verə bilərik: həm enerji keçidinə investisiya qoymaqla, həm, əsasən, karbohidrogenlərdən ibarət bu günün enerji sisteminə investisiya qoymaqla. Hazırda Xəzər regionundakı fəaliyyətimiz hər iki həll yolunun həyata keçirilməsini dəstəkləyir".

Bu sözləri bp-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz cari il 31 may-3 iyun tarixlərində keçirilən "Bakı Enerji Həftəsi"ndə demişdir. O bildirmişdir ki, enerji keçidinə investisiya qoymaqla yanaşı, şirkət mövcud neft və qaz hasilatında da karbonsuzlaşdırmanın və emissiyaların azaldılmasının yollarını axtarır. Sahələrdə məşəlin müntəzəm yanmasını aradan qaldırmaq istiqamətində iş aparılır və emissiyaları 50 faiz azaltmaq üçün obyektlərdə metan detektorları quraşdırılır.

Xatırladaq ki, Xəzərin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlarında yaxın zamanda "Azəri Mərkəzi Şərqi "(ACE) hasilat platforması quraşdırılacaq. Bu yeni platformanın məhz daha az karbonlu olması nəzərdə tutulub. ACE uzaq məsafədən idarə ediləcək və onun əksər sistemləri və prosesləri avtomatlaşdırılacaq. Bu isə platformaya daha az gediş-gəliş, daha az boşdayanma halları və buna görə məşəlin az yanması və az emissiya atqısı deməkdir.

Eləcə də "Şahdəniz" yatağında "Şahdəniz Alfa" platformasından karbon tullantılarının azaldılması üçün iş aparılır. Həmçinin obyektləri elektrikləşdirmək və enerji üçün qazdan istifadəni dayandırmaq barədə düşünülür. Səngəçal terminalının elektrikləşdirilməsi bu baxımdan yaxşı başlanğıc ola bilər. bp mütəxəssislərinin fikrincə, Səngəçalda qaz turbinləri yandırmaq əvəzinə ölkənin enerji şəbəkəsinə qoşulmaqla həm emissiyaların azaldılmasına, həm də qənaət olunmuş qazın "Cənub qaz dəhlizi" ilə ixracına nail olmaq mümkündür.

Lakin Azərbaycanın yeni enerji gələcəyinə keçidinə bp-nin dəstəyi yalnız bunlardan ibarət deyil. Məlumdur ki, Azərbaycan qabaqcıl enerji infrastrukturuna, güclü tərəfdaşlıqlara, zəngin bərpaolunan enerji ehtiyatlarına malikdir və bunun sayəsində enerji keçidində də irəlidə gedə bilər. Bu səbəbdən də bp ölkəmizin uzunmüddətli və etibarlı tərəfdaşı kimi bizə dəstək verməyə hazır olduğunu bildirir. Belə ki, keçən il şirkət tərəfindən Energetika Nazirliyinə 2050-ci ilədək Azərbaycanın öz zəngin enerji potensialından istifadə etməklə iqtisadiyyatını necə karbonsuzlaşdıra biləcəyi ilə bağlı bir sıra tövsiyələr təqdim olunub. Müəyyən sahələrdə artıq işə də başlanıb. Məsələn, işğaldan azad edilmiş Cəbrayıl rayonunda 240 meqavat gücündə günəş elektrik stansiyasının inşasına start vermək üçün sahədəki tədqiqat işləri yekunlaşmaq üzrədir.




"Nazirliklə birlikdə biz Azərbaycanda virtual elektrik ötürülməsi modelinin yaradılmasının əsasını təşkil edən innovativ mexanizm müəyyən etmişik. Biz həmçinin bərpaolunan enerji sahəsində bu cür potensial layihələrin araşdırılması üçün SOCAR-la əməkdaşlıq edirik. Paralel olaraq, gələcəkdə enerji layihələrini həyata keçirə biləcək ixtisaslaşmış yerli işçi qüvvəsinin hazırlanmasına dəstək veririk. Ötən il Azərbaycan Dövlət Neft və Sənaye Universitetində bərpaolunan enerji mənbələri üzrə yeni magistr proqramının yaradılmasına kömək etdik və artıq bu il proqram üzrə ilk qrupun dərslərə başlamasını gözləyirik. Ümid edirik ki, bu proqram Azərbaycanın bərpaolunan enerji mənbələri sahəsində ixtisaslaşmış yerli mütəxəssislərə artan tələbatını qarşılamağa yardım edəcək", - deyə bp-nin regional prezidenti bildirmişdir.

Şirkətin mütəxəssisləri həmçinin bu qənaətdədirlər ki, enerji keçidini sürətləndirmək lazımdır. Bir sözlə, qarşıda çox işlər dayanır və bunların reallaşmasında, Azərbaycanın yeni enerji gələcəyinin qurulmasında bp bizimlə birlikdə olmaq sözünə sadiqdir.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# "AzerGold" QSC-nin fəaliyyətə başlamasının 7 illiyi və 2023-cü ilin birinci yarısının yekunlarına həsr olunmuş müşavirə keçirilib

**"AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) Daşkəsən rayonunda yerləşən Çovdar İnteqrəolunmuş Regional Emal Sahəsində (ÇİRES) şirkətin fəaliyyətə başlamasının 7 illiyi, eləcə də 2023-cü ilin birinci yarısının yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş müşavirə keçirilib. Bu barədə qurumun Mətbuat xidmətindən məlumat verilib.**



Tədbirdən əvvəl "AzerGold" QSC-nin rəhbərliyi Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət edərək xatirəsini dərin ehtiramla yad edib, abidəsi önünə əklil qoyub. Daha sonra Şəhidlər xiyabanında xalqımızın azadlığı və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçən Vətən övladlarının əziz xatirəsi anılıb. Həmçinin Bakı və Gəncə şəhərlərində QSC-nin Vətən müharibəsində şəhid olmuş əməkdaşları - Muxtar Qasımlı və Rauf Əsgərovun məzarları ziyarət edilib.

"AzerGold" QSC və törəmə şirkətləri - "Daşkəsən Dəmir Filiz" MMC və "AzerBlast" MMC-nin kollektivinin iştirak etdiyi, o cümlədən Bakı və Daşkəsəndə yerləşən inzibati ofis və istehsalat sahələrinin əməkdaşlarının videobağlantı formatında qatıldığı müşavirə ölkəmizin ərazi bütövlüyü və müstəqilliyi uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsinin birdəqiqəlik sükutla yad edilməsi, Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

Müşavirədə çıxış edən "AzerGold" QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimov Prezident İlham Əliyevin 2015-ci il 11 fevral tarixində imzaladığı sərəncama uyğun olaraq, 2016-cı ilin 5 iyul tarixində fəaliyyətə başlayan şirkətin 7 il ərzində əldə etdiyi əsas nailiyyətlər barədə danışıb. Bildirilib ki, "AzerGold" ötən dövrdə 4 mədən layihəsi - "Çovdar", "Ağyoxuş-1", "Mərəh" və nəhayət, 2023-cü ilin fevral ayında "Tülallar" qızıl yatağının istismarına başlamağa, eləcə də 1 dəmir filizi yatağı - "Cənub-Şərq" mədəninin işlənməsini həyata keçirməyə nail olub. Yalnız 1 mədənin - "Çovdar" qızıl yatağının istismarı ilə yola çıxan şirkət hazırda həmin mədənin bazasında yaradılmış 1 regional emal sahəsi, 2 törəmə cəmiyyət - "Daşkəsən Dəmir Filiz" MMC və "AzerBlast" MMC ilə yoluna davam edir.

"AzerGold" QSC-nin müstəqillik dövründə dövlət şirkəti qismində ilk qızıl və gümüş hasilatçısı, eləcə də ixracatçısı kimi uğurlu fəaliyyətinin təmin olunmasına nail olduğunu deyən Z.İbrahimov qeyd edib ki, səhmlərinin 100 faizi dövlətə məxsus olan şirkətin əsas məqsədi təkcə mədənlərin istismarı ilə iqtisadi gəlir əldə etmək deyil, eyni zamanda bu sahənin dayanıqlı inkişafı, dağ-mədən sahəsinin qeyri-neft-qaz sektorunda payının artırılmasıdır. Vurğulanıb ki, şirkətin fəaliyyətə başlamasının 7-ci ildönümü ərəfəsində ümumi satış gəlirləri 1 milyard 28 milyon manatı üstələyib. Satış gəlirlərlərinin 990 milyon manatını ixracdan əldə edilmiş gəlirlər təşkil edir. Belə ki, şirkətin uğurlu fəaliyyəti nəticəsində 358 min unsiya qızıl, 712 min unsiya gümüşün ixracı həyata keçirilib. İxracla yanaşı, ötən dövr ərzində yerli zərgərlik bazarının inkişafı məqsədilə 11 min unsiyadan çox qızıl, 76 min unsiyadan çox gümüş metal daxili bazara yönəldilib. Bundan başqa, bu müddət ərzində dövlətə vergi formasında 119 milyon manata yaxın vəsait ödənilib. Dövlət Sosial Müdafiə Fonduna (DSMF) ödənişlər isə 17 milyon manata yaxın olub ki, bu, ümumilikdə 136 milyon manat vəsait deməkdir.

Daha sonra idarə heyətinin sədri 2023-cü ilin birinci yarısının yekunları ilə bağlı danışıb. Qeyd olunub ki, bu ilin 6 ayı ərzində Daşkəsən və Göygöl rayonlarında yerləşən mədənlərdə aparılan hasilat işləri nəticəsində ümumilikdə 18 min unsiya qızıl, 53 min unsiya gümüş istehsal olunub. Qızıl hasilatı plandan 3, gümüş hasilatı isə 53 faiz artıq yerinə yetirilib. Hesabat dövründə 18 min unsiya qızıl, 42 min unsiya gümüşün dünya birjasında satışı təmin edilib. Qızıl və gümüş ixracı isə müvafiq ardıcıllığa uyğun olaraq plandan 31 faiz və 74 faiz artıq icra edilib. Birinci yarımil ərzində qiymətli metalların daxili və xarici bazarlarda satış əməliyyatları nəticəsində 73 milyon manat gəlir əldə edilib. Bu vəsaitin 61 milyon manatını ixrac gəlirləri təşkil edib.

Birinci yarımildə dövlət büdcəsinə vergi formasında ödənilən vəsait isə 15 milyon manata yaxın olub. Hesabat dövründə həmçinin DSMF-yə təqribən 2 milyon manat vəsait köçürülüb.

QSC-nin fəaliyyətinin əsas prinsiplərini təbii resurslardan səmərəli istifadə, dayanıqlı inkişaf konsepsiyasının tətbiqi və sosial məsuliyyətlilik təşkil etdiyini qeyd edən Z.İbrahimov diqqətə çatdırıb ki, qəbul edilən Sosial Təsir və Məsuliyyət üzrə Siyasət çərçivəsində yerli icmaların sosial-iqtisadi inkişafının dəstəklənməsi, ətraf mühitin mühafizəsi istiqamətində fəal iş aparılır, icra edilən layihələr regionun spesifik xüsusiyyətləri, yerli icmaların ehtiyac meyarları, sosial-iqtisadi tələbatları nəzərə alınaraq hazırlanır və realizə edilir. Bu xüsusda mədənlərə yaxın ərazilərdə yaşayan vətəndaşlarla mütəmadi görüşlərin keçirildiyi, onların müraciətlərinə həssas münasibət göstərildiyi və qanunvericilik çərçivəsində həlli ilə bağlı müvafiq addımların atıldığı bildirilib.

Tədbirdə həmçinin geoloji kəşfiyyat, yeni mədən və infrastruktur layihələrin icrası, məşğulluq, kadr siyasəti ilə bağlı məsələlərdən danışılıb, əməkdaşların işə cəlb edilməsi prosesinin QSC-nin hasilat və istehsalat fəaliyyətinin təşkil edildiyi bölgələrdə yaşayan vətəndaşların, xüsusilə müharibə iştirakçıları, şəhid ailəsi üzvlərinin müvafiq bilik və bacarıqlarının qiymətləndirilməsi əsasında davam etdirilməsinin vacibliyi diqqətə çatdırılıb.

Tədbirin sonunda idarə heyətinin sədri cari ilin ikinci yarısı üçün "AzerGold" QSC və onun törəmə şirkətlərinin qarşısında duran vəzifələr barədə müvafiq tapşırıqlarını verib, hər il olduğu kimi, 2023-cü ilin sonunda da səhmdar cəmiyyətin fəaliyyətində artım tempinin qorunması, qeyri-neft-qaz sektorunu təmsil edən şirkət olaraq ölkəmizin iqtisadi inkişafına yeni töhfələrin verilməsinin önəmini vurğulayıb.


# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN" qəzetinə abunə yazılışı davam edir!**

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |




**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# Fransanın rüsvayçılığı davam edir

Fransada kütləvi polis zorakılığı, vətəndaş itaətsizliyi, hakimiyyət orqanları tərəfindən adekvat reaksiyanın olmaması, irqçilik meyillərinin daha da güclənməsi prosesləri davam edir. Xatırladaq ki, ölkədə etirazlar ötən ayın 27-də Əlcəzairəsilli 17 yaşlı yeniyetmənin polis tərəfindən öldürülməsindən sonra başlayıb.





Fransanın bir cox şəhərlərini bürümüş iğtişaşlar zamanı hüquq-mühafizə orqanlarının əməkdaşları 1124-ü azyaşlı olmaqla 3625 nəfəri saxlayıb. Son məlumata görə, məhkəmələrə 990 iş verilib, onlardan 480-nə sürətləndirilmiş prosessual qaydada baxılıb. Həbs cəzası ilə bağlı 380 hökm çıxarılıb.

Bu günlər Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ali Komissarlığının İdarəsi Fransaya 17 yaşlı yeniyetmənin polis tərəfindən öldürülməsi ilə əlaqədar hüquq-mühafizə orqanlarında irqçilik və irqi ayrı-seçkilik məsələsilə bağlı problemlərin həlli ilə məşğul olmağı tövsiyə edib. Sənəddə bildirilir ki, bu hadisə rahatsızlıq doğurur və indi ölkənin hüquq-mühafizə orqanlarında irqi ayrı-seçkilik və irqçiliyin dərin məsələlərinin ciddi həll edilməsinin vaxtı çatmışdır.

Dünən Bakıda Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun "Qoşulmama Hərəkatı: meydana çıxan çağırışlarla mübarizədə birgə və qətiyyətli" mövzusunda nazirlər görüşündə çıxış edən Prezident İlham Əliyev də Fransada baş verən hadisələrə toxunaraq deyib: "Fransanın soyqırımlarla dolu hakimiyyəti dövründə 1,5 milyona yaxın əlcəzairli qətlə yetirilib. Hələ də Paris muzeyində əlcəzairli azadlıq döyüşçülərinin kəllə sümükləri müharibə qənimətləri kimi saxlanılır. Bu, utancverici və iyrənc hərəkətdir. Biz Fransa Prezidenti Emmanuel Makrondan həmin qəhrəmanların qalıqlarını Əlcəzairə təhvil verməsini tələb edirik".

Azərbaycan Prezidentinin dediyi kimi, özünü yalandan insan haqlarının və beynəlxalq hüququn müdafiəçisi kimi qələmə verən Fransa hələ də digər ölkələrin daxili işlərinə qarışır. Fransa qoşunlarının bu yaxınlarda Mali və Burkina-Fasodan çıxarılması onun Afrikadakı amansız neokolonializm siyasətinin uğursuzluğa məhkum olduğunu bir daha göstərdi.

Bu arada ölkənin iğtişaşlar içində boğulduğu bir zamanda Emmanuel Makronun Parisdə konsertdə olması və rəqs etməsinə sosial şəbəkələrin istifadəçiləri haqlı və sərt reaksiya verirlər.

Xəbər verildiyi kimi, Fransa Prezidenti Emmanuel Makron arvadı Bricitlə Parisdəki Accor Arena zalında keçirilən konsertdə olmuşlar. Model Byanka Brandolini sosial şəbəkələrdə Makronla çəkilmiş kadrları yayımlamışdır. Videoda Makron və həyat yoldaşının əfsanəvi musiqiçi Elton Conun hitlərindən cuşa gəlib rəqs etdiyi əks olunmuşdur.

Müxalifətdəki Milli Birlik partiyasının deputatı Jan-Filipp Tangi kütləvi talanlar zamanı Prezidentin əylənməyə getməsinə qəzəblənib. Siyasətçi sosial şəbəkələrdə yazıb: " Hüquq-mühafizə orqanlarının iğtişaşları yatırtmaq səylərinə baxmayaraq, Fransanın yandırıldığı bir vaxtda Emmanuel Makron Elton Conun konsertinə gedir".

Avropa parlamentinin Fransadan olan deputatı Tyeri Mariani isə tviter hesabında Makronun hərəkətini məsuliyyətsizlik adlandırıb: "Fransanın alovlandığı bir vaxtda Makron nə daxili işlər nazirinin, nə də polisin yanındadır, Elton Conu alqışlamağa üstünlük verir. Hər kəsin öz prioritetləri var. Nə qədər məsuliyyətsizlik".

Sosial şəbəkələrdə bir çox şərhçilər Emmanuel Makronun ölkədə baş verən iğtişaşları həll etmək əvəzinə həyat yoldaşı ilə Elton Conun konsertində əylənməsindən qəzəblənirlər.

İstifadəçilərdən biri tviterdə yazır: "Ölkənin və Fransa sakinlərinin başına gələnlər onun vecinə deyil. Baxın, bu da sübut".

Digər şəbəkə istifadəçisi Darras Helene deyir: "Bu görüntülər öz-özlüyündə hər şeyi izah edir və heç bir əlavə şərhə ehtiyac yoxdur".

Astrid Kuntzmann isə hesab edir ki, "bu cütlük Fransa üçün rüsvayçılıqdır".

Bəzi istifadəçilər hətta tarixdə baş verənlərlə oxşarlıqlar tapıblar. Belə ki, Makronun Roma imperatoru Neronla müqayisə edildiyi şərhlərə tez-tez rast gəlmək olar: "Roma yanarkən Neron skripka çalırdı. Paris alovlananda Makron rəqs edir".

"Bu oğlan əslində əylənmək üçün dövlət başçısı olub" deyə istifadəçi Ced Ladj güman edir.

Həmçinin bir çox fransız Elton Conun konsertindən sonra Makronun onsuz da aşağı olan reytinqlərinin daha da enəcəyi qənaətinə gəliblər. Bir çox Fransa vətəndaşı 2022-ci ildə keçirilən seçkilərdə hazırkı prezidenti dəstəklədiklərinə görə peşman olduqlarını gizlətmir.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# ABŞ səfiri Hayastanı silkələdi

*Əvvəli 1-ci səh.*

Təklifə görə, belə əmələ yol verən vəzifəli şəxsə 10 ildən 15 ilədək azadlıqdan məhrumetmə cəzası verilə bilər. Qrupun əlaqələndiricisi Avetik Çalabyan qeyd edir ki, təklif etdikləri birinci maddədə Qarabağın başqa dövlətin tərkib hissəsi kimi tanınmasını cinayət əməli kimi tövsif edilir. Digər maddədə qondarma "erməni soyqırımı"nın beynəlxalq tanınmasından imtina cinayət əməli kimi göstərilir. Nə üçün məhz bu iki maddə? Çünki məhz bu iki bənd Hayastanın müstəqilliyinə dair 23 avqust 1990-ci ildə qəbul edilmiş Bəyannamədə ümummilli məqsədlər kimi göstərilir.

"4rd.am" nəşri yazır ki, təşəbbüsçülər 50 min imza toplaya bilsələr, ölkə Konstitusiyasına görə, bu məsələ parlamentin müzakirəsinə çıxarılmalıdır. Əgər parlament təşəbbüsü rədd etsə, onda referendum keçirilməsi üçün 300 min imza toplamaq lazım gələcək.

Baş nazir Nikol Paşinyan Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıyıb. Belə olan halda bu təşəbbüs necə uğur qazana bilər? Çalabyan bu suala cavab olaraq deyib ki, Paşinyanın bəyanatı hüquqi baxımdan təsdiq olunmayıb: "Heç müqavilə də bağlanmayıb. Söhbət heç bir hüquqi gücü olmayan şifahi bəyanatdan gedir. Biz elə bu "Ayakve" prosesini ona görə başlatmışıq ki, Qarabağın Azərbaycanın tərkib hissəsi kimi tanınması prosesini dayandıraq". Qeyd edək ki, müxalif ictimai fəal Avetik Çalabyan tələbələri pulla etiraz aksiyalarına cəlbetmədə ittiham olunur.

Göründüyü kimi, hər iki ölkə arasında sülh müqaviləsinin imzalanmasının aktual olduğu bir dönəmdə hərbi xuntanın və ona bənzər digər araqızışdıranların bu cür sərsəm bəyanatlar verməsi erməni xalqını növbəti dəfə fəlakətə sürükləyir. Qeyd edək ki, Azərbaycanla müharibədəki məğlubiyyət Hayastanı elə bir uçuruma yuvarladıb ki, xilası mümkün deyil. Bütün bunlar, o cümlədən Koçaryan və Sarkisyan kimi müharibə cinayətkarlarının hakimiyyətləri dövründən yığılıb qalmış ağır problemlər isə hazırkı hakimiyyəti çətin vəziyyətdə qoyub.

Əslində, revanşist qüvvələr çox yaxşı başa düşürlər ki, böyük siyasətə qayıtmaq üçün heç bir şansları yoxdur - xalq hələ onların hakimiyyət dövrünü unutmayıb. Ona görə onların Cinayət Məcəlləsinə təklif etdikləri düzəlişlərin də ictimaiyyət tərəfindən dəstəklənməsi real görünmür.

Digər tərəfdən, sülhə qarşı çıxmaq Hayastan üçün yeni fəlakətlərə gətirib çıxaracaq. 44 günlük müharibə bunu təsdiq edir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# ANAMA: "Ötən ay 305 mina aşkarlanaraq zərərsizləşdirilib"

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə bütün qurumlar tərəfindən icra edilən minatəmizləmə əməliyyatları barədə aylıq məlumatı açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildiriblər ki, iyunun 1-dən 30-dək Kəlbəcər, Tərtər, Ağdam, Xocalı, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarının ərazilərində aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 63 mina, tank əleyhinə 242 mina və 552 ədəd partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Ay ərzində 2 min 979,1 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

# ALLAH RƏHMƏT ELƏSİN!

Ağdamdan Vaqif Həsənov və Həbib Həsənov Fikrət Əzizova qardaşı

**RAMİZ ƏZİZOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Fikrət Əzizova qardaşı

**RAMİZ ƏZİZOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Mirhaşim Calalov Fikrət Əzizova qardaşı

**RAMİZ ƏZİZOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev Fikrət Əzizova qardaşı

**RAMİZ ƏZİZOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Teymur Kərimli və Gülbəniz Babaxanlı Naxçıvan Dövlət Universitetinin müəllimi Hikmət Mehdiyevə anası

**SƏNUBƏR XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Hüseynbala Mirələmov və Hadi Rəcəbli Fikrət Əzizova qardaşı

**RAMİZ ƏZİZOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Cəlilabad rayonunun Göytəpə şəhər sakinləri və ağsaqqalları Arif Abdullayev, Nəbi Səlifov, Mirağa Həsənov, Saleh Əliyev, Əlipaşa Əmrahov və Fərman Baloğlanov Fikrət Əzizova qardaşı

**RAMİZ ƏZİZOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Neft və Kimya İnstitutunun məzunları Rüfət Zeynalov, Əli Abbasov, Akif Məlikov, Bəylər İmanzadə, Elxan Bağırzadə və Boris Şetinkin 422-ci tədris qrupu üzrə tələbə yoldaşları Fikrət Əzizova qardaşı

**RAMİZ ƏZİZOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**

**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 4637**
**Sifariş 1658**

**Qiyməti 40 qəpik**